## Günün xəbəri

Laçın–Xankəndi yolunda 138 gün davam edən ekoaksiya aprelin 28-də saat 18.00 müvəqqəti dayandırılıb. Ekoaksiyaçıların müvafiq bəyanatı bu şüarlarla bitir:

Ekocinayətə son!
Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!
Azərbaycan vahiddir, sərvətinə sahibdir!

Səhifə ⇨ 12



## "Bu gün biz Göyçə gölünü binoklsuz görürük"

## "NEMEZİSİZM"

Səhifə ⇨ 10





# Xalq qəzeti

Xalqın qəzeti!

№ 87 (30203) 29 aprel 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

veb-sayt: www.xalqqazeti.az


## Prezident İlham Əliyev akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Fəxri xiyabanda görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib.

(ardı 2-ci səhifədə)

## Azərbaycan Ordusu 44 günlük müharibə dövründəkindən daha güclüdür



Səhifə ⇨ 9

## Kolonnadan kolonializm



Səhifə ⇨ 3

## İndi emissarlar Avropadan Bakıya birbaşa uçurlar...

Səhifə ⇨ 6

## Ekoaksiya müvəqqəti dayandırılır...

Səhifə ⇨ 9




## General Lentsovun "startı" uğursuz oldu



Səhifə ⇨ 9

## Formula 1 həyəcanı davam edir



Səhifə ⇨ 13

Səhifə ⇨ 4



## Türkiyə ÜDM ilə dünyada 18-ci yeri tutur

## Özəl bölmə iqtisadiyyatın aparıcı qüvvəsidir

Səhifə ⇨ 11



## Ukraynaya kütləvi raket zərbələri endirilib



Səhifə ⇨ 4

## Ohanyan Qarabağ ermənilərinə "status" dilənir

Səhifə ⇨ 10

# Prezident İlham Əliyev akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib





(əvvəli 1-ci səhifədə)

Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə gül dəstəsi qoyub, əziz xatirəsini ehtiramla anıb.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

Prezident İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edib, önünə gül dəstəsi qoyub.

**AZƏRTAC**

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva akademik Zərifə Əliyeva ilə bir dövrdə çalışmış oftalmoloqlarla söhbət ediblər



Aprelin 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyeva ilə bir dövrdə çalışmış oftalmoloqlarla çay süfrəsi arxasında söhbət ediblər.

**AZƏRTAC**

# Heydər Əliyev Mərkəzində akademik Zərifə Əliyevanın 100 illiyi münasibətilə konsert olub

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva konsertdə iştirak ediblər*



**Aprelin 28-də Heydər Əliyev Mərkəzində görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyinə həsr edilmiş konsert proqramı təqdim olunub.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva konsertdə iştirak ediblər.

Konsertdən əvvəl görkəmli alim, həkim, ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı, bütün işlərdə ona dayaq olan Zərifə Əliyevanın həyat və fəaliyyətini əks etdirən fotosərgi nümayiş olunub.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə hazırlanan konsert akademik Zərifə Əliyeva haqqında filmin nümayişi ilə başlayıb.

Sonra isə səhnə əfsanəvi "Dan ulduzu" instrumental ansamblının ixtiyarına verilib. Konsertdə ansamblın repertuarından sevilən mahnılar ifa olunub. Konsertin proqramına Elza İbrahimova, Emin Sabitoğlu, Firəngiz Babayeva, İbrahim Topçubaşov, Oqtay Kazımi, Sevil Əliyeva və Tofiq Əhmədovun əsərləri, "Dan ulduzu" instrumental ansamblının yaradıcısı Gülarə Əliyevanın "Şüştər" muğamı əsasında yazdığı "Şüştər" rapsodiyası daxil edilib.

Zalda quraşdırılan ekranlarda akademik Zərifə Əliyeva haqqında, "Dan ulduzu" ansamblının çıxışlarını, ötən illərin və müasir dövrün Azərbaycanını əks etdirən kadrlar yayımlanıb.



Konsert bəstəkar Emin Sabitoğlunun "Nə gözəldir Azərbaycan" mahnısının bütün müğənnilər tərəfindən birgə ifa olunması ilə yekunlaşıb.

**AZƏRTAC**

# Ağır atletika üzrə Avropa çempionatında qələbələrini Azərbaycana həsr etmiş Türkiyə idmançıları ilə görüş

**Aprelin 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İrəvanda keçirilmiş ağır atletika üzrə Avropa çempionatında qələbələrini Azərbaycana həsr etmiş Türkiyə idmançıları ilə görüşüblər.**



Türkiyəli idmançıları salamlayan **Prezident İlham Əliyev** dedi:

– Mən sizi salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Siz Ermənistanda keçirilmiş Avropa çempionatında şanlı Türk Bayrağını göylərə qaldırmısınız, Milli Marşı səsləndirmisiniz. Bu münasibətlə sizi bütün Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm. Eyni zamanda, bu qələbəni Azərbaycana həsr etmisiniz. Bu, bizi xüsusilə sevindirən bir haldır. Bu, bir daha onu göstərir ki, Türkiyə-Azərbaycan - iki qardaş ölkə bütün məsələlərdə bir yerdədir. Biz olmayan yerdə siz varsınız, siz olmayan yerdə biz varıq. Biz birik, biz müttəfiqik, biz qardaşıq.

Sizin qələbənizin xüsusi önəmi var. Siz gənc idmançılarsınız, sizin həyatınızda hələ neçə-neçə qələbələr olacaq, amma bu qələbənin özəlliyi var. Çünki Azərbaycana qarşı, bizim milli rəmz olan Bayrağımıza qarşı hörmətsizlik olunan zaman siz ədaləti bərpa etmisiniz. Türk Bayrağının orada qaldırılması ədaləti bərpa etmək idi. Türkiyə dövlətinin Milli Marşının səsləndirilməsi bütün orada oturanları ayağa qaldırdı. Bizim Bayrağımızı yandırdılar, amma bizim üçün öz Bayrağımız qədər əziz olan Türk Bayrağı orada dalğalandı. Bunu da siz etmisiniz, gözəl gənclər, qardaş ölkənin nümayəndələri.

Bildiyiniz kimi, Mehriban xanım və mən sizi məktubla təbrik etdik, Azərbaycana dəvət etdik. Şadam ki, siz bizim dəvətimizi qəbul edib Azərbaycana, öz doğma Vətəninizə gəlmisiniz və sizin bu gəlişiniz bir daha bizim birliyimizi göstərir.

Bayraq yandırmaq heç kimə şərəf gətirmir. Bu gün bizim bayraqlarımız, iki qardaş ölkənin bayraqları - Türkiyə, Azərbaycan bayraqları Ağrı dağda, Murov dağında, Zəngəzur dağlarında, Şuşada bir yerdə dalğalanır və əbədi dalğalanacaq, hər zaman bir yerdə.

Sizi bir daha ürəkdən təbrik etmək istəyirəm. Bir daha Türkiyə–Azərbaycan birliyini nümayiş etdirdiyiniz üçün mən sizi Azərbaycan dövlətinin yüksək nişanı olan "Tərəqqi" medalı ilə təltif edirəm və indi bu medalı sizə təqdim etmək istəyirəm.

***

Sonra türkiyəli idmançılar Cansu Bektaş, Qamze Altun və Nuray Güngörün İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatında qələbələrini Azərbaycan və Türkiyə arasında sarsılmaz qardaşlıq münasibətlərinin təzahürü kimi Azərbaycana həsr etdiklərinə görə "Tərəqqi" medalı ilə təltif edilmələri haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı oxundu.

Prezident İlham Əliyev medalları türkiyəli idmançılara təqdim etdi.

Daha sonra xatirə şəkli çəkdirildi.

***

**Türkiyə Ağır Atletika Federasiyasının prezidenti Talat Ünlü:** Bizim də hədiyyələrimiz var, cənab Prezidentim, onları da verərdik. Hörmətli cənab Prezidentim. Bu, Ermənistanda qazandığımız ilk qızıl medallardan biridir. Cansu qızımızın ərməğan etdiyi medaldır. Bunu ölkəm, ağırlıqqaldırma qurumumuz və Cansu adından qəbul etməyinizi Sizdən xahiş edirəm.

**Prezident İlham Əliyev:** Çox təşəkkür edirəm, çox sağ olun.

**Mehriban xanım Əliyeva:** Çox sağ olun.

**Talat Ünlü**: Bu medal günün anlamı və önəmi üçün çox vacibdir. Bilirsiniz, orada Azərbaycan Bayrağına qarşı törədilən hücum hamımızı dərindən kədərləndirdi. Həmin gecə biz azərbaycanlı qardaşlarımızla birlikdə eyni hissləri yaşadıq. İndi də danışdıqca insanın tükləri biz-biz olur. Uşaqlarımız əzmkarlıq göstərdilər və gözəl nəticələr əldə etdilər. Allaha çox şükür. İnşallah, bundan sonra da birliyimiz, bərabərliyimiz, - hər zaman bunu söyləyirik, - iki dövlət, bir millət, amma birlikdə iri, diri və güclü olmalıyıq.

(ardı 3-cü səhifədə)

# Ağır atletika üzrə Avropa çempionatında qələbələrini Azərbaycana həsr etmiş Türkiyə idmançıları ilə görüş



(əvvəli 2-ci səhifədə)

**Prezident İlham Əliyev:** İnşallah.

**Mehriban xanım Əliyeva:** İnşallah, amin.

**Talat Ünlü**: Bilirik ki, bizim Prezidentimizlə Siz qardaşsınız. Bu, bizim üçün çox önəmlidir. Bunu qəbul etməyinizi xahiş edirəm.

**Prezident İlham Əliyev:** Doğrudur. Çox sağ olun, təşəkkür edirəm. Bunu bizim idman muzeyində qoymalıyıq. Bu, Türkiyə-Azərbaycan birliyinin növbəti simvoludur və bizim gənclərimizin yüksək keyfiyyətə malik olmasının təzahürüdür. Bax, ağır bir yarışda qazanılmış bu medalı bizim Cansu qızımız Azərbaycana ərməğan etdi. Sağ ol. Bütün Azərbaycan xalqı səni sevir, sən bilirsən, sizin hamınızı. Çox sağ olun.

**Cansu Bektaş:** Mən də onları çox sevirəm.

Türkiyə Ağır Atletika Federasiyasının vitse-prezidenti **Yasin Arslan:** Bu da bizim federasiyamızın – Türkiyə Ağır Atletika Federasiyasının loqosudur, cənab Prezidentim. Xahiş edirəm, bunu da qəbul edəsiniz.

**Prezident İlham Əliyev:** Çox təşəkkür edirəm.

**Talat Ünlü**: Bu, Mehriban xanıma hədiyyədir.

**Mehriban xanım Əliyeva:** Çox sağ olun, çox təşəkkür edirəm. Mən onu geyinim, bərabər şəkil çəkdirək. Çox sağ olun.

**Talat Ünlü**: Bu da günün anlam və önəmi üçün, cənab Prezidentim, Sizə ölkəmizin milli forması.

Sonra görüş çay süfrəsi arxasında davam etdirildi.

**Prezident İlham Əliyev**: Bir daha təbrik edirəm. Siz doğrudan bütün Azərbaycan xalqını sevindirdiniz. Cansu qızımız söylədi ki, Azərbaycana ərməğan edirəm. Bütün Azərbaycan xalqının duyğularına toxundu, hamımızı xoşbəxt etdi. Biz Mehriban xanımla sizə yazdığımız məktubda qeyd etdik ki, sizinlə qürur duyuruq. Həqiqətən belədir.

**Talat Ünlü:** Hörmətli cənab Prezidentim, həm Mehriban xanıma, həm də Sizə ölkəm adından, idmançılarım adından çox təşəkkür edirəm. Bizi çox xoşbəxt etdiniz. Çünki belə bir gündə bizi buraya dəvət etməyiniz, burada qonaq qəbul etməyiniz çox böyük bir məna və önəm daşıyır. Orada ən çox üzücü olan bayrağımızın yandırılması təbii ki, içimizi yandırdı.

**Prezident İlham Əliyev**: Bəli, bir də ki, o bayrağı yandırana hər hansı bir cəza da verilmədi, heç bir şey edilmədi, heç bir söz də deyilmədi, əksinə, onu alqışlarla salamladılar. İndi, bilirsiniz, bayraq yandırmaqla heç kim heç nə əldə etmir. 24 apreldə Azərbaycan və Türkiyə bayraqlarını Ermənistanın əsas meydanında yandırmışdılar. Amma bizim bayraqlarımıza onlar Ağrı dağda, mən dedim, Murov dağında, Şuşada yaxınlaşa bilərlərmi? Təbii ki, yox. Ona görə bu, onların acizliyini göstərir, gücsüzlüyünü göstərir.

Bizim qızlarımız orada bayrağı qaldırdılar və Türkiyənin Milli Marşı səslənəndə bütün orada oturanları ayağa qaldırdı. Bax, zəfər budur, qürurverici hallar budur. Bizim dövlətlərimiz də, xalqlarımız da bu zəfərə layiqdir. İkinci Qarabağ savaşında Türkiyə həmişə bizim yanımızda idi, bütün digər məsələlərdə, idmanda hər zaman bir yerdə.

İndi mən sizi növbəti dəfə Qarabağa dəvət edirəm. Arzu edirəm ki, növbəti gəlişiniz Qarabağa olsun. Orada da görərsiniz ki, Şuşa şəhərində Türkiyə və Azərbaycan bayraqları yan-yana dalğalanır. Bu, xalqlarımızın qəlbində olan böyük sevginin təzahürüdür.

**AZƏRTAC**

# Kolonnadan kolonializm



## *Yaxud Fransa XİN rəhbərinin İrəvandakı sarsaqlamalarına sözardı*

**Cənubi Qafqaza səfər reallaşdıran Fransanın xarici işlər naziri Ketrin Kolonnanın İrəvanda erməni həmkarı Ararat Mirzoyanla keçirdiyi birgə mətbuat konfransında səsləndirdiyi fikirlər onu göstərir ki, beynəlxalq siyasi nüfuzunu itirməkdə, qlobal güclər tərəfindən qeyri-ciddi qarşılanmaqda olan rəsmi Paris, Ermənistanın avantürist niyyətinə dəstəkdə israrlıdır. Acınacaqlı hal budur ki, Fransa özünün erməni sevdası naminə bütün beynəlxalq hüquq normalarını tapdalamağa hazırdır.**

Əslində, Kolonnanın söylədikləri təəccüblü sayılmamalıdır. Bir ölkə ki, XXI əsrdə Afrika xalqlarına münasibətdə quldarlıq dövrünün yazılmamış vandal qanunları ilə hərəkət edir, ondan başqa nə gözləyəsən ki? Hüququmu? Ədalətmi? Yox, mümkünsüzdür... Bəli, nə Ermənistanla "bacılıq" siyasətinin müasir ilhamvericisi qismində çıxış edən Prezident Emmanuel Makrondan, nə də onun emissarı olan K.Kolonnadan elə bir gözləntimizi yoxdur. Söylədiklərindən də qətiyyən narahat deyilik. Sadəcə, bəzi məqamlar var ki, onları mütləq qaydada diqqətə çatdırmaq lazımdır. Bu, xaricdə kimlərinsə Fransa XİN rəhbərinin bildirdiklərini ehkam kimi qəbul etməməsi üçün vacibdir. Eyni zamanda, heç kəs düşünməsin ki, Kolonna kimilərinin, eləcə də onların Parisdəki dostlarının Cənubi Qafqazda müstəmləkə ambisiyaları gerçəkləşdirmək naminə hansı siyasi oyunlar oynadıqlarından bixəbərik.

Hazırda Cənubi Qafqazda "sülh zəngulələri" vuran, erməni təəssübkeşliyinin sarı simlərinə toxunan Fransa 44 günlük müharibənin sonuna yaxın Azərbaycan ərazisinə, daha doğrusu, Qarabağa xüsusi təyinatlılar - desant qüvvələri yerləşdirmək niyyətində idi. Elə başa düşməyin ki, bu qüvvələr Qarabağ ermənilərini Azərbaycan hərbçilərindən qorumaq üçün nəzərdə tutulurdu. Qətiyyən belə deyil. Digər yandan, ordumuzla baş etməyin mümkünsüzlüyünü də anlayırdılar.

Paris son dərəcə qəddar və avantürist plan gerçəkləşdirmək istəyirdi. İstəyirdi ki, həmin xüsusi təyinatlı birləşmələr Qarabağın ermənilər yaşayan hissələrinə daxil olub əhalini kütləvi şəkildə qətlə yetirsinlər və sonradan bunu Azərbaycanın erminilərə qarşı soyqırımı kimi dünyaya car çəksinlər. Bu mənfur məqsədin reallaşdırılması, dəqiq desək, dünya çapında ictimailəşdirilməsi naminə Qarabağa jurnalist dəstələri də cəlb etmişdilər. 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanması ilə dünya tarixində misli görünməmiş vəhşiliyin gerçəkləşməsi təxirə salındı. Nəticədə Qarabağ ermənilərinin hüquq və azadlıqları kimi ikiüzlü ssenari dövriyyəyə girdi. Kolonna dünənki mətbuat konfransında məhz həmin ssenarinin "incəliklərindən" söz açmışdı. Aydınlıq gətirəcəyik necə...

Hələlik isə bildirək ki, bir qədər əvvəl diqqətə çatdırdığımız alçaq ssenari fransız zülmkarlığı ilə erməni murdar xislətinin bir-birinə nə qədər oxşadığının təsdiqidir. Tarixdə belə hallar az olmayıb. Erməni millətçiləri 1988-ci ildə Sumqayıtda azərbaycanlılara qarşı antipatiya yaratmaq məqsədilə oxşar "üsuldan" yararlanmış, şəhərin erməni əhalisinə qarşı qətllər, zorakılıqlar gerçəkləşdirmişdilər. Beləcə həm də, öz aləmlərində, azərbaycanlılarla ermənilərin dinc birgəyaşamının mümkünsüzlüyü görüntüsünü formalaşdırmışdılar. Yenə də eyni düşüncədədirlər. Qarabağ ermənilərinin Azərbaycan yurisdiksiyası altında yaşamasının mümkünsüzlüyünü bağırırlar.

Digər tərəfdən, əvvəllər rus ermənipərəstliyi ilə Fransanın timsalındakı Qərb ermənipərəstliyi vəhdətdə idisə və bu vəhdət yekun nəticədə Azərbaycan torpaqlarının işğalı reallığını doğurmuşdusa, hazırda birincilərlə ikincilər ziddiyyət içərisindədirlər. Baxın, xanım Kolonnanın yadına suverenlik, ərazi bütövlüyü kimi dəyərlər düşmür. Əvəzində Qarabağdakı bir ovuc erməni üçün, az qala, dövlət qurulması məsələni ortaya atır. Təbii, bir daha deyək ki, məqsəd heç də həmin erməni azlığın hüquqlarını qorumaq deyil. Başlıca istək erməni avantürizmini və separatçılığını yaşatmaqdır. Bu yaşamın insanların, yəni sıravi ermənilərin həyatlarını ağırlaşdırdığı nə Kolonnanın vecinədir, nə də Makronun. Heç Ermənistan dövləti də Qarabağ ermənilərini düşünmür.

Hazırda Fransanın və Ermənistanın məramı iki il yarım öncə planlaşdırılmış və haqqında söz açdığımız qətliamı gerçəkləşdirməyə yönəlib. Buna görə tarana gedirlər. Niyyətləri budur ki, Azərbaycanı təxribata çəksinlər, əsaslı güc nümayişinə təhrik etsinlər. Əlbəttə, daha sərhəd avantürist niyyətlər üçün qapalı olduğundan, Qarabağ ermənilərini həyatlarına təhlükə yox kimidir. Hərçənd, bölgədə erməni silahlılarının mövcudluğu reallığını da yaddan çıxarmamalıyıq. Tam mümkündür ki, həmin silahlıların içərisində Fransa jandarmlarından da kimlərsə var.

Diqqət yetirək, Azərbaycanın Laçın dəhlizində nəzarət-buraxılış məntəqəsi yaratmasının Bakı ilə İrəvan arasındakı atəşkəs razılaşmasına zidd olduğunu diqqətə çatdıran xanım Kolonna bildirir: "Əgər Azərbaycanın axınların şəffaflığı ilə bağlı narahatlığı varsa, birtərəfli addımlar atmadan, bu məsələyə yanaşmağın bir sıra başqa yolları mövcuddur. Ədalətli və davamlı dünya, insan hüquqlarına hörmət edən və qoruyan dünya deməkdir".

Yəqin, Fransa XİN rəhbərinin yersiz pafosunu və ucuz populizmini hiss etdiniz. Azərbaycan otuz ilə yaxın müddətdə torpaqlarının işğal altında olmasından narahat yox, mənəvi zülm çəkib, Kolonna durub söz oyunu ilə məşğuldur. Ketrin xanım ölkəsinin ermənipərəstliyə söykənmiş primitiv baxışını həqiqət kimi sırıyacaq qədər həyasızdır. Nə deyəsən, dünya ədalətli deyil axı belələri sussunlar, danışmasınlar.

Sual olunur: Fransa XİN başçısı başqa yollar dedikdə nəyi nəzərdə tutur? Azərbaycan iki ildən çoxdur bəyan edir ki, Laçın yolu ilə qanunsuz silah-sursat, hərbi texnika daşınır, ancaq buna məhəl qoyulmur. Nəhayət, ekofəalların aksiyası ilə prosesin qarşısı qismən alınanda, Paris Avropa İttifaqını ortaya ataraq, qurumun mülki missiyası adı altında silahlıları Ermənistana doldurur. Bu gün də həmin silahlılar hazır vəziyyətdə dayanıb gözləyirlər. Yol budurmu?

Azərbaycan özünün suveren ərazisində (Fransanın rəsmən tanıdığı) sərhəd məntəqəsi qurur, K.Kolonna hadisənin beynəlxalq hüquq baxımından yolverilməzliyindən danışıb sərsəmləyir. Habelə, Azərbaycan neçə vaxtdır durmadan bildirir ki, Qarabağın erməni əhalisinin dinc şəraitdə, vətəndaş kimi bütün hüquqlardan yararlanaraq yaşamasına təminat verir, Qarabağ ermənilərini Bakıya dəvət edir, yenə əhəmiyyət verən yoxdur, əvəzində Fransa XİN rəhbəri onların adət-ənənələrinə hörmət qoyulmasının vacibliyindən dəm vurur. İki əsrə yaxındır ki, Azərbaycan ərazisində ermənilər yaşayır, heç kəs onlara deməyib ki, adətini kənara qoy, ənənəndən uzaqlaş. Nəinki ermənilərin, ölkəmizdəki digər xalqların dininə, dilinə, məişətinə qarşı hər hansı qəsd törədilməyib, bu gün də eyni yol tutulmaqdadır. Belə bir aşkar reallığı görməzdən gəlmək, ən azından, böyük saxtakarlıqdır ki, bunu Kolonna İrəvanda nümayiş etdirdi.

Azərbaycan ictimaiyyəti K.Kolonnanın Cənubi Qafqaz turnesindən Parisin bölgə ilə bağlı siyasətində müsbət dəyişikliyə dair mesajların səslənməsini gözləyirdi. Yəni, azacıq da olsa, buna inam var idi. Amma XİN başçısının İrəvandakı sayıqlamaları göstərdi ki, Fransadan hər hansı pozitiv yanaşmaya ümid bəsləmək əbəsdir. Kolonna Ermənistana Makronun "bacılıq" dəstəyini ifadə etmək üçün gəlmişdi. Vəssalam!

**R.AMİN,**
***"Xalq qəzeti"***

# Birinci vitse-prezident Mehriban Əliyeva akademik Zərifə Əliyevanın 100 illik yubileyi ilə bağlı paylaşım edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyi ilə bağlı paylaşım edib.**

**Paylaşımda deyilir:**

**"Bu gün Zərifə Əliyevanın anadan olmasının 100 illiyi tamam olur. Bu xeyirxah, mehriban, səmimi İnsanı tanıyan hər kəs kimi, mən də onun nurlu simasını yaddaşımda qoruyub saxlayıram!".**

# Görkəmli oftalmoloq-alimin yubileyi ölkəmizdə geniş qeyd olunub



**Abşeron rayonunda görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın 100 illiyinə həsr olunmuş tədbir keçirilib.**

Rayon icra hakimiyyətinin başçısı Abdin Fərzəliyev bildirib ki, Zərifə xanım Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var.

Çıxış edənlər Zərifə xanım Əliyevanın Azərbaycan səhiyyəsinin inkişafında və bir çox göz xəstəliklərinin uğurlu müalicəsində böyük əzmi və fəaliyyətindən söz açıblar. Onun sədaqətli həyat yoldaşı, qayğıkeş ana, gözəl tibb xadimi olduğu vurğulanıb.

***

**Xətai Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatı və Respublika Perinatal Mərkəzinin birgə təşkilatçılığı ilə görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyinə həsr edilmiş tədbir keçirilib.**



Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə bu günü Azərbaycan elminin böyük bayramı kimi dəyərləndirərək bildirib ki, Zərifə xanım Əliyevanın rəhbərliyi ilə gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişib. Zərifə xanımın həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiliyi və qayğıkeşliyi, insanlara, onların problemlərinə göstərdiyi diqqət, fəal həyat mövqeyi ona həmkarlarının, yetirmələrinin və xəstələrinin dərin hörmətini qazandırıb.

Diqqətə çatdırılıb ki, görkəmli oftalmoloq vaxtilə Azərbaycanda geniş yayılmış traxoma, peşə fəaliyyəti ilə bağlı yaranan göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsi, habelə oftalmologiyanın problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir.

***

**Fövqəladə Hallar Nazirliyi (FHN) Mülki Müdafiə Qoşunlarının komandanlığında akademik Zərifə Əliyevanın 100 illiyinə həsr olunmuş tədbir keçirilib.**



Tədbirdə çıxış edənlər akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyinin böyük təntənə ilə qeyd olunduğunu xatırladaraq görkəmli alimin mənalı ömür yolundan danışıblar.

Diqqətə çatdırılıb ki, akademik Zərifə xanım Əliyevanın keçdiyi şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı, alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Sonra tədbirdə görkəmli alimin həyat və fəaliyyətini əks etdirən "İşığa aşiq ömür" adlı film nümayiş olunub.

***

**Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illik yubileyi ilə əlaqədar "Azərpoçt" MMC tərəfindən poçt markası dövriyyəyə buraxılıb.**




Zərifə Əliyevaya həsr olunmuş xatirə markası bir markadan ibarət blok şəklində hazırlanıb və Belarus Respublikasının "Bobruisk Integrated Printing House" mətbəəsində 4000 tirajla çap edilib.

Markanın dizaynının müəllifi Nəriman Məmmədzadədir.

***

**Gəncədə oftalmoloq alim Zərifə xanım Əliyevanın xatirəsinə həsr edilmiş fləşmob keçirilib.**




Heydər Əliyev adına Meydanda 2500 nəfərin iştirakı ilə baş tutan fləşmobda könüllülər, şəhərin ali təhsil müəssisələrinin tələbələri birlikdə "Zərifə Əliyeva-100" yazısını əks etdiriblər.

***



**Naxçıvan Qarnizonu tam orta məktəbində görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyi ilə əlaqədar tədbir keçirilib.**

Naxçıvan Qarnizonu tam orta məktəbinin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Natiq Əhmədov və digər çıxış edənlər Zərifə xanım Əliyevanın həyatı və tibb elminə bəxş etdiyi əvəzsiz xidmətlərindən danışıblar.

# "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 23 dekabr tarixli 432 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 23 dekabr tarixli 432 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 12, maddə 844; 2001, № 7, maddə 470, № 10, maddə 640; 2002, № 12, maddə 725; 2003, № 9, maddə 475, № 10, maddələr 569, 585; 2004, № 9, maddə 678; 2005, № 5, maddə 400; 2006, № 7, maddə 590; 2007, № 5, maddə 452, № 6, maddə 599, № 11, maddə 1097; 2008, № 7, maddə 613; 2009, № 3, maddə 163, № 12, maddə 990; 2010, № 6, maddə 498, № 7, maddə 610; 2013, № 10, maddə 1146; 2014, № 5, maddə 477; 2015, № 9, maddə 999; 2016, № 8, maddə 1384; 2019, № 3, maddə 413, № 5, maddə 826, № 6, maddə 1036; 2021, № 1, maddə 41; 2022, № 5, maddə 455, № 12, maddə 1443; 2023, № 1, maddə 75; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 mart tarixli 2077 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Həmin Fərmanla təsdiq edilmiş "Yerli icra hakimiyyəti orqanlarının sərəncamında olan, habelə yaşayış binalarında yerləşib dövlət vəsaiti hesabına inşa edilmiş qeyri-yaşayış sahələrinin özəlləşdirilməsi Qaydaları"nın 4.2-ci bəndinin onuncu abzası on birinci abzas hesab olunsun və aşağıdakı məzmunda onuncu abzas əlavə edilsin:

"Qeyri-yaşayış sahələrinin özəlləşdirilməsi üçün nəzərdə tutulan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar icraçıdan tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi icraçının razılığı ilə sorğu əsasında müvafiq dövlət qurumundan tələb olunur və ya icraçı tərəfindən təmin edilir.".

**2.** Həmin Fərmanla təsdiq edilmiş "Dövlət əmlakının hərraclar vasitəsi ilə satışı Qaydaları" üzrə:

2.1. aşağıdakı məzmunda 3.4-1-ci bənd əlavə edilsin:

"3.4-1. Bu Qaydaların 3.3-cü və 3.4-cü bəndlərində nəzərdə tutulan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar hərracda iştirak etmək istəyən şəxslərdən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi hərracda iştirak etmək istəyən şəxslərin razılığı ilə sorğu əsasında müvafiq dövlət qurumundan tələb olunur və ya həmin şəxslər tərəfindən təmin edilir.";

2.2. 3.6-cı bəndin dördüncü abzasına "tam şəkildə təqdim olunmadıqda" sözlərindən sonra "(bu Qaydaların 3.4-1-ci bəndinin müddəaları nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

**3.** Həmin Fərmanla təsdiq edilmiş "Dövlət əmlakının ixtisaslaşdırılmış çek və pul hərraclarında satışı Qaydaları" üzrə:

3.1. aşağıdakı məzmunda 3.3-1-ci bənd əlavə edilsin:

"3.3-1. Hərracda iştirak etmək üçün nəzərdə tutulan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan əldə edilməsi mümkün olduqda, həmin sənədlər sifarişçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi sifarişçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət qurumundan tələb olunur və ya sifarişçi tərəfindən təmin edilir.";

3.2. 3.6-cı bəndin dördüncü abzasına "tam şəkildə təqdim olunmadıqda" sözlərindən sonra "(bu Qaydaların 3.3-1-ci bəndinin müddəaları nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 aprel 2023-cü il**

# 9 dekabr tarixli 226 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının Registri haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 226 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 706; 2001, № 10, maddə 640; 2006, № 5, maddə 409, № 7, maddə 590; 2010, № 7, maddə 610; 2020, № 12 (I kitab), maddə 1477; 2023, № 1, maddə 69) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının Registri haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 24-1-ci bənd əlavə edilsin:

"24-1. Daşınmaz dövlət əmlakı barədə məlumat almaq üçün tələb olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar müraciət edəndən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi müraciət edənin razılığı ilə sorğu əsasında müvafiq dövlət qurumundan tələb olunur və ya müraciət edən tərəfindən təmin edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 aprel 2023-cü il**

# Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 19 dekabr tarixli 659 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Özəlləşdirilən müəssisə və obyektlərin yerləşdiyi torpaq sahələrinin satılması qaydaları haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 19 dekabr tarixli 659 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 514; 1999, № 5, maddə 306; 2000, № 12, maddə 844; 2001, № 7, maddə 464, № 10, maddə 640; 2002, № 8, maddə 480; 2006, № 7, maddə 590; 2010, № 7, maddə 610; 2022, № 12, maddə 1431) ilə təsdiq edilmiş "Özəlləşdirilən müəssisə və obyektlərin yerləşdiyi torpaq sahələrinin satılması qaydaları haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 12-1-ci hissə əlavə edilsin:

"12-1. Torpaq sahəsini almaq üçün tələb olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar özəlləşdirilmiş müəssisənin və ya obyektin mülkiyyətçisindən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi özəlləşdirilmiş müəssisənin və ya obyektin mülkiyyətçisinin razılığı ilə sorğu əsasında müvafiq dövlət qurumundan tələb olunur və ya həmin mülkiyyətçi tərəfindən təmin edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 aprel 2023-cü il**

# Əli Əsədov Beynəlxalq Avtomobil Federasiyasının prezidenti ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov aprelin 28-də Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Məhəmməd Ben Sulayem ilə görüşüb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Formula 1 yarışlarının Azərbaycanda uğurla keçirildiyi vurğulandı.

Azərbaycanda yol hərəkəti təhlükəsizliyinin artırılması və yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqamətində görülən işlərə dair fikir mübadiləsi aparıldı.

Eyni zamanda, Azərbaycan Avtomobil Federasiyası ilə Beynəlxalq Avtomobil Federasiyası arasında əməkdaşlığın perspektivləri müzakirə olundu.

***Q.QASIMOV, "Xalq qəzeti"***

# Tərtərdə növbəti mina partlayışı: bu dəfə 3 soydaşımız həyatını itirdi

**Dünən Tərtər rayonunun Talış kəndindən Tapqaraqoyunlu kəndi istiqamətində olan ərazisində tank əleyhinə mina partlayışı nəticəsində 3 nəfər həlak olub. Bu barədə Baş Prokurorluqdan aldığımız məlumatda bildirilir.**

Həlak olanlar "RPS Energy Ltd." şirkətinin əməkdaşları Səxavət Gözəlov, Nadir Yusifov və Fərid Sədiyevdir.

Xatırladaq ki, Vətən müharibəsi bitəndən sonra Ermənistan silahlı qüvvələrinin basdırdıqları minaların partlaması nəticəsində 298 nəfər hərbi qulluqçu və mülki şəxsdən 54-ü həlak olub, 244-ü isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

***"Xalq qəzeti"***

# Cansu Bektaş, Qamze Altun və Nuray Güngörün "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

İrəvanda keçirilən ağır atletika üzrə Avropa Çempionatında qələbələrini Azərbaycan və Türkiyə arasında sarsılmaz qardaşlıq münasibətlərinin təzahürü kimi Azərbaycana həsr edən aşağıdakı Türkiyə idmançıları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Cansu Bektaş
Qamze Altun
Nuray Güngör.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 aprel 2023-cü il**

# "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Milli arxiv fondu haqqında", "Dövlət qulluğu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Dövlət sirri haqqında", "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında" və "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 668-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 430; 2006, № 8, maddə 435; 2013, № 8, maddə 899; 2016, № 3, maddə 464; 2022, № 8, maddə 872) aşağıdakı məzmunda 2.3-1-ci bənd əlavə edilsin:

"2.3-1. həmin Qanunun 8-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi həyata keçirirlər;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 aprel 2023-cü il**

# 23 oktyabr tarixli 972 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların mülkiyyətə və ya icarəyə verilməsi ilə bağlı torpaq müsabiqələrinin və hərraclarının keçirilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 972 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 577; 2008, № 12, maddə 1063; 2014, № 11, maddə 1421; 2016, № 2 (II kitab), maddə 241; 2023, № 1, maddə 69) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların mülkiyyətə və ya icarəyə verilməsi ilə bağlı torpaq müsabiqələrinin və hərraclarının keçirilməsi Qaydaları"na aşağıdakı məzmunda 9-1-ci bənd əlavə edilsin:

"9-1. Bu Qaydaların 9-cu bəndində göstərilən sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət qurumundan tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 aprel 2023-cü il**

# Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 22 iyun tarixli 284 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Daşınmaz dövlət əmlakı obyektlərinin müsabiqə əsasında icarəyə verilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 22 iyun tarixli 284 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 499; 2014, № 11, maddə 1423; 2015, № 9, maddə 1007; 2016, № 2 (II kitab), maddə 235; 2019, № 5, maddə 826; 2021, № 1, maddə 38; 2023, № 1, maddə 70; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 mart tarixli 2077 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Daşınmaz dövlət əmlakı obyektlərinin müsabiqə əsasında icarəyə verilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 2.7-1-ci bənd əlavə edilsin:

"2.7-1. Bu Qaydaların 2.6-cı və 2.7-ci bəndlərində nəzərdə tutulan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar sifarişçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi sifarişçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət qurumundan tələb olunur və ya sifarişçi tərəfindən təmin edilir.".

**2.** 2.8-ci bəndin birinci abzasına ikinci halda "təqdim edilmədikdə" sözlərindən sonra "(bu Qaydaların 2.7-1-ci bəndinin müddəaları nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 aprel 2023-cü il**

# Ulu öndərin məhkəmə-hüquq islahatları



**Müstəqil Azərbaycanın özünəməxsus milli inkişaf modelini şərtləndirən meyarlar sırasında qazanılan iqtisadi nailiyyətlərlə yanaşı, dünyada maraqla izlənilən, ölkənin beynəlxalq nüfuzunu möhkəmləndirən hüquq islahatlarını da xüsusi qeyd etmək lazımdır. Bu islahatlar hakimiyyətin üç əsas qolundan biri olan, qanunun aliliyinin, vətəndaşların hüquqi mənafelərinin təminatında mühüm rol oynayan məhkəmə orqanlarının fəaliyyətində əsaslı dönüş yaradıb, ədalət mühakiməsinin səmərəliliyinə ictimai inamı gücləndirib.**

Bu il anadan olmasının 100-cü ildönümü tamam olan ümummilli lider, dünya miqyaslı şəxsiyyət Heydər Əliyev müstəqil Azərbaycanın xilaskarı və qurucusu olmaqla yanaşı, ölkədə hüquqi dövlət və vətəndaş cəmiyyəti ideyalarının praktik tətbiqinə yönələn məhkəmə-hüquq islahatlarının müəllifi kimi ehtiramla xatırlanır. “Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə” – deyən ulu öndər Heydər Əliyev dövlətə rəhbərliyinin hər iki mərhələsində qanunun aliliyinə, vətəndaşların dövlətə olan inamının sarsılmazlığına, həqiqətin ən ali dəyər kimi qəbul olunmasına çalışıb, ədalətli rəhbər olaraq xalqının dərin sevgisini qazanıb.

Əminliklə deyə bilərik ki, xalqımızın hüquqi və demokratik cəmiyyətdə yaşamaq arzusu məhz ulu öndər Heydər Əliyevin, müstəqil Azərbaycana rəhbərliyi dövründə, həyata keçirdiyi məhkəmə-hüquq islahatlarının nəticəsi olaraq reallaşıb. 1993-cü ilin iyun ayında – son dərəcə mürəkkəb bir zamanda xalqının təkidli tələbi ilə hakimiyyətə qayıdaraq məsuliyyəti üzərinə götürən, insanları mütərəqqi ideyalar ətrafında birləşdirən, ictimai-siyasi sabitliyi təmin edən, dövlətçiliyə qarşı yönəlmiş cinayətkar qəsdləri zərərsizləşdirən ulu öndər Heydər Əliyev, ilk aylardan etibarən, vətəndaş mənafeyini önə çəkən məhkəmə-hüquq islahatlarının da reallaşdırılmasını vacib sayıb.

Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” sərəncamında ulu öndərin dövlətimiz qarşısındakı tarixi xidmətləri, o cümlədən, hüquqi dövlət quruculuğundakı rolu xüsusi vurğulanır: “Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir”.

Həmin dövrdə bir ictimai-iqtisadi formasiyadan digərinə sürətli keçid – siyasi, iqtisadi və hüquqi sistemin müasirləşdirilməsi zərurəti müstəqil Azərbaycanın ilk milli Konstitusiyasının hazırlanması və qəbulunu da obyektiv reallıq kimi meydana çıxarmışdı. Ulu öndər Heydər Əliyevin müəllifliyi ilə hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş həmin Konstitusiya Azərbaycanın unitar, demokratik və dünyəvi dövlət statusunu təsbit edib, vətəndaş cəmiyyətinə, insan hüquq və azadlıqlarının prioritetliyinə əsaslanan islahatların əsasına çevrilib.

Mütərəqqi beynəlxalq təcrübəyə söykənən, insan hüquq və azadlıqlarının aliliyinə təminat yaradan Konstitusiyamızda hakimiyyət bölgüsü prinsipi – məhkəmə fəaliyyətinin müstəqilliyi və ədalət mühakiməsinin həyata keçirilməsinin fundamental əsasları dolğun əksini tapıb. Ali Qanunun VII fəslində üçpilləli məhkəmə sisteminin yaradılması, fəaliyyəti, habelə hakimlərin müstəqilliyi, toxunulmazlığı, ədalət mühakiməsinin həyata keçirilməsi prinsipləri və digər vacib məqamlar dolğunca əksini tapıb.

Azərbaycan Respublikası Konstitusiyasının qəbulu cəmiyyətin siyasi, iqtisadi və hüquq sistemində əsaslı islahatlar üçün bazis olmaqla, əvvəlkindən fərqli, dövrün tələblərinə cavab verən üçpilləli, müstəqil məhkəmə sisteminin formalaşdırılmasına da zəmin yaradıb. Hüquq İslahat Komissiyası tərəfindən hazırlanaraq 10 iyun 1997-ci il tarixdə qəbul olunmuş “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanunu isə məhkəmələrin məhz Əsas Qanunda əksini tapmış modeldə formalaşdırılmasını təmin edib. Qanunun 3-cü maddəsinə əsasən: “Məhkəmələr ədalət mühakiməsini həyata keçirərkən, Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını, mülkiyyət formasından asılı olmayaraq, bütün müəssisə, idarə və təşkilatların, siyasi partiyaların, ictimai birliklərin, digər hüquqi şəxslərin hüquqlarını və qanuni mənafelərini hər cür qəsdlərdən və qanun pozuntularından müdafiə edir, Azərbaycan Respublikasının Konstitusiyasında və bu qanunda nəzərdə tutulmuş digər vəzifələri həyata keçirirlər”.

Reallaşdırılan sistem xarakterli islahatlar məhkəmələrin funksiya, səlahiyyət və vəzifələrinin liberal və humanist dəyərlərə uyğunlaşdırılmasını, barəsində formalaşmış “cəza orqanı” təəssüratının aradan qalxmasını da təmin edib. Nəticədə həbsəalma üçün sanksiyanın verilməsi səlahiyyəti prokurorluqdan alınaraq, məhkəmələrə verilib, bu qurumun məhkəmələr üzərində nəzarət funksiyası aradan qaldırılıb. Üçpilləli məhkəmə sistemi işlərə baxılarkən, birinci instansiya məhkəmələrinin buraxdığı hər hansı səhvin yuxarı məhkəmə instansiyalarında aradan qaldırılmasına, beləliklə, insan hüquq və azadlıqlarının daha etibarlı qorunmasına təminat yaradır.

Ulu öndər Heydər Əliyev məhkəmələrin müstəqilliyinin gücləndirilməsi, ədalət mühakiməsinin qanunamüvafiq şəkildə həyata keçirilməsi baxımından hakim korpusunun sağlamlaşdırılması məsələsinə də xüsusi diqqət yetirib. Məhkəmələrin müstəqilliyinin qorunması üçün hakimlərin tamamilə şəffaf və demokratik yolla, test üsulu əsasında seçilməsi təcrübəsinin əsası 2000-ci ildə - ulu öndər Heydər Əliyevin siyasi iradəsi ilə qoyulub. Bunun nəticəsi olaraq da hakimlərin seçilməsi və təyinatı ilə bağlı cəmiyyətdə müsbət rəy formalaşıb.

Yeni dövrün tələblərinə cavab verən konstitusiya islahatlarının reallaşdırılması və məhkəmələrlə bağlı bir sıra müddəaların təkmilləşdirilməsi də ümummilli liderin hüquqi dövlət quruculuğu sahəsindəki tarixi xidmətlərindən biri kimi qeyd olunmalıdır. 2002-ci ildə Əsas Qanuna xalqın idarəsi əsasında edilmiş əlavə və dəyişikliklər siyasi partiyaların ləğvi səlahiyyətlərinin Konstitusiya Məhkəməsindən alınaraq ümumi yurisdiksiyalı məhkəmələrə verilməsi, Baş Prokurorluğun və Ali Məhkəmənin qanunvericilik təşəbbüsü ilə çıxış etmək səlahiyyətlərinə malik olması, vətəndaşlara Konstitusiya Məhkəməsinə birbaşa müraciət etmək imkanının yaradılması və digər vacib məsələləri özündə ehtiva edirdi.

Ümumilikdə, 1995-2003-cü illəri əhatə edən məhkəmə-hüquq islahatları ölkənin siyasi, iqtisadi və hüquqi sistemindəki əsaslı dəyişikliklərin, cəmiyyətin sosial sifarişinin obyektiv nəticəsi olub. Beləliklə, müstəqil Azərbaycan son 30 ildə inanılmaz inkişaf yolu keçərək bir sıra dövlətlərin onilliklər ərzində yetişdiyi yüksək tərəqqiyə nail olub, insan hüquq və azadlıqlarının təminatı sahəsində böyük uğurlara imza atıb.

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu bu islahatları ötən 20 ildə əzmlə davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev hüquqi dövlət quruculuğu prosesinin mühüm tərkib hissəsi olaraq, məhkəmə hakimiyyətinin davamlı surətdə yeniləşdirilməsinə vacib məsələlərdən biri kimi yanaşır. Bunun nəticəsidir ki, ölkədə məhkəmələrin müstəqilliyinin gücləndirilməsinə, obyektiv və şəffaf şəraitdə hakim korpusunun formalaşdırılmasına, bu sahədə şəffaflığın təmin edilməsinə, elektron xidmətlərin tətbiqinə, bir sözlə, vətəndaş məmnunluğuna xidmət edən islahatlar daha geniş miqyas alıb.

Xatırlatmaq yerinə düşər ki, məhkəmə-hüquq islahatlarının kompleks şəkildə reallaşdırılması məqsədilə imzalanmış 19 yanvar 2006-cı il tarixli “Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” fərman yeni mərhələdə ölkəmizdə çoxşaxəli hüquq islahatları üçün baza rolunu oynayıb. Regional inkişafa xidmət edən islahatların mahiyyətindən irəli gələn bu sənəd əsasında regionlarda yeni məhkəmələrin yaradılması vətəndaşların müraciət imkanlarının asanlaşdırılmasına xidmət edib: 2006-cı ildə respublika apellyasiya və iqtisad məhkəmələrinin əvəzinə, 6 regional apellyasiya, habelə, əlavə 3 yerli iqtisad məhkəməsi təşkil edilib.

Fərman əsasında, həmçinin, Ədliyyə Akademiyası yaradılıb, Hakimlərin Etik Davranış Kodeksi hazırlanaraq təsdiqlənib, məhkəmələrdə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi, məhkəmə təcrübəsində nəzərə alınması təmin olunub, hakimlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilib.

Məhkəmələrlə bağlı qanunvericiliyə 22 iyun 2010-cu il tarixli dəyişikliklər, eləcə də sisteminin müasirləşdirilməsi məqsədilə dövlət başçısının 2010-cu il 15 iyul və 9 avqust tarixdə imzaladığı fərmanlar ədalət mühakiməsinin səmərəliliyinin artırılması baxımından son dərəcə əhəmiyyətli olub. Regionlarda yaşayan əhalinin məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması baxımından əlavə dörd bölgədə ağır cinayətlər, habelə dövlət orqanları tərəfindən insan hüquqlarına ciddi əməl olunmasının təmini məqsədilə yeddi bölgədə inzibati-iqtisadi məhkəmələrin yaradılması xüsusilə əhəmiyyətli olub.

Hər bir cəmiyyətin sütunlarının ədalət prinsipi üzərində bərqərar olması, tarixən qanunçuluğun keşiyində dayanan, hüququn aliliyini rəhbər tutan səlahiyyət sahiblərinin, ilk növbədə, insan taleyi ilə bağlı qərarlar qəbul edən hakimlərin fəaliyyətindən asılı olub. Hakimlərin Etik Davranış Kodeksinin qəbulu, məhkəmə hakimiyyətinin hazırlıqlı, mənəvi cəhətdən saf hakimlərlə komplektləşdirilməsi üzrə tədbirlərin davam etdirilməsi, bütün məhkəmələrin tərkibinin təzələnməsi də məhz bu reallıqlarla şərtlənib. Məhkəmə-Hüquq Şurası tərəfindən həyata keçirilən tədbirlər hakim vəzifəsinə seçkilərin tamamilə azad və ədalətli keçirilməsinə, bu məsul vəzifəyə ən layiqli insanların seçilməsinə xidmət edib. Son 15 ildə reallaşdırlan çoxmərhələli seçim prosedurlarında, o cümlədən, test, yazılı və şifahi imtahanlarda müvəffəqiyyət qazanmış 500 nəfərdən çox namizəd hakim vəzifəsinə təyin olunub.

Məhkəmələr üçün yeni inzibati binaların inşası, mövcud binaların əsaslı təmir olunması, hakimlərin müasir informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərindən istifadə imkanlarının yaradılması, ümumən, ölkədə ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsinə, korrupsiyaya qarşı mübarizəyə xidmət edib. Ölkə başçısının 2014-cü il 13 fevral tarixli “Elektron məhkəmə informasiya sisteminin yaradılması haqqında” sərəncamı bu sahədə işlərin keyfiyyətcə yeni mərhələdə daha da genişlənməsinə, məhkəmələrdə İKT-nin ən son nailiyyətlərinin tətbiqinə imkan verən əlahiddə əhəmiyyətli sənəd olub.

Prezident İlham Əliyevin 10 fevral 2017-ci il tarixli “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” sərəncamında yer alan strateji məqsəd isə cinayət-hüquq siyasətinin liberallaşdırılması, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs və azadlıqdan məhrumetmə tədbirlərinin tətbiqinin məhdudlaşdırılması olub.

Azərbaycan Respublikası Prezidentinin “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” 2019-cu il 3 aprel tarixli fərmanı isə ədliyyə və məhkəmə sistemində islahatların müasir çağırışlara uyğun davam etdirilməsinə imkan verib, o cümlədən, elektron məhkəmənin tətbiqi ilə bağlı təşkilati işlərin yekunlaşdırılmasını, onun funksionallığının artırılmasını, fiziki və hüquqi şəxslərin bu sistemdən istifadəsinin təşviqini şərtləndirib. Fərman əsasında ötən 4 ildə müasir dövrün tələblərinə cavab verən ədalət mühakiməsinin formalaşdırılması, məhkəmə icraatının effektivliyinin yüksəldilməsi, hakim və məhkəmə aparatı işçilərinin sosial müdafiəsinin daha da yaxşılaşdırılması, müvafiq infrastrukturun yenilənməsi işlərinin davam etdirilməsi, məhkəmə icraatında müasir informasiya texnologiyalarından hərtərəfli istifadə edilməsi və digər mühüm məsələlərin həll olunması istiqamətində zəruri tədbirlərin görülməsi mümkün olub. Fərmanla, həmçinin, hakim ştatlarının sayının 200 ştat vahidi artırılması, ixtisaslaşdırılmış kommersiya məhkəmələrinin, özəl ekspertiza institutunun yaradılması təmin edilib.

Ölkəmizin iqtisadi inkişaf tempinə adekvat şəkildə reallaşdırılan məhkəmə-hüquq islahatlarının uğurlu nəticələrini hər bir vətəndaş gündəlik həyatında hiss edir və minnətdarlıqla qarşılayır. Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın ədliyyə və məhkəmə sistemi ilbəil müasirləşir, insan hüquq və azadlıqlarının müdafəsi sahəsində prinsipial sözünü deyir.

**Orxan CƏBRAYILOV,**
**Bakı Apellyasiya Məhkəməsinin şöbə müdiri**

# Unuda bilmədiyim insan



**Hakimiyyət dəyişiklikləri, geosiyasi kataklizmlər, müharibələr, ölkələrin qardaşlıq münasibətlərinin düşmənçiliyə çevrilməsi və başqa hadisələrin dünyanı silkələdiyi bir şəraitdə duruş gətirmək, siyasi iradə göstərmək, düzgün taktika və strategiya seçmək, ölkəni sınaqlardan çıxarmaq az liderə nəsib olur. Belə rəhbərlərdən biri böyük şəxsiyyət, ulu öndər Heydər Əliyev idi.**

Tale elə gətirib ki, mən erkən yaşlarımdan dünyada baş verən hadisələri, dəyişiklikləri izləmişəm. Özümdən asılı olmayaraq, reaksiyalarımı gənc yaşlarımda bədii dildə, şeir, hekayə janrlarında ifadə etməyə çalışmışam. Elə o vaxtdan duyğu və düşüncəmdə Heydər Əliyevin ideal rəhbər obrazı yaranıb. Bu gün də mənim üçün bu obraz etalondur.

Ümummilli liderin çıxışlarını, söhbətlərini istər Sovet Azərbaycanı dönəmində, istər müstəqillik dövründə televiziya və mətbuatda, istərsə də canlı görüşlərdə, tədbirlərdə diqqətlə izləmiş, özüm üçün qeydlər etmişəm və hər dəfə də onun böyüklüyünü, əzəmətini hiss etmiş, sonsuz qürur duymuşam. Bir faktı isə sonralar Qarabağ, millətlərarası münasibətlər mövzusunda yazdığım “And” romanımda demək olar ki, sözbəsöz qeyd etmişəm.

...1974-cü il yanvarın 31-də Sumqayıt Şəhər Partiya Komitəsinin XVIII konfransında Heydər Əliyev iştirak edirdi. Mən o zaman Sumqayıt Kompressorlar zavodunda partiya təşkilatı katibinin müavini idim və konfransa nümayəndə seçilmişdim. İlk dəfə idi Heydər Əliyevi yaxından görürdüm. Onun nitqini böyük maraqla dinlədim. Onu da xüsusi vurğulayım ki, o vaxtlar vəzifəli şəxslərin əksəriyyəti rus dilində danışmağa üstünlük versə də, Heydər Əliyev Azərbaycan dilində çıxış etdi. Ulu öndər çıxışında maraqlı bir epizod danışdı. Dedi ki, səhər adəti üzrə işə gedirdim. “Kommunist” küçəsi ilə yuxarı qalxanda Elmlər Akademiyası Rəyasət Heyətinin binası yaxınlığından keçərkən qəfildən yaşlı bir qadın özünü maşının qabağına atdı. Təlimata görə, belə hallarda maşını saxlamaq olmazdı. Lakin mən sürücüyə göstəriş verdim ki, saxlasın. Mühafizəçilərə dedim o qadını yanıma gətirsinlər. Qadını maşına oturtdum və soruşdum ki, ay ana, niyə belə edirsən? Axı maşını saxlamaq olmazdı, sən də heç nədən həlak olardın. Nə olub, nədir dərdin? Qadın dedi ki, ay yoldaş Əliyev, mən rayondan gəlmişəm. Aman-zaman bir nəvəm var, özü də yetimdir. Mən onu böyütmüşəm. İndi bu uşaq universitetə imtahan verib, ancaq qiymətini kəsiblər. Mən bilirəm ki, nəvəm savadlıdır, nahaqdan kəsilib. Bir həftədir döymədiyim qapı qalmayıb. Deyirəm uşağın qiymətini düz verməyiblər, komissiya təşkil eləsinlər, yoxlasınlar. Heç kəs qulaq asmır. Axırı məcbur olub, bu hərəkətə əl atdım. Üzrlü sayın, bağışlayın məni. Dedim yox, sən bizi bağışla. Səni gərək bu həddə çatdırmayaydılar.

Qadını Mərkəzi Komitəyə gətirdim. Göstəriş verdim ki, uşağı tapsınlar. Universitetin rektorunu, imtahan götürən müəllimi, digər bir neçə başqa müəllimi yanıma çağırtdırdım və kabinetimdə uşaqdan imtahan götürdülər. Uşaq həqiqətən savadlı imiş. Bütün suallara əla cavab verdi. Həmin müəllimə dedim, heç utanırsan?! Bu uşaq bəlkə gələcəyin böyük alimi olacaq. Niyə onu məhv edirsən?!

Əlbəttə, o müəllimi işdən kənarlaşdırdılar. Çox təəssüf ki, belə hallara rast gəlmək olur.

... Unudulmaz şəxsiyyət Heydər Əliyevin çox çıxışlarını dinləmişəm, ancaq onun bu çıxışı olduğu kimi – vergülündən nöqtəsinədək yadımda qalıb...

Yeri gəlmişkən, Heydər Əliyev təhsilə, kadr hazırlığına xüsusi diqqət yetirirdi. Çoxlarının yadında olar, 70-ci illərdə onun təşəbbüsü ilə müttəfiq respublikaların aparıcı ali təhsil məktəbləri ilə müqavilə əsasında gənclərimiz başqa şəhərlərə oxumağa göndərilirdi. Qəbul imtahanlarından yüksək qiymət alan abituriyentlər arasından müsabiqə yolu ilə kvota əsasında seçilənlər dövlət hesabına təhsil almaq haqqını qazanırdılar. Tələbələr yataqxana ilə təmin olunur, yüksək təqaüd alırdılar. Təhsildən sonra gənc mütəxəssis kimi Azərbaycana qayıdır, ixtisaslarına uyğun işlə və yataqxana (ailəlilər ayrıca otaqla) ilə təmin olunurdular. Üç il ərzində isə ayrıca mənzil alırdılar. Mənim kənddə yaşayan qardaşlarımdan biri Moskva Aviasiya İnstitutuna, biri Leninqrad (indiki Sankt-Peterburq) Ali Dənizçilik Məktəbinə, biri də Odessa Yeyinti Sənayesinin Texnologiyası İnstitutuna qəbul olunmuşdu. Yüzlərlə digər gənclər kimi, onlara da bu imkanı məhz Heydər Əliyev yaratmışdı. Onun müdrikliyi, uzaqgörənliyi sayəsində bu proqram uğurlu olmuşdu.

Kadr hazırlığı ilə bağlı bir məsələni də xatırlatmaq istəyirəm. 1978-ci ildə SSRİ Nazirlər Sovetinin nəzdində Moskva Xalq Təsərrüfatı Akademiyası yaradıldı. Bura İttifaq respublikalarının nazirlər sovetlərinin göndərişi ilə xalq təsərrüfatı üzrə perspektivli rəhbər işçiləri təhsil almağa göndərilirdilər. İş yerlərindəki əməkhaqları saxlanmaqla, iki il müddətinə bir və ikinci dərəcə səviyyəli rəhbər işçiləri (məsələn, baş direktor, direktor, baş direktor müavinləri, baş mühəndislər) təhsillərini təkmilləşdirməyə göndərilirdilər. İlk dəfə Azərbaycan üçün də iki yer ayrılmışdı. Namizədlər Mərkəzi Komitənin bürosunda təsdiq edilməli idi. Maraqlıdır ki, təqdim olunan siyahidə 100 namizədin arasından Heydər Əliyev şəxsən iki nəfərin namisədliyini xüsusiləbəyənmişdi. Biri “Sumqayıtkimyasənaye” İstehsalat Birliyinin baş direktorunun birinci müavini, mənim əmim Zamin Hüseynov, digəri Binə Aeroprtunun rəisi Vaqif Sadıxlı idi. Akademiyanı bitirəndən sonra Heydər Əliyev onların hər ikisini qəbul etmiş, qarşıda duran vəzifələri izah etmişdi. Daha sonra onun təqdimatı ilə Zamin Hüseynov Sumqayıt “Sintezkauçuk” İstehsalat Birliyinin baş direktoru, Vaqif Sadıxlı isə Azərbaycan Mülki Aviasiya naziri təyin edildilər.

Qeyd etdiyim kimi, Heydər Əliyev hər dəfə Sumqayıta gələndə onu qarşılayanların arasında, keçən tədbirlərdə mən də olmuşam. Onun mükəmməl nitq qabiliyyəti, səlis danışıq tərzi, gözlənilməz hərəkətləri vardı. Bir dəfə Sumqayıta gələndə Dostluq və Sülh küçələrinin kəsişdiyi yerdə maşını saxlatdırdı. Və küçə ilə piyada, onu qarşılayanlarla salamlaşa-salamlaşa şəhərin mərkəzinə tərəf getdi. Ani olaraq şəhər rəhbərliyi, Prezidentin Təhlükəsizlik Xidməti özlərini itirdilər. Çünki rəsmi protokolda, bu, nəzərdə tutulmamışdı. Ona bildirdilər ki, bəlkə maşına minəsiniz, yol uzaqdır. Heydər Əliyev razı olmadı. “Mən camaatla görüşmək istəyirəm”,– dedi. Bu hadisə də məndə unudulmaz təəssürat yaratdı.

Xatirələrdən çox danışmaq olar. Bir şeyi əminliklə deyə bilərəm:

– Nə yaxşı Azərbaycanın Heydər Əliyev kimi xilaskar oğlu olub!

***Süleyman HÜSEYNOV,***
***AYB-nin üzvü,***
***Prezident mükafatçısı***

# Fransanın ziyanlı tərəfkeşliyi: Ermənistan illüziyaya qapılır

## *Paris İrəvanın Bakıya təsirlə bağlı gözləntilərini doğrulda bilmir*

**Fransanın Xerici işlər naziri Ketrin Kolonnanın Cənubi Qafqaza səfəri, heç şübhəsiz, Parisin bölgədəki nüfuzunu yüksəltməyə yönəlib. Yelisey sarayı bu məqsədini lokallıqdan uzaq tutmaq, ona xüsusi görkəm vermək, əlahiddəlik qazandırmaq üçün Avropa İttifaqını da alətə çevirib. Məhz buna görə xanım Kolonnanın səfər proqramına qurumun Ermənistandakı mülki missiyasının düşərgəsinə baş çəkmək də daxil edilib. Yəni, faktiki olaraq, Fransa Cənubi Qafqazdakı, belə demək mümkünsə, anti-Rusiya qalasını dünyanın gözünə soxmaq əzmindədir.**

### Avropa İttifaqı və erməni patronajlığı

O qalanı ki, Azərbaycan onun siyasi kluarlardakı Rusiya əleyhinə təqdimat motivindən çox, Fransanın ermənipərəst mövqeyinin təsdiq forması kimi görür. Elə buna görə ölkəmiz Aİ missiyasının sərhədin Azərbaycan tərəfində fəaliyyət göstərməsinə razılıq vermir. Həm də ona görə razılıq vermir ki, Bakı həmin missiyanı Qarabağ mövzusunda və Azərbaycan-Ermənistan tənzimlənməsi baxımından yeni reallıqlar sırımaq cəhdi kimi dəyərləndirməkdədir və yanaşmasında haqlıdır.

Bəli, Azərbaycan Aİ-nin sözügedən missiya fəallığına əvvəldən razı deyildi. Bu ideya ötən ilin oktyabrındakı Azərbaycan və Ermənistan liderlərinin Aİ Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi, Fransa Prezidenti Emmanuel Makronun da iştirak etdiyi Praqa Sammiti zamanı gündəmə gəlmişdi. Ölkəmizin dövlət başçısı İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bu məsələnin üzərində dayanmış və təfsilatları açıqlamışdı. Azərbaycan Prezidentinin fikirlərindən anlaşılan bu idi ki, Aİ-nin missiyası Fransa və Ermənistan "bacılığının" məhsulu kimi ortadadır. Başqa sözlə desək, Paris İrəvana Bakı ilə mübarizədə dəstək formulu üzərində düşünüb və müəyyənləşdirib ki, bu iş Aİ-nin müşahidəçiliyi ilə gerçəkləşməlidir. Təbii, Makron da qurumun patronajlığının Fransanın fərdi təşəbbüsündən daha böyük səslənməsi üzərinə sərmayə yatırıb. Amma, çifayda.

Digər tərəfdən, hər nə qədər Parisin hakim mövqeyi və təsiri olsa da, ötən müddətdə baş verənlər göstərdi ki, Aİ yalnız Fransadan ibarət deyil. Bu səbəbdən Ermənistandakı missiyadan gözləntilər, daha doğrusu, İrəvanın gözləntiləri özünü doğrultmur. Missiya, faktiki olaraq, fəaliyyətsizdir. Qurumun işinə ciddi önəm verilməməsinin daha bir göstəricisi isə budur ki, onun regional ictimai rəyə təqdim ediləcək rəhbəri belə yoxdur. Çox güman ki, həm Ermənistan, həm Fransa, həm də elə Aİ-nin özü missiya məntiqinin mənasızlığını anlayır. Sadəcə, heç bir tərəf geri durub özünü biabır etmək istəmir. Axı, sual yaranar ki, faydasızlığı məlum olan işə niyə qol qoyulurdu?

### Kolonna niyə gəlmişdi və...

Əlbəttə, Aİ missiyasından səmərəlilik gözləntisi var idi. Ola bilər, qurumdakılar zamanla Azərbaycanın mövqeyində yumşalmaların baş verəcəyini düşünmüşdülər. Bakı prinsiplərindən nəinki geri çəkildi, üstəlik, onların reallaşdırılması ardıcıllığını da qorudu. Ölkəmizin hərəkətləri, sanki, hər şey planlı olurmuş kimi, gerçəkləşdi və bu planlılıq əlavə diskussiyaların siyasi reallıq kimi beyinlərdə möhkəmlənməsinə fürsət vermədi.

Bəli, Bakının qətiyyətli davranışlarının nəticəsidir ki, Ermənistanda nəinki Aİ-nin missiyasına, elə Fransanın özünün roluna da barmaqarası, qeyri-ciddi yanaşma formalaşıb. Ölkədə elə Kolonnanın regiona səfəri barədə də mənfi rəy var. Mövcud xüsusda Fransa XİN rəhbərinin səfərdən öncə bildirdikləri üzərində dayanılır və onun Azərbaycana Laçın dəhlizinin açılması məsələsini Prezident İlham Əliyevin administrasiyası ilə müzakirə etmək üçün gedəcəyi ilə bağlı fikirləri qabardılır.

Kolonnanın C.Bayramovla görüşünün detallarından söz açılarkən, birincinin ikincini mövqeyindən döndərmək üçün heç nə edə bilmədiyi vurğulanır. Bildirilir ki, Paris Azərbaycanla münaqişədə Ermənistanı dəstəklədiyini dəfələrlə bəyan edib, Azərbaycan Silahlı Qüvvələrinin həmlələrini pisləyib. Lakin Fransanın dəstəyi sözdən o yana keçməyib. "Fransanın ambisiyaları ilə onun döyüş sursatları arasında uyğunsuzluq səbəbindən Ermənistandakı bəzi şərhçilər Parisi "ümid və gözləntilərin satıcısı" adlandırmağa başladılar. Nəticədə Ermənistan hərbi ehtiyaclarını ödəmək üçün vasitələri başqa ölkələrdə, məsələn, Hindistanda axtarmağa məcbur olur", - deyə Ermənistanın Verelq Analitik Mərkəzinin açıqlamasında vurğulanır. Onu da deyək ki, İrəvan Parisdən silah-sursat almaq eşqinə düşüb, lakin birinci özünün NATO ölkəsi olduğunu qabardaraq, bir alyans üzvünün Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının təmsilçisi olan Ermənistana silah satmasının qeyri-mümkünlüyünü önə çəkib.

### "...və münaqişə başlayacaq"

Qeyd edək ki, Fransanın XİN rəhbərinin bölgəyə səfəri əsnasında Azərbaycan-Ermənistan nizamlanmasının Qərb formatı ilə əlaqədar diskussiyalara geniş yer verilməkdədir. Hərçənd biz bu formatın tərkibində də ikitirəliyi görürük. Diqqət yetirək, Kolonna bölgədə olduğu müddətdə Azərbaycan və Ermənistan XİN rəhbərlərinin ABŞ-da bir araya gələcəyinə dair məlumat yayıldı. Üstəlik, Rusiyanın aktivləşdiyi də bildirilməlidir. Ölkənin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova konkret tarix açıqlamasa da bəyan edib ki, Azərbaycan və Ermənistan XİN rəhbərlərinin Moskvada görüşü nəzərdə tutulur...

...Paris Qərb formatında ciddi təmsilçiliyə malik deyil. Digər tərəfdən, hazırda, ümumən, bu format deaktiv təsir bağışlayır. Məsələn, Karnegi Fondunun aparıcı tədqiqatçısı, Qarabağ münaqişəsi üzrə ekspert Tomas de Vaal bu yaxınlarda erməni mediasının suallarını cavablandırarkən deyib ki, indi Qərbin bütün diqqəti Ukraynaya cəmləşib və Qarabağda yeni münaqişə başlasa, Qərb çox gec "oyana" bilər. "Və münaqişə başlayacaq", - deyən politoloq bu qənaətdədir ki, hazırda bölgədə Rusiya sülhməramlılarının mövcudluğu qan tökülməsinə maneçilik yaradan təsirli mexanizmdir.

### Parisin ermənipərəstliyi fayda vermir

"Azərbaycan əlverişli şəraitdən istifadə edir və 27 sentyabr 2020-ci il tarixdə başlanmış işləri başa çatdırmağa çalışır. Bu vəziyyətdə Fransa nə edə bilər? Ölkənin niyyət və maraqlarını şübhə altına almasaq da, onun Azərbaycanı cilovlamaq imkanları çox məhduddur". Bu fikirlər isə ABŞ-ın Lixay Universitetinin beynəlxalq əlaqələr üzrə professoru Arman Qriqoryana məxsusdur.

Qriqoryan Verelq Analitik Mərkəzinə



müsahibəsində bildirib ki, Fransanın işi Azərbaycanı tənqid etməkdən və Ermənistanı sözdə dəstəkləyən bəyanatlar səsləndirməkdən kənara çıxmır. İrəvana istənilən hərbi dəstək istisnadır. "Mən iqtisadi sanksiyaların tətbiqi imkanlarını da minimal hesab edirəm. Əgər, Azərbaycana sanksiyalar kollektiv Qərbin adından həyata keçirilsə, faydalıdır. Amma kollektiv Qərbin belə bir konsensus formalaşdıra biləcəyini gözləmək çox çətindir. Axı ABŞ və İsrail Bakını Tehrana qarşı dəyərli müttəfiq hesab edir. Avropalılar Azərbaycanı, enerji təchizatçısı qismində, Rusiyaya mühüm alternativ sayırlar. Ona görə bəzi məhkəmələrdə verilən dişsiz qərarlardan, Azərbaycanın bu və ya digər addımını tənqid edən bəyanatlardan heç nə gözləmirəm".

### Azərbaycan güzəşt etməyəcək

Erməni professorun Laçın dəhlizinin bağlanmasına və Parisin Bakını dəhlizi açmağa məcbur edə bilməsinə dair suala cavabı isə kifayət qədər əsəbidir. Təbii, bu əsəbilikdə reallığı düzgün qiymətləndirmək amili var: "Mən yenə eyni sualı verməliyəm: Fransa Azərbaycana necə təsir etməlidir? Hansı alətlərlə? Əgər Azərbaycan Fransanın tələblərini yerinə yetirməkdən imtina edərsə, ikinci birinciyə qarşı hansı tədbiri görə bilər? Mən Fransanın əlində Azərbaycanı, qərarına yenidən baxmağa məcbur edə biləcək maddi təsir rıçaqları görmürəm. Əgər problem Bakı üçün əhəmiyyətli olmasaydı, nəsə gözləmək olardı. Amma Azərbaycan məsələni strateji səviyyədə həll edir. Söhbət Qarabağın Azərbaycana qeyd-şərtsiz tabe olması şəklində Qarabağ məsələsinin yekun həllindən gedir. Əliyev bu məsələdə heç kimə "indulgensiya" (güzəşt - red) etməyəcək".

Fransızların məqsədlərini şübhə altına almaq istəmədiyini deyən A.Qriqoryan ciddi dəstək göstərməyincə, Parisin arxasında heç bir təsir gücü olmayan bəyanatlardan uzaq durmasının vacibliyini vurğulayıb. Çünki belə bəyanatlar Ermənistanda qeyri-real illüziyalar formalaşdırır. Bu illüziyalar isə ölkənin indiki hökuməti üçün daha təhlükəlidir. Çünki rəsmi İrəvan üçün qeyri-reallıq üzərində siyasət qurmaq xarakterik hal alıb.

A.Qriqoryan müsahibəsində Qərbin Brüssel platformasının vasitəçilik səyləri ilə bağlı sualı da cavablandırıb. Nəzərə alaq ki, rəsmi İrəvan artıq bu platformadan da şikayət etməyə başlayıb. "Bu platforma o zaman həyat qabiliyyətli ola bilər ki, Rusiya, belə demək mümkünsə, Qafqazda silahı yerə qoyub regiondakı strateji hegemonluğunu itirsin. Bu, hələ baş vermədiyindən, Qərb və Rusiya Ukraynada mübarizə apardığından, Ermənistan-Azərbaycan münaqişəsinin Brüssel platformasında həlli perspektivinə bədbin yanaşıram", – deyə erməni əsilli amerikalı professor fikrinə aydınlıq gətirib.

***Əvəz CAHANGİROĞLU, "Xalq qəzeti"***

---

# İndi emissarlar Avropadan Bakıya birbaşa uçurlar...

**İki il beş ay əvvələ qədər Qərbin aparıcı dövlətlərinin rəsmilərinin, "vasitəçilərinin", "həmsədrlərinin" Cənubi Qafqaza səfərləri adətən İrəvandan başlayar, Bakıda yukunlaşardı. İndi hər şey tərsinə olub. Avropa gücləri öz emissarlarını əvvəlcə Azərbaycana, sonra Hayastana göndərirlər. Bu baxımdan ermənilərin Qərbdəki ən böyük "siyasi çətiri" Fransanın Xarici işlər naziri Ketrin Kolonnanın regiona ilk səfəri də istisna təşkil etmədi. Bu, Azərbaycanın yaratdığı yeni reallığın mənzərəsi və nəticəsidir.**

Hələ səfərdən öncə Fransa Xarici İşlər Nazirliyinin sözçüsü demişdi ki, nazir Kolonna rəsmi Parisin əsasında ərazi bütövlüyü və beynəlxalq hüququn prinsiplərinə hörmət dayanan ədalətli, davamlı sülh naminə iki ölkə arasındakı sülh danışıqlarını dəstəkləmək öhdəliyini xatırladacaq. Yəni, diplomatın mesajının mahiyyəti ondan ibarət idi ki, Paris Qarabağın timsalında Cənubi Qafqazda söz sahibi olmaq təşəbbüslərindan vaz keçməyib və iki ölkə arasında dialoqa öz töhfəsini verməkdə davam edəcək. Düzdür, rəsmi Bakı Parisin bu niyyətlə nə qədər obyektiv, bitərəf və səmimi davrandığına ən azı son bir ildə daha yaxından əmin olmaq imkanı qazandı. Otuz ilə yaxın ATƏT-in Minsk qrupunun həmsədri kimi Qarabağ münaqişəsinin nizamlanması prosesində fəaliyyəti gözümüzün qabağında olan Fransa XİN-in, Senatının, bu ölkənin ayrı-ayrı təsisatlarının, məhz Parisin diktəsi ilə Aİ-nin müxtəlif qurumlarının Azərbaycana qarşı qəbul etdikləri qətnamələrin, müraciətlərin, verdikləri bəyanatların sayını itirmişik. Bizim üçün kağız topasından başqa heç nə olmayan həmin "sənədlərin" müəllifi indi Bakı ilə ikitərəfli əməkdaşlığın çeşidli tərəflərini müzakirə etməyə başlayıb. Çox gözəl!

Azərbaycanın qapısı xoşməramlı, qarşılıqlı faydalı əməkdaşlığa söykənən səmimi çağırışların üzünə açıqdır. Bəli, həm bu səbəbdən, həm də diplomatik etiket və nəzakət nöqteyi-nəzərindən Fransanın Avropa və xarici işlər naziri xanım Ketrin Kolonnanı əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev, daha sonra xarici işlər naziri Ceyhun Bayramov qəbul etdilər.

### Təşəbbüsə görə təşəkkürlər. Amma...

Azərbaycanla Fransa arasında ikitərəfli münasibətlərin gündəliyinin çox geniş, siyasi, iqtisadi, enerji, nəqliyyat və digər sahələrdə əməkdaşlığın yaxşı tarixə malik olduğunu qonağın nəzərinə çatdıran Prezident İlham Əliyev bu səfər zamanı regional əməkdaşlıq və regional təhlükəsizlik məsələlərinin də müzakirə ediləcəyinə ümidvar olduğunu bildirdi. Bunun ardınca parisli diplomatın diqqətinə 44 günlük Vətən müharibəsindən sonra İrəvanın öz üzərinə düşən öhdəlikləri yerinə yetirmədiyi, Azərbaycanla Naxçıvan arasında dəhlizin yaradılmasına imkan vermədiyi, qoşunlarını Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarmadığı, Laçın yolundan sui-istifadə edərək Qarabağa silah-sursat, mina, hərbi təyinatlı başqa məhsullar daşıdığı çatdırıldı. Cənab Prezident məhz bu səbəblərə görə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulduğunu və bunun ölkəmizin suveren hüququ, ərazi bütövlüyümüzün təminatı olduğunu birmənalı şəkildə bildirdi. Ketrin Kolonna yəqin ona verilən məlumatların həm də siyasi mesaj xarakteri daşıdığını anlamamış olmazdı. Yəni, söhbət Parisin Ermənistan və Azərbaycan arasında sülh prosesinə töhfə vermək istəyinə normal yanaşdığı, amma bu təşəbbüslərin gecikdiyi və onlara artıq ehtiyac qalmadığı, Bakının problemləri təkbaşına həll etdiyi kimi siyasi ismarıclardan gedir. Nazir C.Bayramov bu mövzuda bir az da irəli gedərək postmünaqişə dövründə Fransa tərəfindən sərgilənən mövqeyin sülh prosesinə töhfə vermədiyini açıq mətnlə parisli diplomatın diqqətinə çatdırdı. Necə deyərlər, düzü-düz, əyrini-əyri izhar etdi, qarşı tərəf də məsələdən tam agah oldu.



### Qarabağ ermənilərinin "toxunulmazlıq hüququ"

Bakıdan sonra İrəvana gedən, orada baş nazir Nikol Paşinyanla, həmkarı Ararat Mirzoyanla görüşən xanım Kolonnanın səfər proqramına Aİ-nin mülki müşahidə missiyasının Cermukdakı mənzil-qərargahına baş çəkmək, qondarma "erməni soyqırımı" abidəsini ziyarət etmək daxil idi. Səfərin gərgin gündəliyində onun "арменпресс"ə eksklüziv müsahibəsi də var imiş. Prezident Makronun bölgəyə göndərdiyi yeni emissarı bu müsahibəsində Fransanın ermənipərəst mövqeyini bütün çılpaqlığı ilə sərgiləyir, eləcə də bizim üçün cavabını gözləyən bir çox sualların təsdiq nöqtəsini qoyur. Laçın yolundakı vəziyyətlə bağlı sualı cavablandıran Kolonnaya görə, "Azərbaycanın bu yolla hərəkətə mane olması yolverilməzdir". Bunun "Dağlıq Qarabağ əhalisi üçün iqtisadi və humanitar böhran kimi ciddi risklərə səbəb olacağını" deyən parisli diplomat "Bakının bu davranışının Ermənistanla sülh danışıqlarına mane olduğunu" bəyan edir. Bir ilə yaxındır Fransa XİN-ə rəhbərlik edən Ketrin Kolonnanın Bakıdakı mətbuat konfransında bəzi neytral və pozitiv fikirlər səsləndirməsi, müsbət mesajlar verməsi onu bizim gözümüzdə az qala xələflərindən fərqləndirmişdi. Amma bu, sadəcə olaraq, imitasiya, qarşı tərəfə lazımi "diplomatik imicin" nümayişi imiş. Erməni müxbirin "DQR"-in erməni əhalisinin təhlükəsizliyi, gələcək müqəddaratı ilə bağlı sualına Kolonnanın cavabına diqqət yetirin: "Fransa Dağlıq Qarabağın erməni əhalisinin toxunulmazlıq hüququnu, öz tarixini, mədəniyyətini qoruyub saxlamağı təmin edəcək istənilən qərarı dəstəkləməyə hazırdır. Bu, onların müstəsna hüququdur". Görəsən, Fransanın baş diplomatı Qarabağdakı bir ovuc erməniyə o "müstəsna hüququ" BMT-nin hansı konvensiyasına, beynəlxalq qanun və qaydalara aid hansı kitabına uyğun təyin edir?

### Fransızların erməniləşməsinin səbəbi

İlk baxışda Fransa XİN başçısının Bakıya indi, iki ölkə arasında münasibətlərin gərginlik dərəcəsinin kifayət qədər yuxarı olduğu məqamda səfər etməsi bu müstəvidə qarşılıqlı təmaslarda müsbət irəliləyişə hesablanmalı idi. Sağlam siyasi məntiq bunu deyir. Amma Kolonnanın İrəvanda haylarla doğmaları kimi davranması nəinki siyasi məntiq, heç normal düşüncə ilə bir ayara sığmır. Və bunun əsas səbəbini parisli rəsmi qonaq öz dili ilə açıqlayır. "Арменпресс"in 1915-ci il "erməni genosidi" ilə bağlı sualına cavab-açıqlamasında xanım Kolonna daha irəli gedərək, lap "gül vurur": "Fransızların əksəriyyəti həmin soyqırımını yaşamış və ölkənin qəbul etdiyi insanların xələfləridir". Bu etirafdan sonra hər şey gün işığına çıxır. Deməli, bunların əcdadları bir, damarlarında da eyni qan axmaqdadır. Əgər belə olmasaydı, Fransa on illər boyu Hayastanın işğalçılıq siyasətini, terror əməllərini dəstəkləməz, özünün elan etdiyi "Azadlıq, Bərabərlik, Qardaşlıq" dəyərlərinə uyğun obyektiv mövqe ortaya qoyardı. Elə 44 günlük Vətən müharibəsinin gedişində Paris ən yüksək səviyyədə açıq-aşkar ermənipərəst bəyanatlar verdi, hətta Bakını birbaşa təhdid etməyə girişdi, amma bunun bir fayda verməyəcəyini anladı. Çünki onun qarşısında XIX əsrin Şimali Afrikası deyil, XXI əsrin güclü və arxalı Azərbaycanı vardı.

### Nəticə deyil, anlayış gözləyirik

İndi də rəsmi Paris, guya, səhvini başa düşdüyü, haqqın yoluna döndüyü görüntüsünü yaradır. Amma bu "özünüreabilitasiya" prosesinin özündə belə qərəzli, destruktiv mövqe sərgiləməkdən yayına bilmir.

Bəli, Kolonnanın səfəri Fransa–Azərbaycan münasibətlərinin gərgin dövrünə təsadüf etdi. Bu gərginliyin əmələ gəlməsində bütün günah Fransanın hazırki iqtidarının üzərinə düşür. Əgər indi xoşməramlı bir addım atılsaydı, ola bilsin Kolonnanın Bakı səfəri ikitərəfli münasibətlərdə nəyinsə pozitivə doğru dəyişəcəyinə ümid yaradardı. Fransa XİN başçısının İrəvan səfəri bir daha onu göstərdi ki, Paris indiyədək yürütdüyü ermənipərəst, qatı anti-Azərbaycan siyasətində ciddi korrektələr etmək barədə düşünmür. Bunu anladıq. Belə bir şəraitdə xanım Kolonnanın Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına töhfə vermək iddiası ilə Bakıya gəlişinin səmimiyyətdən çox-çox uzaq olduğunu da gördük. Yaxşı, bir halda ki, yalandan arzuladığınız nəticənin əldə olunması mümkün deyil, onda heç olmasa, reallığı qəbul edin, anlayış göstərin. Bəlkə bunun üçün qan qardaşlığınızı etiraf etdiyiniz haylardan icazə almalısınız?

***İmran BƏDİRXANLI, "Xalq qəzeti"***

### *Ekspert rəyi*



**Rasim MUSABƏYOV, politoloq**

Heç vaxt dialoqdan imtina etməyən Azərbaycan bu dəfə də təmkin və nəzakət nümayiş etdirərək, Fransa xarici işlər nazirini qəbul etdi. Baxmayaraq ki, Fransa parlamenti, həmin Xarici İşlər Nazirliyi beynəlxalq hüquqa zidd, tamamilə cəfəng qərarlar qəbul edir, bəyanatlar verirlər. Amma, yenə deyirəm, nəzakət naminə bu ölkənin rəsmisi ilə Cənab Prezident də, xarici işlər nazirimiz də görüşdü. Biz Qarabağ məsələsində Fransanın qeyri-obyektiv mövqeyini nəzərə alaraq xanım Kolonnaya izah etdik ki, onun ölkəsinin Azərbaycan – Ermənistan münasibətlərində vasitəçi qismində, yaxud hansısa formada iştirakından söz gedə bilməz. Yəni, diplomatik dildə başa saldıq ki, biz onların xidmətinə ehtiyac duymuruq.

İkitərəfli münasibətlərə gəldikdə isə, Fransanın Qafqazda ən böyük ticarət dövriyyəsi məhz Azərbaycanladır. Onun bu regionda böyük həcmdə investiya qoyduğu iqtisadiyyat da Azərbaycan iqtisadiyyatıdır. Elə Fransaya Cənubi Qafqazdan ən çox sərmayə yatıran, eləcə də ən geniş mədəni əlaqələrə malik ölkə də Azərbaycandır. Misal üçün, Heydər Əliyev Fondu Parisdə bir neçə layihənin reallaşmasına, o cümlədən Notr-Dam kilsəsinin yanğından sonra təmirinə yardım edib.

İndiki məqamda Parisin Azərbaycanla Ermənistan arasında sülh elçisi olmasına ehtiyacımız yoxdur. Bu mənada Bakıya bu kimi iddialarla təşrif buyurmuş xanım nazir buradan əliboş yola salındı.

# Ulu öndər və gənclərin milli-mənəvi tərbiyəsi

**Heydər Əliyev gənc nəslin tərbiyəsinə, təhsilinə, özlərinin milli mənsubiyyətini yüksək tutmasına, ölkəmiz üçün layiqli varislər olmasına həmişə böyük diqqət yetirmişdir. Ulu öndər gənclərə lazımi kömək göstərmiş, onlara müdrik tövsiyələrini, məsləhətlərini vermişdir. İstər müxtəlif illərdə tələbə olmuş gənclərlə görüşlərində, istər yeni dərs ilinin başlanması münasibətilə məktəblərdə keçirdiyi tədbirlərdə, istər ali məktəblərdə olduğu vaxtlarda və istərsə də gənclər forumunda etdiyi məruzə və çıxışlarında gənclərin fəaliyyətlərini yüksək qiymətləndirmişdir. O, Azərbaycan gəncliyinə həmişə nikbin nəzərlərlə baxmış, bugünkü gənclərin gələcəkdə ölkəmizi idarəedənlər olacağına inamını ifadə etmişdir.**

*Azərbaycan xalqının gələcəyi, müstəqil Azərbaycanın gələcəyi gənclərin bu gün aldıqları bilik, təhsil və tərbiyədən asılıdır.*

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**



Ümummilli lider 2 fevral 1996-cı ildə Azərbaycan gənclərinin Birinci forumunda etdiyi məruzədə gənclərə xitabən demişdir: “Hər bir Azərbaycan gənci cəmiyyətdə, Vətəndə, ölkədə öz vəzifələrini layiqincə yerinə yetirməyə çalışmalıdır. ...Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün Vətəni sevməlidir, ölkəni sevməlidir, torpağı sevməlidir, xalqımızı sevməlidir, millətimizi sevməlidir, dilimizi sevməlidir, dinimizi sevməlidir, milli ənənələrimizi sevməlidir.”

Heydər Əliyevin gənclərimizə verdiyi dəyərlər, onların qarşısına qoyduğu vəzifələr və etdiyi tövsiyələr həm dövlət müstəqilliyimizdən əvvəlki illərdə (1969-1990), həm də müstəqillik əldə edildikdən sonrakı illərdə (1991-2003) özünün mahiyyətinə görə milliliklə bəşəriliyi özündə birləşdirən bir xətt üzrə inkişaf edir. Bunlar ulu öndərin gənclərimizi təhsilli, mənəviyyatlı, ləyaqətli, vətənpərvər, yüksək amallar uğrunda mübariz və s. dəyərlərə yiyələnmiş əsl vətəndaşlar kimi görmək arzusundan qaynaqlanır.

Ulu öndər gənclərin milli-mənəvi tərbiyə və milli ləyaqət hissinin çoxfunksiyalı və çoxistiqamətli konsepsiyasını vermişdir. Bu konsepsiyada milli-mənəvi tərbiyə, milli ləyaqət hissi heç də bir ifadə, bir məzmun və bir istiqamətlə məhdudlaşmır. Bu, bütöv və bütövləşmiş şəxsiyyətin mahiyyətini özündə əks etdirən və bir-biri ilə bağlı olan mənəviyyat kompleksini özündə birləşdirir. Milli mənəviyyat, milli ləyaqət məhz onların birliyi zəminində formalaşır və inkişaf edir. Sanki bir sapa düzülən incilər kimi bu komplekse daxil olan kommponentləri aşağıdakı kimi xarakterizə etmək olar.

## Mükəmməl təhsil

Heydər Əliyev gənclərin təhsil almasına, eyni zamanda, yaxşı təhsil almasına həmişə yüksək qiymət verməklə yanaşı, həm də buna böyük qayğı və diqqətlə yanaşmışdır. Təhsili millətin gələcəyi hesab etməklə Vətənin gələcəyinin gənclərimizin yaxşı təhsil almasından bilavasitə asılı olduğunu qeyd edən böyük öndər hələ müstəqilliyimizdən çox-cox əvvəllər (27 avqust 1977-ci iı, Tələbələrin respublika fəalları ilə görüşü) deyirdi: “Tələbələrin vəzifəsi yeniliklə ayaqlaşmaqdan, arası kəsilməyən artan informasiya axınından bacarıqla baş çıxarmaqdan, elmə dərindən, səylə, yaradıcılıqla yiyələnməkdən ibarətdir”.

Tələbəlik illərində alınan biliyi professional fəaliyyətin bünövrəsi hesab edən ulu öndər gələcəkdə cəmiyyətin inkişafı üçün daha səriştəli, daha bilikli və daha məlumatlı kadrlara tələbatın olacağını qeyd edərək göstərirdi ki, kamil mütəxəssislər kimi yetişmək, təhsili başa vurduqdan sonra fəal surətdə əməli fəaliyyətə qoşulmaq, cəmiyyətə, xalqa böyük fayda vermək üçün hələ tələbəlik illərindən buna hazırlaşmaq, bu illərin imkanlarından maksimum səviyyədə istifadə etmək lazımdır. Tələbəlik illərində bilik ehtiyatı toplanmalı, dərin və möhkəm bilik uğrunda mübarizə aparılmalıdır. Təhsildə, elmdə qələbə çalmaq üçün yorulmadan hər gün nə isə yeni bir şey öyrənməyə can atmaq lazımdır.

Heydər Əliyev müstəqilliyimizin ilk illərində respublikamızın bugünü və gələcəyi üçün yüksək təhsili və mədəniyyətə malik, dövrün tələblərinə cavab verə bilən mütəxəssislər hazırlanmasını xalqımızın qarşısında duran günün vacib vəzifələrdən biri hesab edirdi. Türkiyəyə təhsil almağa gedən tələbələr qarşısında çıxışında (5 oktyabr 1992-ci il, Naxçıvan və 7 fevral 1994-cü il, Bakı) bu tələbələrin Azərbaycanın gələcəyi üçün göndərildiyini, bununla bərabər, onlara xalqımıza xas olan mədəniyyət və mənəviyyat nümunəsi göstərmələrini də tövsiyə edirdi. Qeyd edirdi ki, Azərbaycanın dövlətini, dövlət siyasətini, iqtisadiyyatını və mədəniyyətini yalnız həqiqi ali təhsil, həqiqi bilik almış şəxslər inkişaf etdirə bilərlər.

## Fəal həyat mövqeyi

Gənclərimizin fəal həyat mövqeyinə malik olması, demək olar ki, Heydər Əliyevin gənclərə bütün tövsiyələrinin nəticəsi, məsləhət və göstərişlərinin yekun müddəası kimi özünü göstərir. Yaxşı təhsil almaq və ölkənin həyatında fəal iştirak edə bilmək, üzərinə düşən məsuliyyəti axıra qədər dərk etmək, iradə zənginliyinə, mənəvi düşüncəyə sahib olmaq, qətiyyətli hərəkət etmək, ümumbəşəri mənəvi sərvətlərlə özünün daxili aləmini zənginləşdirmək və s. Bütün bunlar ulu öndərin gənclərin fəal həyat mövqeyinə malik ola bilmələri üçün onların yiyələnməli olduqları keyfiyyətləri özündə təcəssüm etdirən fəaliyyətin məzmununu təşkil edir. Hələ 1979-cu ildə Bakıda keçirilən Ümumittifaq elmi-praktik konfransda etdiyi məşhur məruzəsində Heydər Əliyev bu problemə böyük önəm verərək, bunun üçün insanların mənəvi-əxlaqi, əmək-estetik, vətənpərvərlik-beynəlmiləlçilik, ideya-siyasi və s. tərbiyəsinə malik olmağı yüksək qiymətləndirmişdir. 28 avqust 1982-ci ildə tələbə gənclərlə ənənəvi görüşündə o, gənclərə həyatın çətinliklərinə qarşı mübarizə aparmaq və cəmiyyətin faydalı üzvü olmaq üçün pak olmağı, əsl həyat qanunlarını öyrənməyi, əməkdə fədakar olmağı, yaradıcılıq axtarışları aparmağı, öz üzərlərində çox işləməyi məsləhət görürdü.

## Mənəvi saflıq

“İnsan cəmiyyətində ən yüksək yerdə mənəviyyat durur” – deyən ulu öndər mənəvi tərbiyəni şəxsiyyətin formalaşmasında əsas amil hesab etmiş, ona yiyələnməyin vacibliyini qeyd etmişdir. Mənəvi tərbiyəni təməl mədəniyyəti kimi şəxsiyyətin kimliyini, necəliyini müəyyənləşdirən başlıca meyar kimi dəyərləndirmişdir. “Mənəvi tərbiyəni daim artırmaq lazımdır və gənclərimizi yüksək mənəviyyat ruhunda tərbiyələndirmək lazımdır” – tövsiyəsini verən böyük öndər “mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz” – demişdir.

“Nə qədər böyük alim olursansa-ol, nə qədər böyük mütəxəssis olursansa-ol, nə qədər böyük dövlət xadimi olursansa-ol, əgər, mənəviyyatca şikəstsənsə, sənin heç bir qiymətin yoxdur” – Azərbaycan Tibb Universitetinin 70 illik yubileyində etdiyi çıxışda Heydər Əliyev dediyi bu sözlərlə mənəviyyatın insanlar üçün ən yüksək, ali dəyər olduğunu, insanı və insanlığı yüksəltdiyini qeyd edir. Bunlarla yanaşı, böyük şəxsiyyət mənəviyyatı qorumağın da vacibliyini diqqətə çatdırır.

Heydər Əliyev gənclərin mənəvi tərbiyə probleminə olduqca həssas mövqedən yanaşır və demək olar ki, onun bütün tərəflərinə toxunur. Mənəvi borc kimi anlayışın gənclərimizin şüurunda formalaşmasına mühüm qiymət verməklə yanaşı, gənclərdə yaşlılara hörmət etməyi, cəmiyyətdə nümunəvi davranışa malik olmağı, həssaslıq nümayiş etdirməyi, laqeydliyə və mənəvi yoxsulluğa qarşı mübariz olmağı zəruri hesab edirdi.

Bütün həyatı və fəaliyyəti dövründə müəllimə, onun şəxsiyyətinə böyük qiymət verən, “Şəxsən mən müəllimdən yüksək ad tanımıram” – deyən ümummilli lider, bununla yanaşı, təhsilalanların mənəvi-əxlaqi simasının formalaşdırılmasında müəllim şəxsiyyətinin çox qüdrətli amil olduğunu da qeyd etmişdir.

Böyük öndər bu keyfiyyətlərin ali məktəb müəllimlərində olmasını da zəruri sayır və göstərirdi ki, əgər tələbə öz müəllimlərinin, professorunun dərin bilikli, çalışqan, mənəvi cəhətdən saf, yüksək vətəndaşlıq məsuliyyəti olan bir insan olduğunu görürsə bu, onun tərbiyəsinə də güclü təsir göstərəcəkdir, tələbə bu keyfiyyətlərin təsiri altında tərbiyələnəcəkdir. Ali məktəb müəllimləri tələbə –gənclər üçün müsbət nümunə olmalıdırlar.

## Vətənpərvərlik

Heydər Əliyev alovlu vətənpərvər və Vətənə, xalqa bağlı şəxsiyyət idi. O, gənclərimizə də vətənpərvər olmağı, Vətəni sevməyi mənəvi tərbiyənin əsas atributlarından biri kimi yüksək qiymətləndirir, gənclərimizin bu hisslərə yiyələnməsini vacib hesab edirdi. Hələ 1978-ci ildə Azərbaycan müəllimlərinin VI qurultayında etdiyi nitqində “Hər bir gənc vətəndaş öz ölkəsinin alovlu vətənpərvəri olmalıdır” – deyən Heydər Əliyev gənclərlə görüşlərindəki bütün çıxışlarında bu tövsiyəni, demək olar ki, bu və ya digər formalarda təkrar etmişdir. Ulu öndər vətənpərvərliyi ali dəyər kimi qiymətləndirmiş və özü böyük vətənpərvər, böyük vətəndaş olduğu kimi, gənclərimizin də bu keyfiyyətlərə malik olmasını zəruri hesab etmişdir.

Ulu öndər vətənpərvərlik anlayışına olduqca geniş prizmadan yanaşırdı: “İnsan gərək həyatının hər dövründə, fəaliyyətinin bütün sahələrində öz Vətəninin, ölkəsinin qayğısı ilə yaşasın, həm onun iqtisadiyyatının, həm siyasətinin, həm də mədəniyyətinin qayğısı ilə yaşasın. Bunlar hamısı vətənpərvərlikdən doğan bir şeydir. Vətəni qorumaq, torpaqlarımızı müdafiə etmək üçün hər bir gəncin hazır olmasını tərbiyə etmək lazımdır” – deyirdi.

Milli vətənpərvərliklə xalqımızın tarixinin sıx bağlı olduğunu nəzərə çarpdıran ümummilli lider keçmiş tariximizi düzgün qiymətləndirməyi və bunu gənclərin vətənpərvərlik hissinin artırılmasında mühüm amil sayırdı. Bununla yanaşı, İslam dininin mənəvi dəyərlərindən düzgün istifadə etməyi və bu dəyərlərin mənimsənilməsinin vacibliyini də qeyd edirdi.

## Azərbaycançılıq məfkurəsi

Ümummilli liderin milli leksikonumuza deyil, Azərbaycan məfkurəsinə gətirdiyi “Azərbaycançılıq” ideyası xalqımızı birləşdirən mənəvi bağlılıq simvolu kimi böyük fəlsəfi, tarixi, siyasi, sosial və mənəvi mahiyyət daşıyır. Bu ideya xalqımızın, o cümlədən gənclərimizin təkcə tariximizi bilmək baxımından deyil, onlar üçün, həmçinin gələcək yol xəritəsi kimi böyük tarixi əhəmiyyətə malikdir. “Azərbaycan torpağında ən qədim zamanlardan indiyə qədər müstəqil dövlətlər olmuşdur. Biz bununla fəxr edirik və fəxr edə bilərik. Azərbaycançılıq hissiyyatını gənclərdə yaşatmaq lazımdır. Azərbaycanı sevmək, azərbaycançılıq hissiyyatını özündə cəm etmək deməkdir”, – deməklə ulu öndər həm də bu məfkurənin mahiyyətində müstəqilliyimizin dayandığını və Azərbaycana sevginin vacib olduğunu qeyd edir.

## Tarixi irsimiz

Heydər Əliyev gənclərimizin tariximizi, keçmişimizi və tarixi köklərimizi öyrənmələrinə və yaxşı bilmələrinə, çox böyük önəm verirdi. Mənəviyyatın əsas kökləri, rişələri məhz tarixi keçmişimizdən qaynaqlandığından və bunları dərindən bilməklə sıx bağlı olduğundan, bunu həm də gənclərimizin bu günü və gələcəyi ilə bağlayırdı. Böyük öndər deyirdi: “Tariximizi, tarixi köklərimizi yaxşı bilmədən, onlara hörmət etmədən müstəqil dövlətimizi gələcəkdə yaxşı qura bilmərik. Ona görə də gənclər gərək öz köklərini, respublikamızın, xaqımızın tarixini bilərək bu gün də, gələcəkdə də vətənpərvərlik, Vətənə xidmət, Vətənə qayğı hissi ilə yaşasınlar.”

Xalqımızın zəngin tarixi olduğunu dönə-dönə vurğulayan ulu öndər bu tarixi, xalqımıza məxsus mədəniyyəti, mənəviyyatı, milli dəyərləri gənc nəslə çatdırmağı və onları bu ruhda tərbiyə etməyi müəllimlərin, məktəbin müqəddəs borcu hesab edir və bunun çox vacib olduğunu qeyd edirdi.

Ulu öndər ta qədimdən bu günə qədər olan tariximizi, ədəbiyyatımızı gənclərin vətənpərvərlik, vətəndaşlıq, milli mənsubiyyəti ilə fəxr edə bilmək hissləri ilə sıx bağlı olduğunu göstərir, bunların bir-biri ilə qarşılıqlı əlaqədə, vəhdətdə olduğunu qeyd edirdi. O, hər bir Azərbaycan gəncinə tariximizi və Azərbaycan ədəbiyyatını yaxşı bilməyi tövsiyə edir və bildirirdi ki, tariximizi, tarixi keçmişimizi dərindən öyrənmədən vətənpərvər olmaq mümkün deyil.

## Milli dəyərlərimiz

Ümummilli lider gənclərə ümumbəşəri dəyərlərə malik olmağı tövsiyə etməklə yanaşı, onlar tərəfindən milliliyin qorunmasını, milli adət-ənənələrə yiyələnməyi vacib bilir, bunların itməsini, adət-ənənələrin yaddan çıxarılmasını millət üçün böyük təhlükə hesab edirdi: “Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir. Gənclərimiz milli ruhda tərbiyə olunmalıdırlar, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvərlər ola bilməz.” Azərbaycan Respublikası gənclərinin Birinci forumunda böyük öndərin dediyi bu sözlər həm də gəncliyimizin qarşısında qoyulan bir proqram yol xəritəsi idi.

Ulu öndər deyirdi ki, əsrlərin dərinliyindən bu günə qədər gəlib çatan adət-ənənələrimiz həmişə adamları saflığa, təmizliyə dəvət etmişdir. Milli və dini adət-ənənələrimiz məhz bu prinsipə əsaslanır. Bu gün biz də gəncləri paklıq, saflıq, yüksək əxlaq, yüksək mənəviyyat ruhunda tərbiyə etməliyik. Bununla biz nəinki cəmiyyətimizi qoruyacağıq, həm də gələcək nəsli sağlam saxlayacaq və həmin nəsildə cəmiyyətimiz, xalqımız üçün zərərli halların kök salmasının qarşısını alacağıq”.

## Milli mənsubiyyətimiz

“Hər bir adamın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!” – Bu qiymətli fikirlər Heydər Əliyev tərəfindən gənclərimizə belə bir fəxarət hissini özlərində tərbiyə etmələri və bunu fəaliyyətləri ilə sübut edə bilmələri üçün sanki bir çağırış və nümunədir. Bu ifadəni bu gün fəxrlə hər yerdə deyə bildiyimiz üçün onu bizə yaşadanlara “Əbədi eşq olsun!”– deyirik.

Heydər Əliyev xarici ölkələrdə müstəqil dövlətimizin rəmzləri olan Azərbaycan Bayrağını görəndə, bu bayraq altında Azərbaycan Himni çalınarkən sevindiyini, yüksək əhval-ruhiyyədə olduğunu, bundan çox böyük qürur hissi keçirdiyini, iftixar hissi duyduğunu qeyd edirdi. Xüsusi olaraq vurğulayırdı ki, biz öz himnimizi, bayrağımızı özümüz qədər sevməliyik. Çünki bu, bizim Vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzidir.

## Vətəndaş şərəfi

Heydər Əliyev Vətənin çiçəklənməsi, onun inkişafı və dünya dövlətləri içərisində layiqli yer tutması üçün hər bir azərbaycanlının yüksək vətəndaşlıq keyfiyyətlərinə malik olmasını zəruri hesab edirdi. “İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır. Hər bir insan gərək, eyni zamanda, vətəndaş olsun. Mütləq vətəndaş olsun! Sadəcə ona görə yox ki, Azərbaycan vətəndaşıdır. Gərək dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun”.

Ulu öndər xarici ölkələrdə təhsil almağa gedən tələbələri Azərbaycanın səlahiyyətli nümayəndələri adlandırır və onlara Azərbaycan həqiqətlərini xarici ölkə vətəndaşlarına dönə-donə çatdırmağı, bu istiqamətdə yorulmadan fəaliyyət göstərməyi tapşırırdı. Bunlar təkcə tövsiyələr deyil, həmçinin Azərbaycan gənclərinin gedəcəkləri ölkələrdə özlərini bir sivil Azərbaycan vətəndaşı kimi ləyaqətlə təmsil etmələrinə dair onların qarşısına qoyulan vəzifələr idi.

## Ana dilimizə sevgi

Dil xalqın varlığı, onu birləşdirən dəyər və kimliyini təsdiq edən əsas vasitələrdəndir. “Ananın südü bədənin mayası olduğu kimi, ana dili də ruhun qidasıdır” (F.Köçərli); “Dilini sevməyənin ürəyində millətpərvərlik duyğusu aramaq istiotdan bal dadı gözləməyə oxşar. Öz dili, öz ədəbiyyatı olmayan millət öz varlığından utanmalıdır” (Ö.F.Nemanzadə); “Dil xalqın namusu, tarixi, vicdanıdır. Dil xalqın böyük bir sərvəti və dövlətidir” (S.Vurğun). Görkəmli Azərbaycan ziyalılarının doğma dilimiz haqqında dedikləri bu dəyərli sözlər və ölməz kəlamlar ulu öndərimiz Heydər Əliyev tərəfindən həm tövsiyə xarakteri, həm də özünün məna tutumu ilə daha da zənginləşir. Ümummilli lider Azərbaycan dilini xalqımızın və millətimizin ən böyük, ən əziz sərvəti, milli sərvəti adlandırırdı.

Eyni zamanda, gənclərə başqa dilləri öyrənərkən öz ana dilini heç vaxt unutmamağı, bu dili başqa heç bir dilə dəyişməməyi özünün müdrikliyi və uzaqgörənliyi ilə bir daha tövsiyə edir: “Gənclərimiz nə qədər çox dil bilsələr, bir o qədər zəngin dünyagörüşə malik olacaqlar. Bu, müasir dünyanın tələbidir. Amma ən yaxşısı ondan ibarətdir ki, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini - Azərbaycan dilini, dövlət dilini mükəmməl bilməlidir”.

Heydər Əliyev öz çıxışlarında ana dili haqqında danışarkən onu haqlı olaraq tariximizlə bağlayır və onunla sıx əlaqələndirir. Göstərir ki, ana dilini sevməyən adam öz tarixini, ədəbiyyatını yaxşı bilməyəcəkdir. Mədəniyyətimizi, milli-mədəni ənənələrimizi bilməyəcəkdir, vətənpərvər olmayacaq və onda milli vətənpərvərlik duyğuları, hissiyyatı olmayacaqdır. Dilini unudan adam, şübhəsiz ki, milli keyfiyyətlərini də yavaş-yavaş unudacaqdır. Böyük öndər bunu yolverilməz hesab edirdi.

## Dövlət müstəqilliyimiz dönməzdir, əbədidir

Heydər Əliyev Azərbaycanın müstəqilliyini müqəddəs bir əmanət kimi qoruyub saxlamağı xalqımızın, o cümlədən müasir gəncliyimizin şərəfli borcu və vəzifəsi olduğunu bəyan edirdi. Azərbaycan gənclərinin Birinci forumunda etdiyi dərin məzmunlu çıxışında demişdi: “Hər bir azərbaycanlı gəncin şərəfli borcu Azərbaycan Respublikasının dövlət müstəqilliyini qoruyub saxlamaqdan, inkişaf etdirməkdən ibarətdir. Bu, bizim çoxəsirlik tariximizdə böyük, şərəfli və tarixi nailiyyətdir”.

Heydər Əliyev müstəqilliyimizin böyük tarixi, hüquqi, siyasi, iqtisadi, mənəvi əhəmiyyətə malik olduğunu diqqətə çatdırmaqla onun hər bir Azərbaycan vətəndaşının mənəviyyatı olması, iradəsi və fikrinə çevrilməsini zəruri hesab edirdi. Bu gün fəxrlə deyə bilərik ki, ümummilli lider Heydər Əliyevin bu müqəddəs tapşırığı xalqımızın böyük oğlu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik daxili və xarici siyasəti sayəsində Azərbaycan xalqı və gənclərimiz tərəfindən ləyaqətlə yerinə yetirilir.

Ulu öndər müstəqilliyimizin qorunub saxlanılması üçün Vətənimizin ərazi bütövlüyünün təmin edilməsini və onu qorumağı əsas vəzifələrdən biri hesab edirdi. Heydər Əliyevin bu tapşırığı görkəmli sərkərdə, cənab İlham Əliyevin başçılığı ilə on minlərlə vətənpərvər oğullarımız, üç mindən artıq şəhidimiz, minlərlə qazilərimiz tərəfindən şərəflə yerinə yetirildi. Onlar öz cəsarətləri, Vətən sevgisi, qanları və canları ilə 44 günlük Vətən müharibəsində torpaqlarımızı erməni barbarlarının işğalından azad edərək müstəqilliyimizin yeni bir mərhələsinin zəfər təməlini qoydular. Bu gün Azərbaycan müstəqil dövlət kimi artıq dünya dövlətləri içərisində öz layiqli yerini tutaraq böyük bir inkişaf yolu ilə inamla irəliləyir.

44 günlük Vətən müharibəsində ölümün gözünə dik baxan, düşmənlərin üzərində misli görünməmiş tarixi qələbə çalan, bu gün respublikamızda və dünyanın bir sıra qabaqcıl ali təhsil ocaqlarında təhsil alan, Azərbaycanın sərhədlərini şərəflə qoruyan, Azərbaycan Bayrağını xarici ölkələrdə yüksəkliklərə qaldıran, müxtəlif mötəbər məclislərdə xalqımızı, dövlətimizi təmsil edən Azərbaycan gəncliyinin ulu öndərin bu tövsiyələrinə layiqli əks-səda verdiyini inamla söyləmək olar.

***Müseyib İLYASOV,***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, professor***

# Azərbaycan və Türkiyə parlament sədrləri əməkdaşlıq sazişi imzalayıblar



**Türk Dövlətləri Parlament Assambleyasının XII plenar iclasında iştirak etmək üçün Ankara şəhərində işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopla görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən redaksiyamıza verilən məlumata görə, TBMM Sədri qardaş ölkələr arasında münasibətlərin ən yüksək dövrünü yaşadığını diqqətə çatdıraraq, xalqlarımızın həm çətin, həm də xoş günlərdə birlikdə olduğunu söyləyib. O, bu ilin fevral ayında baş vermiş zəlzələ zamanı da Azərbaycan dövlətinin və xalqının Türkiyənin yanında olduğunu xatırladıb.

Mustafa Şentop, istər 44 günlük Vətən müharibəsində, istərsə də müharibədən sonra Ermənistanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən quruculuq və bərpa işlərində Türkiyənin qardaş ölkə olaraq Azərbaycanın yanında olduğunu qeyd edib. O, bir neçə gün əvvəl Ermənistanda keçirilən Ağır Atletika üzrə Avropa Çempionatının açılış mərasimində Azərbaycan Bayrağının yandırılmasını kəskin pisləyərək, bunu vandallıq adlandırıb.

Mustafa Şentop, həmçinin Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin Laçın-Xankəndi yolunda keçirdikləri dinc aksiyaya dəstəyindən söhbət açaraq, deyib ki, Ermənistanın Laçın yolundan minaların, hərbi texnikanın və silahların, habelə qanunsuz istismar edilmiş faydalı qazıntıların daşınması üçün istifadə etməsi qətiyyən yolverilməzdir. Laçın yolu yalnız humanitar məqsədlər üçün istifadə olunmalıdır.

Milli Məclisin Sədri dost və qardaş ölkələr olan Azərbaycan və Türkiyənin bütün beynəlxalq platformalarda uğurlu əməkdaşlığından danışıb. O, dövlət başçılarımızın şəxsi dostluq münasibətlərinin Azərbaycan və Türkiyə qardaşlığının, birliyinin və strateji müttəfiqliyinin bugünkü yüksək səviyyəyə çatmasında mühüm rol oynadığını diqqətə çatdırıb.

S.Qafarova Vətən müharibəsindən sonra dost və qardaş ölkələrimizin dövlət başçıları tərəfindən Şuşa Bəyannaməsinin imzalandığını xatırladaraq, bu sənədin imzalanması ilə bütün dünya bir daha Azərbaycan–Türkiyə qardaşlığının şahidi olduğunu xatırladıb. Şuşa Bəyannaməsi Türkiyə–Azərbaycan əlaqələrini yeni və daha yüksək zirvəyə qaldırdı.

Parlamentin rəhbəri Vətən müharibəsi dövründə TBMM Sədrinin Azərbaycana səfər etdiyini, həmin vaxt Gəncə şəhərinə gedərək, Ermənistanın törətdiyi insanlıq əleyhinə cinayətləri öz gözləri ilə gördüyünü xatırladıb. Sahibə xanım, həmçinin bu il Türkiyədə baş vermiş zəlzələ zamanı Azərbaycan dövlətinin və xalqının qardaş Türkiyənin yanında olduğunu qardaş dəstəyi kimi qiymətləndirib. Bununla yanaşı, işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı quruculuq və bərpa işləri, Ermənistanın regionda davamlı sülhün təmin olunmasına qarşı yönəlmiş təxribatçı hərəkətləri barədə də geniş məlumat verib.

S.Qafarova parlamentlərimiz arasında da uğurlu və geniş əlaqələr qurulduğunu deyib və qanunverici orqanlarımızın həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı etdiyini diqqətə çatdırıb.

Görüşün sonunda Azərbaycan Milli Məclisi ilə Türkiyə Böyük Millət Məclisi arasında Əməkdaşlıq haqqında Saziş imzalanıb.

### TÜRKPA səmərəli dialoq və əməkdaşlıq platformasına çevrilib

Aprelin 28-də Türkiyənin paytaxtı Ankara şəhərində Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) Şurasının 12-ci iclası keçirilib. Milli Məclisin Sədri Sahibə Qafarova iclasda çıxış edib. O deyib ki, TÜRKPA parlamentlərimizin səmərəli dialoq və əməkdaşlıq platformasına çevrilib və birgə səylərimizlə beynəlxalq aləmdə tanınan mühüm təşkilat kimi formalaşıb.

Qeyd edilib ki, Azərbaycan Respublikasının Milli Məclisi TÜRKPA çərçivəsində fəaliyyətinə böyük əhəmiyyət verir və bu istiqamətdə bütün lazımi tədbirləri həyata keçirir. Azərbaycan parlament nümayəndə heyəti TÜRKPA-nın ayrı-ayrı komissiyalarının iclaslarında, müxtəlif mövzulara həsr edilmiş tədbirlərində, model qanunların hazırlanmasında, seçki müşahidə missiyalarının işində fəal iştirak edib. Eyni zamanda, Milli Məclis martın əvvəllərində TÜRKPA-nın Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması komissiyasının səkkizinci iclasına da evsahibliyi edib.

İclasda bir sıra təşkilati məsələlər müzakirə olunub və müvafiq qərarlar qəbul edilib.

*Əliqismət BƏDƏLOV,*
*"Xalq qəzeti"*

*Heydər Əliyev- 100*

**Mingəçevir şəhərindəki Heydər Əliyev Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir" mövzusunda konfrans keçirilmişdir. Tədbir öncəsi iştirakçılar və qonaqlar ulu öndərin Mərkəzin önündə ucaldılmış abidəsi önünə gül dəstələri qoymuşlar. Sonra nəzərdə tutulmuş proqrama uyğun olaraq, konfrans Mərkəzin akt zalında öz işinə başlamışdır. İştirakçılar ulu öndər Heydər Əliyevin, həmçinin Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər, Dövlət Himni səsləndirilmişdir. Ardınca "Heydər Əliyev müstəqil Azərbaycanın memarı" filmi nümayiş olunmuşdur.**

# Ulu öndərə həsr olunmuş konfrans



Konfransda giriş sözü ilə çıxış edən şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov Heydər Əliyevin hakimiyyətdə olduğu hər iki dönəmin ayrı-ayrı məqamlarına toxunmuş, Azərbaycanın aqrar bir respublikadan yüksək inkişaf etmiş sənaye ölkəsinə çevrildiyini vurğulamış, ulu öndərin Azərbaycanın xilaskarı, qurucusu, memarı kimi tarixi xidmətlərini xatırlamışdır.

Sonra məruzələr dinlənilmişdir. Milli Məclisin deputatı, siyasi elmlər üzrə fəlsəfə doktoru Aydın Mirzəzadə "Ulu öndər Heydər Əliyevin siyasi irsi müasir inkişafımızın bazasıdır", Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədov "Heydər Əliyev və Azərbaycanın milli maraqlara əsaslanan siyasəti", həmin akademiyanın baş müəllimi, Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov "44 günlük müharibədəki tarixi qələbənin siyasi ideoloji aspektləri", MDU-nun Təhsil fakültəsinin dekan müavini, filologiya elmləri doktoru Flora Namazova "Azərbaycanın dövlət müstəqilliyini əbədi edən tarixi şəxsiyyət" mövzusunda məruzələrlə çıxış etmişlər. Məruzələr maraqla dinlənilmiş və alqışlarla qarşılanmışdır.

*İlqar HƏSƏNOV,*
*"Xalq qəzeti"nin bölgə müxbiri*

# Göyçayda yubiley mərasimi

**Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyi ilə əlaqədar Göyçay Rayon Mərkəzi Xəstəxanasında maraqlı tədbir keçirilib.**



Tədbiri giriş sözü ilə Göyçay Rayon Mərkəzi Xəstəxanası Publik Hüquqi Şəxsin direktoru Yaşar Əhmədov açaraq Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurların Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil etdiyini, onun keçdiyi şərəfli ömür yolunun hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat örnəyi, kamillik və müdriklik məktəbi olduğunu vurğulayıb.

Göyçay Rayon İcra Hakimiyyəti başçısının müavini Zivər Zeynalova çıxışında qeyd edib ki, Zərifə xanım Əliyeva intellektual keyfiyyətləri özündə birləşdirən ziyalı, dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş böyük oftalmoloq alim olmaqla yanaşı, ulu öndərin ən yaxın silahdaşı, ölkə prezidenti İlham Əliyevi Azərbaycana bəxş edən anadır. Zərifə xanım Əliyevanın həyatı, elmi fəaliyyəti ilə yaxından tanış olduqca, haqqında xatirələri oxuduqca gözlərimiz önündə onun portreti canlanır.

Sonra Milli Məclisin deputatı Məzahir Əfəndiyev, Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri Sahib Şükürov, Rayon Ağsaqqallar Şurasının sədri Xəlil Orucov, Göyçay Rayon Mərkəzi Xəstəxanasının psixoloqu Dilarə Bayramova, oftalmoloq Sevinc Abdullayeva Zərifə xanım Əliyevanın Azərbaycan oftalmologiyasını dünya təbabətinin yüksək elmi mühiti səviyyəsinə qaldırması, elmi-pedaqoji fəaliyyəti, çoxşaxəli elmi-tədqiqat işləri, yüksək ixtisaslı gənc alim kadrları yetişdirməsi, xalqının tərəqqisi və maariflənməsinə əvəzsiz töhfələr verməsindən söz açıb, daim dərin ehtiramla anıldığını və xalqımızın qəlbində əbədi yaşayacağını qeyd ediblər.

Sonda akademik Zərifə xanım Əliyevanın şərəfli həyat yolundan, elmi nailiyyətlərindən, ictimai xadim kimi əvəzsiz fəaliyyətindən bəhs edən qısa videoçarx nümayiş olunub.

*İ.MUSAOĞLU,*
*"Xalq qəzeti"*

# Baş Prokurorluqda Zərifə Əliyevanın 100 illiyi qeyd olundu

**Azərbaycanın görkəmli alimi, əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyi münasibətilə aprelin 28-də Baş Prokurorluqda tədbir keçirilib.**



Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, tədbirdən əvvəl qurumun rəhbərliyi Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın xatirəsini dərin ehtiramla yad edib, məzarları önünə gül dəstələri qoyublar.

Açılış nitqi ilə çıxış edən Baş prokuror Kamran Əliyev əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermiş akademik Zərifə xanım Əliyevanın gələcək nəsillərə nümunə olacaq elmi fəaliyyəti və mənalı həyat yolundan bəhs edib, insanlara nur və həyat bəxş edən görkəmli alimin zəngin irsinin yeni elmi zirvələri inamla fəth edəcəyini vurğulayıb.

Tədbirdə çıxış edən Baş Prokurorluğun idarə rəisi Aynur Osmanova Zərifə xanım Əliyevanın peşəkar oftalmoloq-həkim kimi fədakarlığından, tədqiqatları ilə tibb elminin inkişafına mühüm töhfələrindən və yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasında əvəzsiz rolundan danışıb.

Tədbirin sonunda akademik Zərifə xanım Əliyevanın keçdiyi həyat yolundan bəhs edən "Elegiya" adlı sənədli filmə baxılıb.

# Nazir UNICEF-in ölkəmizdəki nümayəndəsi ilə görüşüb



**Aprelin 28-də Azərbaycan Respublikasının fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov Birləşmiş Millətlər Təşkilatı Uşaq Fondunun (UNICEF) ölkəmizdəki nümayəndəsi Aleks Haykensin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Bu barədə Fövqəladə Hallar Nazirliyindən (FHN) məlumat verilib.**

Qonaqları səmimi salamlayan nazir Kəmaləddin Heydərov FHN-in fəaliyyət istiqamətləri, o cümlədən uşaq təhlükəsizliyinin təmin edilməsi sahəsində görülən işlər barədə ətraflı danışıb. Nazir FHN tərəfindən uşaq təhlükəsizliyinin daim diqqət mərkəzində saxlanıldığını qeyd edərək, uşaqlarda kiçik yaşlarından təhlükəsiz həyat fəaliyyəti mədəniyyətinin formalaşdırılması, o cümlədən mümkün fövqəladə hallarla bağlı zəruri davranış qaydaları barədə biliklərin aşılanması, onların belə hallara mənəvi-psixoloji cəhətdən hazırlanması məqsədilə həyata keçirilən tədbirlərdən bəhs edib. Bu çərçivədə FHN ilə BMT-nin Uşaq Fondunun Azərbaycandakı Nümayəndəliyi arasında mövcud əməkdaşlıq münasibətlərinin genişləndirilməsi, müştərək tədbirlərin təşkilinin əhəmiyyəti diqqətə çatdırılıb, bu istiqamətdə birgə fəaliyyət planının hazırlanması təklif edilib.

UNICEF-in Azərbaycan Respublikasındakı nümayəndəsi Aleks Haykens səmimi görüşə görə təşəkkür edib, rəhbərlik etdiyi qurum tərəfindən uşaq təhlükəsizliyi ilə əlaqədar görülən işlər barədə ətraflı məlumat verib. Qonaq hər iki qurum arasında əməkdaşlığın genişləndirilməsinin faydasını qeyd edərək, hazırlanacaq birgə fəaliyyət planının uşaqların təhlükəsizliyinin təmin edilməsi, onların müxtəlif təbii və texnogen fövqəladə hallara hazırlıqlı olmaları baxımından mühüm töhfə verəcəyinə əminlik ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

Qeyd edək ki, FHN-ə səfər çərçivəsində Aleks Haykens nazirliyin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin Əməliyyat zalı və İctimaiyyətlə əlaqə idarəsinin Multimedia mərkəzinin fəaliyyəti ilə yerində tanış olub.

*Qəzənfər QASIMOV,*
*"Xalq qəzeti"*

# MSK Özbəkistanda keçiriləcək referendumu müşahidə edəcək

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahovun rəhbərlik etdiyi geniş nümayəndə heyəti Özbəkistan Respublikasına səfərə yola düşüb.**

MSK Katibliyinin Media və kommunikasiya şöbəsindən bildiriblər ki, Özbəkistan Mərkəzi Seçki Komissiyasının sədri Zayniddin Nizamxocayevin dəvətinə əsasən gerçəkləşdirilən səfərin məqsədi "Özbəkistan Respublikasının Konstitusiyası haqqında" Konstitusiya Qanunu layihəsi üzrə aprelin 30-da keçiriləcək referendumu müşahidə etməkdir.

Səfər çərçivəsində sədr Məzahir Pənahovun özbəkistanlı həmkarı ilə yanaşı, digər rəsmi şəxslər, habelə referendumun müşahidəsinə qatılan təşkilatlar və xarici ölkələrin ali seçki qurumlarının rəhbərləri ilə görüşlər keçirməsi, seçkilərlə əlaqədar müxtəlif istiqamətlərdə qarşılıqlı perspektivləri, əməkdaşlıq imkanları və qarşılıqlı maraq kəsb edən məsələlərlə bağlı müzakirələr aparılması nəzərdə tutulur.

Qeyd edək ki, Azərbaycan Mərkəzi Seçki Komissiyasının təmsilçiləri beynəlxalq müşahidəçi qismində Türk Dövlətləri Təşkilatı və Müstəqil Dövlətlər Birliyinin tərkibində də Özbəkistanda referendumun müşahidəsində iştirak edəcəklər.

*"Xalq qəzeti"*

# Azərbaycan Ordusu 44 günlük müharibə dövründəkindən daha güclüdür



*Dünyada gedən prosesləri hər kəs izləyir. Dünyada təhdidlər artır, təhlükələr artır. Düzdür, biz İkinci Qarabağ müharibəsində düşmənin başını əzərək möhtəşəm Qələbə əldə etmişik. Ancaq Ermənistanda revanşist qüvvələr yenə baş qaldırır, biz istənilən vəziyyətə hazır olmalıyıq və elə bir ordu yaratmalıyıq ki, dünya miqyasında nümunəvi olsun və ən güclü ordulardan biri olsun.*

**İlham ƏLİYEV,
Azərbaycan Respublikasının
Prezidenti**

**Bu sətirləri qələmə alarkən ordu quruculuğu ilə bağlı köhnə yazılarımdan bir neçəsinə nəzər saldım. Ancaq sitat kimi seçdiyim məqam ordu ilə deyil, təhsillə bağlı hazırladığım yazı oldu. 2009-cu ildə hazırladığım həmin yazıda dövlət başçımızdan bir sitat gətirmişdim. Orada deyilirdi ki, bu gün bizim dövlət büdcəsindən təhsilə ayırdığımız vəsaitin məbləği ordu quruculuğuna ayrılan vəsaitdən sonra ikinci yerdədir. Maraqlıdır ki, sonrakı illərdə də bu tendensiya dəyişməyib. Birinci yerdə ordu quruculuğu, ikinci yerdə isə təhsildir.**

Bu, belə də olmalı idi. Çünki ərazilərimizin 20 faizi düşmən tapdağında idi. Düşmənin isə havadarları da, dəstəkverənləri də çox idi. Ona görə də Azərbaycan beynəlxalq aləmdə davam edən ikili standartlara və erməni qəsbkarlığına qarşı təkbaşına mübarizə aparmalı idi. Odur ki, həm ulu öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev ordu quruculuğunu daim diqqət mərkəzində saxladılar və "məğlub" adı yapışdırılmış xalqımız nəticədə QALİB XALQ oldu.

Heç kəsin yadından çıxmayıb, 44 günlük İkinci Qarabağ müharibəsi günlərində Azərbaycana dost olan ölkələrdən də, bizim haqq işimizə kölgə salmağa çalışan dövlətlərdən də çoxsaylı KİV təmsilçiləri Bakıya gəlir, Prezident İlham Əliyevdən müsahibə götürürdülər. Dövlət başçımız həmin müsahibələrin hamısında deyirdi ki, Azərbaycan Ordusu qarşısına qoyulan istənilən vəzifənin öhdəsindən gəlməyə qadirdir. Ermənilərin məğlubiyyət sənədini imzalamasından sonra isə Prezident İlham Əliyev bir neçə dəfə xatırlatmışdı ki, dünyanın aparıcı hərbi məktəblərində Azərbaycanın 44 günlük müharibədəki təcrübəsi öyrənilir.

Prezidentin fikrincə, ordunun qələbəyə qadir olmasını təmin etmək üşün təkcə lazımi qədər vəsait ayrılması kifayət etmir. Bu məsələ kompleks şəkildə həll edilməlidir. Vahid mərkəzdən idarəetmə təmin olunmalı, Silahlı Qüvvələrin maddi-texniki bazası gücləndirilməli, arsenal müasirləşdirilməli, şəxsi heyətin peşəkarlığı artırılmalı, əsgər və zabitlərin sosial-məişət problemləri yüksək səviyyədə diqqət mərkəzində saxlanılmalı, gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi günün tələbləri səviyyəsində qurulmalıdır. Yəni, bu vəzifələrin hansısa yarımçıq şəkildə yerinə yetirilsəydi, biz qələbədən danışa bilməzdik.

Məhz həmin kompleks tədbirlərin nəticəsidir ki, İkinci Qarabağ müharibəsində düşmən diz çökdürüldü, şəhər və kəndlərimiz bir-birinin ardınca işğaldan azad edildi, düşmən silah və hərbi texnikasını meydanda qoyaraq qaçdı. Üstəlik, Azərbaycan Ordusunun bir hərbçisi belə fərarilik etmədi. Ermənistanın birinci xanımının etirafına görə isə işğalçı ordunun əsgərlərinin 25 faizi (bəli, Anna Akopyan 11 min fərarinin döyüşən ordunun 25 faizi olduğunu dilə gətirmişdi) fərarilik etmiş və hətta ölkədən qaçanlar da çox olmuşdu.

Prezident İlham Əliyevin siyasətinin nəticəsidir ki, azərbaycanlı gənclər həmin 44 günlük müharibə dövründə orduya yazılmaq üçün növbəyə dayanırdılar. Ermənilər isə həbsxanalardakı, xəstəxanalardakı əli silah tuta biləcək kişiləri məcburən orduya cəlb edəndən sonra "könüllü qadınlar"dan ibarət dəstələr formalaşdırırdılar.

Dövlət başçımız şanlı Qələbəmizin birinci ildönümü münasibətilə keçirilən tədbirlərdən birində demişdi ki, mənim əsgərlərim (Yeri gəlmişkən, bizim ordumuz düşməni necə qorxudubsa, Ermənistan mətbuatında Azərbaycan Ordusu ifadəsinə az-az rast gəlirik. Onlar daha çox Əliyevin əsgərləri ifadəsindən istifadə edirlər) aslanlar kimi döyüşdülər. Şuşanın sıldırım qayalarına dırmaşaraq çıxan hərbçilərimiz oradakı düşmən qüvvələrini yüngül siahlarla, bir çox hallarda isə əlbəyaxa döyüşlərdə məğlub edərək tarix yazdılar. Bu, həmin günlər idi ki, erməni ordusunun zabitləri öz əsgərlərini səngərdə zəncirləyirdilər ki, silahı buraxıb geriyə qaça bilməsin. Bütün bu faktları və ordular arasındakı fərqləri bilə-bilə yenidən revanş haqqında danışan kəslər– sadəcə olaraq, erməni xalqına düşmənçilik edirlər.

Dövlət başçımız bu yaxınlarda Salyanda Azərbaycan Televiziyasına verdiyi müsahibədə xatırlatmışdır ki, bu gün də Azərbaycan Ordusu güclüdür. Biz gücümüzü döyüş meydanında göstərmişik. Biz döyüş meydanında həm Azərbaycan xalqının gücünü, iradəsini, əyilməz ruhunu göstərdik, eyni zamanda, hərbçilərimizin peşəkarlığını, öz hərbi potensialımızı göstərdik. Ancaq bundan sonra ordumuz daha güclü olmalıdır və olacaq.

Dünya hərbçilərinin və ekspertlərin gözünün qabağında olan faktdır ki, 44 günlük müharibədən sonrakı iki il yarım ərzində də Azərbaycanda ordu quruculuğu məsələlərinə çox böyük diqqət göstərilib. Biz bu faktı heç zaman gizlətməmişik. Prezident əminliklə deyir ki, bugünkü Azərbaycan Ordusu 2020-ci ildə Zəfər çalmış Azərbaycan Ordusundan qat-qat güclüdür: "Ancaq, eyni zamanda, yenə də demək istəyirəm, biz hər bir vəziyyətə hər an hazır olmalıyıq. Ona görə bu sahədə – ordu quruculuğu və müdafiə potensialımızla bağlı olan bütün məsələlər əsas vəzifədir... Ona görə biz əsas vəsaiti bu istiqamətlərə yönəldəcəyik, lazım olan digər xərclər də aparılacaq".

Bu qeydlərimi Prezident İlham Əliyevin Laçında dövlət bayrağımızı qaldırarkən səsləndirdiyi fikirlərlə tamamlayıram: "Biz müharibə istəmirik, istəmirdik. Məhz buna görə 30 ilə yaxın müddət ərzində danışıqlar aparırdıq... Ona görə İkinci Qarabağ müharibəsindən sonra Ermənistanla sülh müqaviləsi imzalamaq istəyirik. Ancaq əgər düşmən bizə qarşı təxribat törədəcəksə, layiqli cavabını verəcəyik. Bu gün Ermənistan yaxşı fikirləşməlidir. Bizimlə heç kim ultimatum dili ilə danışa bilməz və heç kimə də bel bağlamasınlar. Biz şəhidlərimizlə, Ordumuzla, hərbçilərimizlə fəxr edirik və bu gün burada dalğalanan üçrəngli Bayrağımız bizim Zəfərimizin rəmzidir!"

***İttifaq MİRZƏBƏYLİ,
"Xalq qəzeti"***

ặp el,8 0

# Ekoaksiya müvəqqəti dayandırılır...

**Azərbaycanlı ekofəalların Laçın–Xankəndi yolunda keçirdikləri etiraz aksiyası dünən axşam saat 18:00-dan etibarən müvəqqəti dayandırılıb. Bu xəbər ölkə ictimaiyyəti arasında böyük maraq doğurub və dərin məmnunluq hissi ilə qarşılanıb.**



Hadisə yerindən yayılan xəbərlərə görə, Laçın–Xankəndi yolunda keçirilən, 138 gün davam edən ekoloji aksiya iştirakçılarının bir qrupu ilə aprelin 28-də günün birinci yarısında Azərbaycanın dövlət nümayəndələrinin dəvəti əsasında növbəti görüş keçirilib. Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyinin inzibati binasında keçirilən tədbirdə aksiya iştirakçılarını təmsil edən 10 ekofəal iştirak edib.

Görüşdə Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov bu il aprelin 23-də Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən Azərbaycanın suveren ərazisində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsinin qurulması ilə əlaqədar yeni vəziyyətin yarandığını qeyd edib. Buna görə də iştirakçılara aksiyanın dayandırılması bir daha təklif olunub.

Bu təklifdən sonra ekofəallar bildiriblər ki, Laçın–Xankəndi yolunun başlanğıcında sərhədçilərimiz tərəfindən sərhəd-nəzarət mexanizminin yaradılması, bununla da yolda hərəkət üzrə şəffaflığın, qanunun aliliyinin və hərəkətin təhlükəsizliyinin təmin edilməsi onları çox sevindirib. Bu, bir daha ona dəlalət edir ki, Azərbaycanın vətəndaş cəmiyyəti fəallarının haqlı tələblərinin bir hissəsi artıq icra olunub.

Buna baxmayaraq ekofəallar qeyd ediblər ki, aksiya məqsədinə tam olaraq çatmayıb. Onlar Rusiya sülhməramlılarının müvəqqəti nəzarətindəki Azərbaycan ərazilərində təbii sərvətlərimizin qanunsuz istismarına son qoyulmasını və ölkəmizin aidiyyəti qurumlarının həmin ərazilərdə monitorinqinə imkan yaradılmasını sülhməramlı kontingentin komandanlığından tələb etdiklərini bir daha vurğulayıblar.

Ekofəalların təmsilçiləri dövlət nümayəndələrinin dəfələrlə edilən çağırışına cavab olaraq, aksiyanın dayandırılması məsələsinə baxılması üçün aksiya iştirakçıları ilə ümumi məsləhətləşmələrin aparılmasına ehtiyac olduğunu bildiriblər.

Günün birinci yarısında keçirilən görüşdən sonra ekofəallar müzakirə olunan məsələlərlə bağlı məsləhətləşmələr aparmaq üçün humanitar aksiyanın keçirildiyi əraziyə qayıdıblar. Aksiya iştirakçılarının apardıqları məsləhətləşmə və müzakirələrdən sonra ekofəalların qəbul etdikləri qərar bir qədər əvvəl açıqlanıb və aksiya iştirakçıları olan qeyri-hökumət təşkilatları nümayəndələrinin, ekofəalların və gənc könüllülərin bəyanatı oxunub.

Sənəddə 138 gün ərzində ekofəallara dəstək göstərən bütün Azərbaycan vətəndaşlarına, ərazidə təhlükəsizliyin təmin edilməsində əməyi olanlara, ekofəalların sağlamlığının keşiyində duran könüllü tibb işçilərinə, aksiyanın tələblərini dünya ictimaiyyətinə çatdıran yerli və xarici kütləvi informasiya vasitələrinə dərin təşəkkür bildirilib.

Bununla yanaşı, sənəddə məxsusi olaraq qeyd olunur ki, azərbaycanlı ekofəalların Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərimizdə faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasına, ekoloji və digər fəsadlarla bağlı monitorinqin keçirilməsinin təmin olunmasına dair sülhməramlı kontingentin komandanlığı qarşısında irəli sürdükləri tələblər qüvvədə qalır və onlar bu tələblər yerinə yetirilməyəcəyi halda aksiyanın yenidən bərpa olunması hüququnu özlərində saxlayırlar.

Bəyanat aksiyanın davam etdiyi 138 gün dəfələrlə səsləndirilən bu şüarlarla bitir: **"Ekocinayətə son! Azərbaycan oyaqdır, sərvətinə dayaqdır! Azərbaycan vahiddir, sərvətinə sahibdir!"**

Aksiyanın keçirildiyi günlər ərzində bir neçə dəfə könüllü olaraq ekofəalların sıralarına qatılan QHT fəalı, "Optimist" Sosial Problemlərin Həllinə Yardım" İctimai Birliyinin sədri Habil Niftalı bizimlə söhbətində fəxrlə bildirdi ki, Laçın–Xankəndi yolunda keçirilən tədbir bir daha bütün dünyaya nümayiş etdirdi ki, müstəqil Azərbaycanda torpağının, sərvətinin, millətinin təəssübünü çəkən, Vətəninə, dövlətinə, onun lideri, görkəmli dövlət xadimi. Prezident İlham Əliyevə dərin sədaqət hissi nümayiş etdirən, bu yolda hər cür çətinliyə fədakarcasına sinə gərən fəal və kreativ vətəndaş cəmiyyəti formalaşıb.

Bir neçə dəfə ekoaksiyaçıların qonağı olmuş, burada gördükləri, müşahidə etdikləri həqiqətlər barədə həvəslə redaktoru olduğu "Xocalının səsi" qəzetində maraqlı reportajlar dərc etdirən tanınmış jurnalist Qalib Bəyməmmədoğlu telefonda ürəyindən dilinə axan bu sözləri söylədi:

– Zərrə qədər şübhə etmirik ki, ekofəalların bütün haqlı tələbləri ən yaxın gələcəkdə həyata keçiriləcək. Haqq-ədalət bizim tərəfimizdədir. Bəli, möhtərəm Prezidentin də dediyi kimi, "Biz birlikdə güclüyük! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

***Məsaim ABDULLAYEV,
"Xalq qəzeti"***

# General Lentsovun "startı" uğursuz oldu

**Xəbər verildiyi kimi, Aleksandr Lentsov Azərbaycanın Qarabağ iqtisadi rayonundakı Rusiya sülhməramlı kontingentinin (RSK) komandanı təyin edilib. RSK Qarabağ iqtisadi rayonuna 9 noyabr 2020-ci ildə Rusiya, Azərbaycan və Ermənistan liderləri tərəfindən imzalanmış üçtərəfli Bəyanata əsasən yerləşdirilib. Bəyanatda qeyd edilir ki, Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 nəfər odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir. Sənəddə RSK-nın bölgədə qalma müddətinin 5 il olduğu qeyd edilir. Müddətin bitməsinə 6 ay qalmış tərəflərdən hansısa biri ona xitam verilməsi niyyəti ilə çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 il də uzadılır.**

Aleksandr Lentsov sülhməramlıların yerləşdirilməsindən sonra Rusiyanın Qarabağdakı hərbi kontingentinin sayca beşinci komandanıdır. İlk komandan general-leytenant Rüstəm Muradov olub, ondan sonra bu vəzifəni general-mayor Mixail Kosobokov, general-leytenant Gennadi Anaşkin və general-mayor Andrey Volkovu tutublar. Ancaq A.Lentsov indiyədək heç bir RSK komandanının imza atmadığı yumşaq desək, xoşagəlməz akta imza atıb: o, aprelin 27-də Qarabağ iqtisadi rayonunda yaşayan erməni separatçılarının "qlavar"ı ilə görüşüb. Görüşlə bağlı fotolara baxarkən hiddətlənməmək olmur. Biz, RSK-nın əvvəlki komandanlarının da separatçılarla görüşdüyünü istisna etmirik. Ancaq hər halda bu görüşlər bağlı qapılar arxasında olub. Onlar bu



görüşləri nümayişkəranə şəkildə həyata keçirməyiblər. Yeni komandan isə bu mənada sələflərindən xeyli "irəli" gedib. Görüşdə Rusiyanın dövlət bayrağının olmadığı, salonda yalnız separatçıların əski parçasının mövcudluğu diqqətdən yayınmır. Divardan isə onların "gerb" adlandırdıqları svastikaya bənzər eybəcər emblem nəzərə çarpır. A.Lentsov separatçıların başçısı ilə görüşə nümayəndə heyətilə gedib. Onlar üzbəüz əyləşərək bərabərhüquqlu tərəflər kimi danışıqlar aparıblar. Onu da qeyd edək ki, bu, A.Lentsovun RSK-nın komandanı kimi keçirdiyi ilk görüşdür.

***

Bu görüşlə bağlı olduqca incə nüans var. Məsələ ondadır ki, qondarma rejimi, daha doğrusu, onun tör-töküntülərini nəinki Rusiya, heç bir ölkə, hətta Ermənistanın özü də tanımayıb. Qondarma rejim tarixin heç bir anında beynəlxalq hüququn subyekti olmayıb, ola da bilməz. Rusiya Azərbaycanın ərazi bütövlüyünü tanıdığını dəfələrlə ən yüksək səviyyədə bəyan edib. Belə olan təqdirdə RSK-nın yeni komandanının qondarma rejimin başçısı ilə görüşü heç bir əndazəyə sığmır və anlaşılmır. Sual yaranır: A.Lentsov hansı statusla rejim mənsubları ilə görüşüb? Məgər o bilmirmi ki, bu addımı elə öz ölkəsinin rəsmi mövqeyi ilə ziddiyyət təşkil edir? Rusiya federativ dövlət quruluşuna malikdir, onun ərazisində nə az, nə çox düz 85 bərabərhüquqlu subyekt var. Həmçinin Rusiya çoxmillətli və çoxkonfessiyalı ölkədir. Burada 200-dən çox xalqın nümayəndələri yaşayırlar. General Lentsov etnik separatizmi qızışdırmağa xidmət edən bu cür görüşlər keçirmədən öncə bu amili də nəzərə almalıdır. Necə deyərlər, şüşə evlərdə əyləşib, başqasının dəmir qapısını daşlamaq olmaz! Başqasının ərazisində etnik separatizmi qızışdırmaq sonda bumeranq effekti verə bilər.

***

Hərbi sistemdə zabit şərəfi deyilən bir anlayış var. Bu psixoloji anlayış tarix boyu yazılmamış qanun olaraq, dünya ordularında qəbul edilib və ona hörmətlə yanaşılıb. Üzləşdikləri çətinliklərə baxmayaraq, ömrünü hərb sənətinə bağlayanlar alçaldılmanı, əsarəti, rütbələrinin aşağı salınmasını öz şərəflərinə sığışdırmayıblar. A.Lentsov da yüksək rütbəli hərbçidir. O, bundan əvvəl (2013-2020-ci illərdə) Rusiya Silahlı Qüvvələrinin Quru Qoşunları komandanının müavini olub, general-polkovnik hərbi rütbəsinə malikdir. General Lentsov 2016-cı ildən Beynəlxalq Tank Biatlonu Federasiyasının prezidentidir. 2020-ci ilin yanvarında isə Rusiya müdafiə nazirinin müşaviri təyin olunub. Belə titullu şəxsin heç kimin tanımadığı, qəbul etmədiyi separatçı rejim başçısının ayağına getməsi zabit şərəfi ilə bir araya sığmayan hərəkət hesab oluna bilər. Ümid edək ki, Lentsovun yaxın ətrafından bunu ona xatırladacaq kimsə tapılacaq və bir daha belə əməllər təkrarlanmayacaq.

***Səxavət HƏMİD,
"Xalq qəzeti"***

*Ekspert rəyi*



**Züriyə QARAYEVA,
politoloq**

– Qarabağda müvəqqəti yerləşdirilmiş sülhməramlıların komandanı, general-mayor Andrey Volkovun vəzifəsindən məhz indi geri çağrılması hesab edirəm ki, təsadüfi deyil. Volkovun sülhməramlılıq adı altında missiyası bölgədə biznesini genişləndirməkdən, separatçıların Qarabağa daşıdıqları silah-sursatla dolu hər bir nəqliyyat vasitəsinə görə, külli miqdarda qeyri-rəsmi rüsum almaqdan ibarət idi. Laçın yolunda Dövlət Sərhəd Xidmətinin, ardınca isə Dövlət Gömrük Komitəsinin sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması bu missiyanın icrası mümkünsüz idi. Görünür, yeni general bölgəyə başqa missiya ilə göndərilib.

Unutmaq olmaz ki, Lentsov 1990-cı ildə SSRİ Silahlı Qüvvələrinin 98-ci diviziyasına daxil olan 331-ci qvardiya hava-desant alayının komandiri olub. Həmin ilin yanvarında bu diviziya Bakının və Azərbaycanın digər rayonlarının dinc əhalisinin qırğınında iştirak edib. Üstəlik, Lentsovun ermənilərin sıx yaşadığı Krasnodarda doğulması, həyat yoldaşının isə erməni olması göstərir ki, Rusiyanın məqsədi ermənilərlə korlanan münasibətin bərpa olunmasıdır. Çünki Rusiya tərəfi postun yaradılmasına faktiki surətdə mane ola bilmədi.

Lentsovun təyinatından dərhal sonra qondarma rejim başçısı ilə görüş keçirməsi də göstərir ki, yeni generalın bölgədəki vəziyyəti daha da gərginləşdirməklə bağlı təlimatları var. Qondarma bayraq əhatəsində danışıqlar ölkəmizin suverenliyinə açıq-aşkar hörmətsizlik edilməsinin göstəricisidir. Bütün bunlar heç də adi vaxtda baş vermir. Sərhəd nəzarət-buraxılış məntəqəsinin olması separatçıların nəfəsliyinin bağlanması deməkdir. Bölgədə separatçılara dəstək "öhdəliyi" olan Rusiyanın onlar qarşısında imici də tamamilə sarsılmış vəziyyətdədir. Digər tərəfdən, postun yaradılması yaxın zamanda Xankəndidə də Azərbaycan Bayrağının dalğalanması deməkdir. Bu durumda rus sülhməramlılarına bölgədə heç bir ehtiyac qalmayacaq. Demək, məhz indiki vaxtda bu təyinat Moskvanın Qarabağda dayaqlarını mümkün qədər möhkəmləndirməyə hesablanıb. Həmçinin Rusiya ermənilərə bölgədə Azərbaycan Ordusunun irəliləməsinə görə general Volkovu cəzalandırdığı mesajını da vermiş ola bilər. Səbəbdən asılı olmayaraq, birmənalı olan yalnız odur ki, Rusiya hazırkı durumda çox narahatdır.

# “NEMEZİSİZM”

## yaxud qəddarlıq və zombilikdə “erməni nümunəsi”

**Deyirlər ki, pis millət və xalq yoxdur, onun pis olan nümayəndələri var. Hərçənd, “xalqın pis olan nümayəndələri var” deyimi də ilk siqnaldır. Deməli, hansısa məqamda pisliklərin üzəçıxma faizi üstünlük qazanıb və bu hal pisliklə bağlı qənaət formalaşdırıb. Deməli, nəticə çıxarılmalıdır.**




Digər tərəfdən, diqqətə çatdırdığımız deyim, müəyyən mənada, təsəllidir də. Bir pisliyi, ümumən, topluma şamil etməmək üçün olan təsəlli. Ancaq zaman keçdikcə, bu təsəllinin zəifliyinə şahidlik edirik. O məqamda ümidlər tükənir, obrazlı desək, gözləntilər dəfn edilir. Nəzərə alaq ki, təsəllinin özündə də bir ümid var. Nəyisə yaxşı görməyin, şahidi olduğun pisliklərin aradan qalxacağının ümidi.

Biz əsrlərlə erməni adlı qövmün düzələcəyi qənaətində olmuşuq. Daha doğrusu, bu qənaətlə itirə-itirə gəlmişik. Yəni, bəslədiyimiz ümid və inam xalqımıza baha başa gəlib. Vətən torpaqlarını peşkəş də etmişik ki, düzələcəklər. Bəli, ermənilər deyirik, fərq qoymuruq. Artıq bildirmirik ki, ortada siyasət olub. Axı, bütün pisliklər kimi, bədnam siyasətlər də özünü pisliklər üçün alətə çevirməyə hazır olanları tapır.

Niyə kimlərsə – böyük qüvvələr, güclər özlərinin avantürist niyyətləri naminə bizdən yararlanmayıblar? Görüblər ki, əyri işlər üçün əlverişli deyilik, bədxah iddialardan, xəstəlikdən uzağıq, vicdanımız təmizdir, dürüstük, içərimizdə haqq-ədalət sevgisi var. Və onu nahaqqa qurban verəcək əqidəsizlikdən kənarıq. Ancaq haqqında söz açdığımız qüvvələrin tarix boyu ermənilərdən “faydalandıqlarına” şahidliyimiz olub. Çünki ermənilər daim özlərini “təklif ediblər”. Təklif etmək bir yana, böyük güclər görüblər ki, bu millətdə pataloji xəstəlik, türklərə münasibətdə izaholunmaz nifrət toxumları var və bu toxumları azacıq suvarmaq kifayətdir ki, cücərsin, “bar versin”.

Bəli, tarixən ermənilərin işğalları, qəsbləri, soyqırımları ilə üzləşmişik. Sadəlövhcəsinə bunun dayanacağına bəslədiyimiz ümiddən daha da azğınlaşıblar. Ona görə deməliyik ki, ermənilərin bu cür vəhşi xislətə sahiblənməyində günahkar həm də bizik. Qarşılarında maneə görməyiblər, müqavimət hiss etməyiblər. Düşünüblər ki, hər şey istədikləri kimi olmalıdır.

Son iki yüz illik tarixdə ilk dəfədir ki, proseslər ermənilərin arzuladıqları tərzdə getmir. Baxın, Qarabağın hər yerinə, sanki, yağışdan sonra bitən göbələk kimi səpələndilər. 44 günlük Vətən müharibəsində murdar qanları müqəddəs yurd yerlərimizin hər bucağına töküldü. Düşündük ki, bu aqibət onlara görk olar. Amma görk olmadı. Çünki xəstəlik çıxmayıb canlarından. Digər tərəfdən, kimlərəsə o xəstəliyin nəsildən-nəslə keçməsi də vacibdir. Bu səbəbdəndir ki, qorunurlar.

Bəli, söhbət qövmlükdən çıxa bilməyən erməni toplumundan gedir. Diqqət yetirin, əvvəldə söylədiyimiz “xalqın pisi olduğu kimi, yaxşısı da var” anlamından uzağıq. Çünki pis olmağa nə var, yaxşı, müsbət imic qazanmaq çətindir. Ermənilər ikincini seçiblər. Sadə erməniləri də nəzərdə tuturuq. Heç vaxt şüurən özlərində avantürizmdən, ambisiyalardan kənarda durmaq potensialını bəsləməyiblər, buna çalışmayıblar. Bir xalqın yazıçı dediyi şəxs – Zori Balayan öz kitabında türklərə qarşı qəddarlıq səhnələrini təsvir edib öyünməyi bacarırsa, deməli ictimai təfəkkür də zaydır. Heç kəs də soruşmur ki, yazıçı nə üçün qəddarlıq səhnələrini qələmə alıb onunla öyünməlidir. Soruşmurlar, çünki zombiləşiblər.

Bəli, yaxşılıqlar, mütərəqqiliklər incəsənət nümunələrində, ədəbiyyatda yaşayır. Yəni, xalqın müsbət, bəşəri keyfiyyətləri onun yaradıcılığına hopur, özünə məhz sənət dünyasında əbədi ümman taparaq cilalanır, inkişaf edir. Nəticə etibarilə xalq özü də inkişaf edir və gələcək nəsillərin yoluna işıq saçır. Həmin nəsillərin ruh halını, estetik zövqünü formalaşdırır. Ancaq estetik zövqü, iç dünyasını formalaşdırmalı olan incəsənət erməni qövmünə xas patoloji xəstəliyinin əsiridir. Bu günlərdə İrəvanın mərkəzində “Nemezis” terror əməliyyatına həsr olunmuş abidənin ucaldılması da bu əsirliyin məhsuludur.

***

Qeyd edək ki, Azərbaycan Demokratik Respublikası və Osmanlı dövlət xadimlərini hədəf alan “Nemezis” terror əməliyyatı zamanı Osmanlı dövlətinin rəsmi şəxsləri ilə yanaşı, 1920–1922-ci illərdə Azərbaycanın sabiq baş naziri Fətəli xan Xoyski, Azərbaycan parlamentinin keçmiş sədr müavini Həsən bəy Ağayev, Azərbaycanın sabiq daxili işlər naziri Behbud xan Cavanşir, Azərbaycanın keçmiş Baş naziri Nəsib bəy Yusifbəyli... də qətlə yetiriliblər.

Əlbəttə, yuxarıda da vurğuladıq ki, terror cinayətləri erməni qövmü üçün xüsusi önəm daşıyır. XX əsr ərzində baş verən proseslər də bunun təsdiqidir. Nəhayət, əsrin sonlarına doğru Azərbaycan torpaqlarının işğalı da terrordur. Ermənistan müstəqillik əldə etdiyindən terror, belə demək mümkünsə, özünə dövlət siması qazandı. Beləcə otuz ilə yaxın müddətdə Azərbaycan türkləri dövlət terrorunun işğalçılıq mahiyyəti ilə baş-başa qaldı.

Lakin 2018-ci ildə Ermənistanda Nikol Paşinyanın hakimiyyətə gəlməsi ilə nəticələnmiş inqilabdan sonra belə düşüncələr yarandı ki, ölkə ənənəvi erməni xislətinə xas mənfi stereotiplərdən uzaq duracaq, türklərə qarşı düşmənçiliyi və nifrəti özündən uzaqlaşdıracaqdır. Mövcud xüsusda Qarabağ münaqişəsinin dinc yolla həllinə də ümidlər var idi. Çünki inqilab, necə deyərlər, Qərb dəyərləri ilə silahlanmış siyasi qüvvənin qələbəsi reallığını doğurmuşdu. Ancaq biz, tədricən, tipik erməni xəstəliyinin həmin dəyərlərə hopduğunun şahidlərinə çevrildik. Sən demə, inqilab vəhşi xislətin Qərbə daşınması üçün vasitə imiş. Nəticə etibarilə mütərəqqilik vandallığın girovuna çevrilmiş duruma düşdü.

Diqqət yetirək, 2019-cu ilin payızında, yəni qərbpərəst Paşinyanın hakimiyyətə gəlişindən sonra Ermənistanın Şirak vilayətində Osmanlı dövlətinin baş naziri Mehmet Tələt paşanın qatili Soqomon Teyliryanın heykəli ucaldıldı. Heykəlin təsvirində qatilin ayağının altında Tələt paşanın başının görüntüsü yer aldı. Bu qədər alçaq düşüncəni yaradıcılığa, bu halda incəsənətə gətirmək, həqiqətən, faciədir. Deməli, erməni insanı, gəncliyi ayaq altında olan kəsilmiş başa tamaşa edəcək! Kəsilmiş baş bu təbəqəni formalaşdıracaq! Bəli, hər şey bu qədər qəddardır. Qəddar olduğu qədər də ortada miskin mənzərə var. Bu mənzərə heç də tarixdə baş vermiş nələrisə yaddan çıxarmamaq, ibrət götürmək üçün atılmış addımın göstəricisi deyil. Bu mənzərə, sadəcə, qorxaqlıq və rəzillikdir.

Bəli, bu idi Qərbpərəst Nikol Paşinyan hakimiyyətinin mahiyyəti, yəni, mahiyyətsizliyi və simasızlığı. Əlbəttə, Tələt paşanın başını ayaq altında göstərən qövmün başbiləninin “Qarabağ Ermənistandır” söyləməsindəki aqressiv ritorikanı anlamaq mümkündür. Bu qövmdə “yeni torpaqlar naminə yeni müharibə” çağırışının səslənməsini də, həmçinin. Beləcə, terrorçu və işğalçı Ermənistan 2020-ci il sentyabrın 27-də müharibəyə başladı ...və cəhənnəmə vasil oldu. Başları, əlləri, qolları ilə tikə-parçaya çevrilib qəsb etdikləri Qarabağın daşına-qayasına bulaşdı.

Müharibənin üzərindən iki ildən artıq vaxt keçib, indi də “Nemezis” şərəfsizliyinə həsr olunmuş abidə ucaldırlar. Cəmiyyətə türklərə qarşı nifrət qığılcımları səpirlər. Daha doğrusu, onsuz da mövcud olan kin və küdurəti daha da körükləmək yolu tuturlar. Yenə qonşularla dinc, birgəyaşam mühitinin formalaşmasına qarşı olduqlarını göstərirlər. Elə buna görə də Azərbaycanın Xarici İşlər Nazirliyinin hadisə ilə bağlı yaydığı bəyanatda Ermənistanın terrorçuluq siyasətinə son qoyulmasının vacibliyi vurğulanmaqla yanaşı, qeyd edilib ki, erməni terrorizminin, ekstremizminin, aqressiv separatizminin və irqi ayrı-seçkiliyinin bütün forma və təzahürlərinə qarşı birmənalı və ikili standartlardan kənar şəkildə qəti mübarizə aparılmalıdır. Yəni, ölkəmiz erməni xislətinin təhdidedici, bölgədə sülhün və əminamanlığın qərarlaşmasına maneçilik törədən təbiətini göstərir və buna qarşı müqavimətin və immunitetin möhkəm olmasının vacibliyinə diqqət yönəldir: “Ermənistanın bu cür addımları, bu ölkənin Azərbaycan və Türkiyə ilə davam edən normallaşma danışıqları ilə bağlı iddia etdiyi “səmimiyyətini” və “xoş iradəsini” ciddi sual altına qoyur. Qeyd edək ki, sülh və barışığa aparan yol cinayət və səhvlərin daha çox tərənnüm edilməsindən deyil, bunların etiraf olunmasından keçir”.

Bəli, “Nemezis” şərəfsizliyi üçün abidənin ucaldılması Azərbaycanla sülh, Türkiyə ilə normallaşma prosesinin labüdlüyünü şübhə altına almaqdadır. Az əvvəl, 2019-cu ildə Ermənistanda Tələt paşanın qatilinə heykəl qoyulduğunu vurğuladıq. Onu da vurğuladıq ki, belə yaramaz təfriqəçi meyillər ölkə üçün acınacaqlı sonluq gətirmiş 44 günlük müharibə reallığını doğurdu. Bu mənada gözləmək olar ki, “Nemezis” abidəsi də növbəti müharibə üçün ideoloji motivdir. Yaxşı olar ki, Ermənistan hakimiyyəti yeni savaşın ölkə, ümumən, Ermənistanın saxta dövlətçiliyi üçün hansı acınacaqlı aqibəti doğuracağını düşünsün. Hərçənd, necə düşünsün axı xəstələr, indiki halda xəstə erməni cəmiyyəti düşünə bilmir. Pis xalq və pis millət olmağa üstünlük verir.

***Ə.CAHANGİROĞLU,***
***“Xalq qəzeti”***

# Ermənistan tarana gedir

## Rusiyalı ekspert İrəvanı reallıqlarla barışmağa çağırır

**Ermənistan özünü tarana aparır. Ölkə Azərbaycanla sülh danışıqlarından yayınır, müxtəlif mənasız məsələləri gündəmə gətirməklə, müzakirələrin əsl mahiyyətini heçə endirmək yolunu tutur. Başqa sözlə, ənənəvi inkarçılığa söykənmiş davranışları ilə şıltaqlıq edir.**

İrəvanın siyasi dairələrinin hərəkətlərindən o da anlaşılır ki, hansısa mücərrəd qüvvələr köməklərinə çatacaq və üstünlüyünə yiyələnmələrinə şərait yaradacaqdır. Azərbaycan Prezidenti İlham Əliyev isə dəfələrlə vurğulayıb ki, Ermənistana heç bir qüvvə yardım göstərməyəcəkdir, hansısa tərəfin bu istiqamətdəki siyasəti iflasa uğrayacaqdır. Dövlətimizin başçısı öz mövqeyini tam əminliklə dilə gətirib. Hazırda da Bakı diktə edən tərəfdir. Azərbaycanın prinsiplərindən geri çəkilməyəcəyi gün kimi aydındır.



Əlbəttə, Ermənistanda da durumun qəti səciyyə daşıdığını anlayanlar var. Ancaq ənənəvi inkarçıların yaratdıqları isterik ab-havanın fonunda onların səsi eşidilmir. Ölkədə vəziyyəti düzgün dəyərləndirmək yönümlü çağırışlar, az qala, xəyanət kimi qiymətləndirilir. Məhz, buna görə loyallardan kimsə əlini daşın altına qoymaq istəmir. Görünür, heç kəs hay-küyçülərin – revanşistlərin və avantüristlərin xain damğası ilə üzləşmək niyyətində deyil.

Belədə bir sıra suallar yaranır: Hazırkı geosiyasi səciyyə daşıyan regional mühitdə Ermənistanın aqibəti necə olacaq? Ölkə bölgənin yeni şəkillənməsində hansı statusda iştirak edəcək? Nəzərə alaq ki, haqqında söz açdığımız şəkillənmənin baş verməsi mütləqdir. Nəhayət, Ermənistan, bir dövlət kimi, mövcud olacaq, yoxsa yox? Axı, geniş düşünəndə bu coğrafiyada erməni dövlətinin varlığının özü erməni qövmü üçün böyük şeydir...

Nəzərə alınmalıdır ki, Ermənistan dövləti adlı struktur, prinsip etibarilə, konstruksiyadır, quramadır, köklü deyil. Yəqin, elə bu səbəbdən erməni cəmiyyəti dövlətçilik təfəkküründən çox, tayfa və qəbilə düşüncəsindədir, yəni, dövləti düşünmədiyindən, onun itirilməsini hesablamayacaq qədər iflicdir.

Bəli, indi beynəlxalq oyunçular, Cənubi Qafqazda Ermənistan adlı dövlətin mövcudluğunda maraqlı olanlar çalışırlar ki, reallıqları iflic durumda olan erməni cəmiyyətinə anlatsınlar. Bu mənada Moskva Dövlət Universitetinin dosenti, tarixçi-ekspert Fyodr Qaydanın söylədikləri maraq doğurmaqdadır.

***

F.Qayda “News.am”ın “Güc faktoru” proqramındakı çıxışında bəzi maraqlı məqamlara toxunaraq bildirib ki, Ermənistan dialoqun tərəfi olduğunu anlamalıdır. Yəni, masa ətrafında əyləşməlidir. Bu yerdə Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovun bir neçə gün öncəki açıqlamasını yada salmaq istərdik. Cənab Bayramov Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin ABŞ-da təyin olunmuş görüşü ilə bağlı məsələni şərh edərkən, Birləşmiş Ştatlara İrəvanı danışıqlar masası ətrafında əyləşməyə razı saldığı üçün təşəkkürünü bildirib. Deməli, bir daha İrəvanın masa ətrafında əyləşmədiyi təsdiqlənir. F.Qayda isə deyir ki, “insan ətrafında heç nə hiss etməyəndə başını divara çırpa bilər”. Və deməli, Ermənistanın hərəkətləri başını divara vurmaq kimi qarşılanır. Faktiki olaraq, ekspert onu da deyir ki, İrəvan maraqları nəzərə almağı öyrənməli, bütün tərəfləri eşitməyə çalışmalıdır: “Yalnız bundan sonra hansısa perspektiv var, əks halda perspektiv yoxdur. Nəyisə xilas etmək üçün harada aşağı olduğumuzu başa düşməliyik”.

F.Qayda Ermənistan ərazisindən Naxçıvana quru yolla bağlı məsələyə də toxunub. Bildirib ki, dəhlizlə bağlı söhbət gec-tez aparılacaq. Ekspert dəhlizin Ermənistan yurisdiksiyasında saxlanılacağına inandığını dilə gətirib. Ancaq məlumdur ki, İrəvan buna da etiraz edir. Qayda isə daha böyük məqamın üzərinə gəlir, Ermənistanın və Rusiyanın Azərbaycanla Türkiyə arasında nəqliyyat əlaqəsini təmin etməsini qaçılmaz proses kimi dəyərləndirir. Məsələnin İrəvan üçün önəminə gəldikdə, rusiyalı mütəxəssisin fikrincə, dəhliz mövzusunda kompromiss Ermənistanın Qarabağın erməni əhalisinin varlığı üçün təminat almasıdır. Onun sözlərinə görə, prosesdə qarant rolunda çıxış edən tərəf Rusiyadır. Əks halda, bölgədə sonu olmayan oyunlar gedəcəkdir ki, mövcud xüsusda zəif düşən tərəf İrəvan olacaqdır.

F.Qaydanın Ermənistanı və erməni cəmiyyətini xəbərdar edən fikirləri yalnız qeyd etdiklərimizlə məhdudlaşmır. Bildirir ki, Cənubi Qafqazda Azərbaycan üçün yeganə maraq Qarabağ deyil. Ekspert bu baxımdan ölkəmizin digər ərazilərini Naxçıvanla birləşdirən quru yolunun üzərinə yenidən gəlir. Bu yolu vacib geosiyasi və geoiqtisadi marşrut kimi səciyyələndirir. Azərbaycanın Türkiyə ilə birbaşa nəqliyyat əlaqəsinin olması istəyini qabardan ekspertin sözlərindən belə qənaət formalaşır ki, hələlik mövcud xüsusdakı müzakirə ekstraterritorial dəhliz məntiqindən uzaqdır və baxışlarda başlıca leytmotiv həm də dəhliz üzərində Ermənistanın yurisdiksiyasının saxlanılmasıdır.

Ancaq F.Qayda problemin mahiyyətinin İrəvanın özünü gələcəkdə necə aparmasına uyğun dəyişə biləcəyini də vurğulayır. Məhz bu yanaşması onu deməyə əsas verir ki, ekspertin dedikləri Ermənistana reallıqlarla barışmaq çağırışıdır. “İştah diş altındadır”, – deyən Qayda, faktiki olaraq, bildirir ki, hazırda Ermənistanın danışıqlar aparmaması münaqişəni davamlı məcraya salır. Münaqişə davam etdikdə isə tələblər də artır. “İndiki halda, region elədir ki, tələblər sonsuza qədər arta bilər. Bunu nəzərə almaq lazımdır. Buna görə danışıqlara nə qədər tez başlanılsa, bu, hamı üçün bir o qədər yaxşı olar, əks halda çox şey baş verə bilər”, – deyə ekspert fikrinə aydınlıq gətirib.

***Ə.RÜSTƏMOV, “Xalq qəzeti”***

# Ohanyan Qarabağ ermənilərinə “status” dilənir

**Bugünlərdə Ermənistanın sabiq müdafiə naziri, parlamentdəki müxalif “Ermənistan” farksiyasının rəhbəri Seyran Ohanyan Qarabağ erməniləri ilə bağlı yeni çağırış səsləndirib. Belə ki, Ohanyan parlamentdə İsveçrənin Ermənistandakı səfiri ilə keçirilən görüşdə Qarabağ ermənilərinin öz müqəddəratını təyin etməsinin vacibliyinə toxunub. O, qeyd edib ki, “Artsax xalqı” yalnız beynəlxalq təhlükəsizlik zəmanəti verildiyi təqdirdə Qarabağda özünü təhlükəsiz hiss edə bilər.**

### Hərbi uğursuzluğu siyasi müstəvidə çözmək cəhdi

Aydındır ki, “Ermənistan” fraksiyasının Qarabağda referendumun keçirilməsi və ermənilərin öz müqəddəratını bu yolla təyin etməsi ilə bağlı səsləndirdiyi təklif mövcud reallıqdan tamamilə uzaqdır.

Birincisi, ona görə ki, Azərbaycan 44 günlük Vətən müharibəsinə qədər Qarabağ bölgəsindəki ermənilərə ən yüksək səviyyədə özünüidarə hüququ verməyə hazır olduğunu bəyan etsə də, Ermənistan heç vaxt rəsmi Bakının bu təklifini təqdir etməyib, problemin sülh yolu ilə həlli istiqamətində heç bir addım atmayıb.

İrəvan bir milyondan çox azərbaycanlının hüquqlarını kobud şəkildə pozaraq dədə-baba yurdundan silah gücünə didərgin saldığı insanların öz doğma torpaqlarına qayıtmasına imkan verməyib. Azərbaycan Qarabağı silah gücünə - üç min şəhidin canı bahasına azad edib. Bu isə o deməkdir ki, Qarabağdakı bütün xalqların öz müqəddəratını təyinetmə hüququ 8 Noyabr Zəfəri ilə müəyyənləşir. Bu isə o deməkdir ki, Qarabağ Azərbaycandır və burada yaşamaq istəyən hər kəs birmənalı şəkildə Azərbaycan Respublikasının qanunlarına tabe olmalıdır.

“Ermənistan” fraksiyasının Qarabağda referendumun keçirilməsi təklifi 44 günlük müharibədəki məğlubiyyətin nəticələrini siyasi müstəvidə dəyişmək cəhdidir. Hansı ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 8 Noyabr zəfərindən sonra verdiyi açıqlamalarda separatçıların bütün arzularının, o cümlədən referendum arzusunun tarixin zibilliyinə atıldığını vurğulamış və bildirmişdir ki, bu məsələlərə hansısa formada geriyədönüş heç vaxt baş verməyəcək.



İkincisi, tarixi Azərbaycan torpağı olan Qarabağda hətta sovet dönəmində belə mütləq üstünlük azərbaycanlılara məxsus idi. Bu torpaqlarda məhdud sayda erməni yaşayırdı ki, onların da hamısı sonradan, süni şəkildə yerləşdirilən şəxslər idi. Ohanyanın indi bir ovuc erməniyə görə referendum keçirmək çağırışı xırda bir gölməçəyə görə böyük bir dəryanı çalxalanadırmaq təklifinə bənzəyir ki, bu da gülünc və mümkünsüzdür.

### Qatil xilaskar qiyafəsində...

Azərbaycan xalqına qarşı ağır hərbi cinayətlər törədən Ohanyanın, eyni zamanda, öz separatçı, militarist, faşist siyasəti ilə erməni toplumuna da ağır bəlalar gətirdiyi məlumdur. Bu gün də erməni sepratizminin əsas simalarından biri olan Ohanyan, Ermənistanda revanşizmin alovlanmasına cəhd göstərir, öz siyasi ambisiyalarını yeni müharibələr, yeni qurbanlar hesabına təmin etməyə çalışır. Maraqlıdır ki, öz xalqının qatili olan, onu Azərbaycanla toqquşmalara sürükləyən Ohanyan İsveçrənin Ermənistandakı səfiri ilə görüşündə özünü erməni toplumunun xilaskarı, onun aqibətindən narahat olan şəxs kimi təqdim edir.

Əslində, “Ermənistan” fraksiyasının məlum görüşdə səsləndirdiyi təkliflərin hamısı Ermənistanı yenidən Azərbaycanla üz-üzə qoymağa xidmət edir. Çünki Ohanyan yaxşı bilir ki, onun səsləndirdiyi təkliflərin qəbulu Azərbaycan üçün mümkünsüzdür və rəsmi Bakı bu məsələlərdə heç bir güzəştə getməyəcək. Məhz bu səbəbdən də sözügedən təkliflərin icrasında təkid edən Ohanyan, Azərbaycanla Ermənistan arasında yeni bir gərginlik yaratmağa çalışır. Məqsəd növbəti qarşıdurma fonunda siyasi dividend əldə etmək, öz rəqiblərinə qarşı mübarizədə daha ciddi üstünlüyə nail olmaq, hakimiyyət piramidasının zirvəsində təmsil olunmaqdır. Ancaq Ohanyanın nə arzulamasından asılı olmayaraq, reallıq dəyişməz olaraq qalır: Ermənilər üçün Qarabağda yaşamağın yeganə yolu Azərbaycan Bayrağına ehtiram göstərmək və onun qanunlarına tabe olmaqdır! Bunun fövqündə heç bir istisna yoxdur və heç vaxt da olmayacaq!

***Seymur ƏLİYEV***

# Özəl bölmə iqtisadiyyatın aparıcı qüvvəsidir



**“Azərbaycan–2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”ə əsaslanan “2022–2026-cı illərdə social-iqtisadi inkişaf Strategiyası”nda nəzərdə tutulan layihələrin reallaşması ilə qarşıdakı 3 ildə ölkə iqtisadiyyatında mühüm uğurlar əldə ediləcəyi, iqtisadi artımın tamamilə yeni keyfiyyət amilləri bazasında formalaşacağı, xüsusilə məşğulluğun dayanıqlığının daha da güclənəcəyi proqnozlaşdırılır.**

Ekspertlər həmin müddətdə özəl sektorun, o cümlədən mikro, kiçik və orta sahibkarlığın inkişafının yeni və daha səmərəli stimullar hesabına sürətlənəcəyini, özəl və xarici investorların respublika iqtisadiyyatında fəallığının artacağını, qeyri-xammal ixracının genişlənəcəyini bildirirlər. Qeyri-neft-qaz sektoruna, xüsusilə ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsini reallaşdıran, ixrac potensialının artırılmasına, kənd yerlərində rifahın yüksəlməsinə töhfə verən rəqabətqabiliyyətli aqrar istehsal və emalı sənayesinə dövlət dəstəyi və investisiyalar cəlb olunacağı, innovasiyalar, habelə dövlət–özəl tərəfdaşlığı ilə bu sahədə resurs və xidmət təminatının möhkəmlənəcəyinə də əminlik ifadə olunur.

Qeyd edək ki, son illərdə aparılan məqsədyönlü siyasət nəticəsində qeyri-neft sektorunda özəl bölmənin payı əhəmiyyətli dərəcədə artıb. Özəl sektorda inkişafın əsas aparıcı qüvvəsi qeyri–neft–qaz özəl investisiyaları olub. İqtisadiyyatda kiçik və orta biznesin dominantlığı xeyli yüksəlib. Xüsusilə dövlət investisiyaları hesabına yaradılan müasir iqtisadi infrastruktur kiçik və orta sahibkarlığın inkişafını dəstəkləyib.

Dövlətimizin başçısının həyata keçirdiyi uğurlu siyasətin nəticəsində 2022-ci ildə iqtisadi artım 4,6 faiz təşkil edib, xüsusilə qeyri-neft-qaz sektoru 9,1 faiz artıb. Bu dövrdə qeyri-neft-qaz sektoruna qoyulan vəsaitin həcminin 14 faiz artması, əsas kapitala yatırılan investisiyaların 70 faizinin bu sahəyə yönəldilməsi respublikada sahibkarlığın inkişafının real göstəricisidir.

**Özəl sektorun iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilməsi, sahibkarlığın ümumi daxili məhsulda payının 81 faizə, məşğulluqda payının isə 77 faizə çatması da gerçəkləşdirilən islahatların məntiqi nəticəsidir.**

Onu da qeyd edək ki, Azərbaycanda fəaliyyət göstərən biznes subyektlərinin 99,7 faizini kiçik və orta biznes (KOB) subyektləri təşkil edir. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi özünün hədəf seqmentləri olan startap, mikro, kiçik və orta sahibkarlıq üzrə biznesin yaradılmasından başlayaraq fəaliyyətinin bütün mərhələlərində müxtəlif vasitələrlə onlara dəstək göstərməklə dövlət qurumları ilə KOB subyektləri arasında körpü rolunu oynayır.

KOB subyektlərinin yeni bölgüsü meyarlarının tətbiq edildiyi, eləcə də Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətə başladığı 2018-ci ildən ötən 4 il ərzində kiçik və orta biznes subyektlərinin sayı 45 faiz artaraq 356 minə yaxınlaşıb. Bu dövr ərzində həmin qurumların qeyri-neft ÜDM-də payı 23,5 faizdən 26,6 faizə, qeyri-neft ixracında payı isə 2019-cu ildəki 23,3 faizdən 59,8 faizə yüksəlib.

İqtisadiyyat Nazirliyinin məlumatına əsasən, Vətən müharibəsində tarixi zəfərimizlə işğal altındakı ərazilərimiz düşməndən azad edildikdən sonra özəl sektorda Qarabağ və Şərqi Zəngəzurda abadlıq-quruculuq işlərinə böyük maraq yaranıb. Buna görə də indiyədək adıçəkilən nazirliyə özəl sektor nümayəndələri tərəfindən bərpa prosesində iştirak məqsədilə 1400-dən çox müraciət daxil olub. Sənaye, kənd təsərrüfatı, ticarət və xidmətlər sahəsini əhatə edən 73 investisiya layihəsi üzrə işlərə artıq başlanılıb.

İşğaldan azad edilmiş ərazilərin bərpası və ölkənin yeni inkişaf strategiyası böyük həcmli maliyyə vəsaitləri tələb edir. Ona görə də təbiidir ki, iqtisadi quruculuq üçün investisiyaların cəlb edilməsi getdikcə daha da aktuallaşır. Dövlət üzərinə düşən hər bir şeyi edir. Belə ki, 2023-cü ildən başlayaraq bölgədə sahibkarlıq fəaliyyətinin cəlbediciliyini reallaşdırmaq məqsədilə düşməndən təmizlənən ərazilərdə rezidentlər 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən azad edilir, onların sosial sığorta ödənişləri dövlət büdcəsi hesabına subsidiyalaşdırılır.

Bütün bunlarla bərabər, özəl təşəbbüslərin stimullaşdırılması məqsədilə həmin torpaqlarda istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlar üçün xammal və materialların idxalı ilə bağlı gömrük-vergi güzəştləri müəyyənləşdirilib, idxal 10 il müddətində ƏDV-dən azad edilib, digər zəruri addımlar atılıb.

*Vaqif BAYRAMOV,*
*“Xalq qəzeti”*

### *Ekspert rəyi*



**Mirağa ƏHMƏDOV, iqtisadçı-ekspert**

Sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin səmərəliliyi, ünvanlılığı və şəffaflığı getdikcə gücləndirilir. Uğurlu nəticələrə malik ölkələrin təcrübələri əsasında biznes startaplarının və inkubatorlarının, ixracyönümlü istehsal və xidmətlər üzrə biznes layihələrinin dəstəklənməsi mexanizmləri davamlı olaraq təkmilləşdirilir.

Bütün bunlarla yanaşı, iqtisadiyyatda dövlətin bilavasitə iştirakı optimallaşdırılır, strateji sahələr istisna olmaqla dövlət mülkiyyətindəki aktivlər mərhələli şəkildə özəlləşdirilir, nəticədə dövlət resurslarına olan tələbat və risklər azalır. Həmçinin özəlləşdirilməsi müəyyən müddət məqsədəuyğun hesab olunmayan təsərrüfat subyektlərinin kommersiyalaşdırılması və ya idarəetməyə verilməsi yolu ilə səmərəlilik göstəricilərinin daha da yaxşılaşmasına nail olunur.

Bu məqamda bir məsələni də qeyd etmək istərdim. Hökumət tərəfindən sahibkarlığın daha da inkişaf etdirilməsi məqsədilə artıq yeni rəqəmsallaşma layihəsi reallaşdırılıb. Belə ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan “AzInTelecom” MMC tərəfindən yaradılan SİMA – bulud əsaslı yeni nəsil rəqəmsal imzanın fərdi sahibkarlar üçün nəzərdə tutulan həlli hazırlanaraq istifadəyə verilib.

Artıq fiziki şəxs kimi VÖEN əsasında fəaliyyət göstərən sahibkarlar da SİMA rəqəmsal imzanın təqdim etdiyi innovativ üstünlüklərdən yararlanmaqla xidmət mərkəzlərinə getmək və növbələrdə vaxt itirmək kimi çətinliklərdən azad olacaqlar. Bununla da, SİMA mobil tətbiqində qeydiyyatdan keçib rəqəmsal imza əldə edən hər bir iş adamı daha sonra VÖEN-i daxil etməklə 3 illik ödənişsiz fərdi sahibkar imza sertifikatı əldə edəcək.

Yeri gəlmişkən, SİMA yeni nəsil rəqəmsal imza sahibkarlara limitsiz sənəd imzalama, avtorizasiya və imzalanmış sənədlərin həqiqiliyinin yoxlanılması imkanı verir. Eyni zamanda, fərdi sahibkar banklar vasitəsilə kredit müraciəti, kart hesabının açılması və digər əməliyyatları həyata keçirərkən, sığorta şirkətlərinin istənilən xidmətindən yararlanarkən sənədləri bu xidmət vasitəsi ilə rahat və çevik şəkildə imzalaya bilir.




# “Zərifə Əliyeva” gəmi-bərəsinin 1 yaşı tamam olur

## *Xəzər nəhəngi 163 dəfə səfərə çıxıb*

**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) sifarişi ilə Bakı Gəmiqayırma Zavodunda inşa olunan Ro-Pax tipli “Zərifə Əliyeva” gəmi-bərəsinin istismara verilməsindən bir il ötür.**

ASCO-dan verilən məlumata görə, Prezident İlham Əliyevin iştirakı ilə 2022-ci il aprelin 28-də istismara verilən gəmi-bərə indiyədək 163 dəfə səfərə çıxıb. Həmin səfərlər çərçivəsində 148 vaqon, 1061 ədəd minik avtomobili, 5595 ədəd yük avtomobili/TIR və 5616 nəfər sərnişin daşınıb.

“Zərifə Əliyeva” gəmi-bərəsi ötən müddətdə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşıma zəncirinin mühüm həlqəsi olan ASCO-nun digər bərələri ilə birgə yükdaşımalara, eləcə də əlverişli coğrafi mövqeyə malik ölkəmizin tranzit potensialının reallaşdırılmasına mühüm töhfə verir. Gəmi ilə səfərlər Aktau-Ələt, Ələt-Aktau, Türkmənbaşı-Ələt, Ələt-Türkmənbaşı, Kurık-Ələt, Ələt-Kurık istiqamətləri üzrə həyata keçirilib.

Xatırladaq ki, 30 nəfərlik daimi heyətdən ibarət olan bu unikal bərənin uzunluğu 154,50, eni 17,7, bortunun hündürlüyü isə 7,5 metrdir. Gəmi 100 nəfər sərnişin, 56 sistern tipli vaqon və ya 50 yük avtomobili/TIR daşımaq imkanına malikdir.

ASCO-nun Dəniz Nəqliyyatı Donanmasına məxsus bu gəmi-bərənin “Zərifə Əliyeva” adlandırılması Azərbaycan dənizçilərinin görkəmli alim və həkim, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, akademik Zərifə Əliyevanın xatirəsinə olan sonsuz ehtiramının ifadəsidir.

*“Xalq qəzeti”*

# Kiçik və orta biznes beynəlxalq sərgiyə hazırlaşır




**May ayının 17-19-da Bakı Ekspo Mərkəzində 16-cı Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı (“Caspian Agro”) və 28-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi (“İnterFood Azerbaijan”) sərgiləri keçiriləcək. Sərgilərdə kiçik və orta biznes subyektlərinin məhsullarının tanıdılmasına dəstək məqsədilə xüsusi stendlər qurulacaq.**

İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən verilən məlumata görə, sərgilərdə bitkiçilik, baytarlıq, heyvandarlıq, quşçuluq və balıqçılıq məhsulları, suvarma avadanlıqları, qənnadı, ət, meyvə-tərəvəz, süd məhsulları, şirələr, çay, tütün və digər qida məhsulları və müvafiq sahədə xidmətlər təqdim ediləcək.

Məlumatda, həmçinin qeyd olunur ki, əvvəlki illərdə olduğu kimi, bu il də mikro, kiçik və orta sahibkarlıq subyektlərinin müvafiq sərgilərdə iştirakına dəstək göstəriləcək.

*“Xalq qəzeti”*

# Türkiyə yeni qaz ölkəsinə çevrilir

**Türkiyə Cümhuriyyəti ötən həftə özünün enerji təhlükəsizliyinin təminatında mühüm addım atdı. “Mavi yanacağ”a olan tələbatını idxal qazı hesabına həyata keçirən qardaş ölkə Qara dənizdə hasilata başlamaqla, həm də adını Avropa qaz istehsalçılarının sırasına yazmağa müvəffəq oldu.**




Məlum olduğu kimi, Türkiyənin illik qaz istehlakı təqribən 50 milyard kubmetr təşkil edir. Hazırda qardaş ölkə təbii qaza olan tələbatının yalnız 1 faizini daxili imkanlar hesabına ödəyir. Təbii qazın 99 faizi isə Azərbaycan, İran və Rusiyadan alınır. Bu sahədə idxaldan asılılığı azaltmağı hədəfləyən Türkiyə Qara dəniz qazına böyük ümid bəsləyir. Elə ekspertlər də “Sakarya” yatağının açılmasını daxili bazarın tələbatının əhəmiyyətli dərəcədə ödənməsinə mühüm töhfə, Türkiyə tarixinin isə ən böyük kəşfi kimi dəyərləndirirlər.

Xatırladaq ki, 2020-ci ilin avqustunda “Sakarya” qaz yatağındakı “Tuna-1” quyusunda “Fatih” qurğusu tərəfindən aparılan qazma işləri nəticəsində 320 milyard kubmetr təbii qaz kəşf edilmişdi. Həmin ilin oktyabrında “Dunay-1” quyusunda qazma işləri başa çatdıqdan sonra quyudakı ehtiyatın əvvəlcədən proqnozlaşdırıldığından (85 milyard kubmetr) qat-qat çox, 405 milyard kubmetr olması aşkar edilmişdi.

**Bütövlükdə isə, Türkiyədə indiyədək kəşf olunan qaz ehtiyatlarının ümumi həcmi 710 milyard kubmetr təşkil edir.**

Ekspertlər hesab edirlər ki, Qara dənizin təbii qazı gələcəkdə Türkiyənin Avrasiya məkanında bir enerji gücü olmasına imkan yarada bilər. Belə ki, qardaş ölkənin qaz istehsalçısına çevrilməsi ona enerji bazarında ciddi üstünlüklər qazandıracaq. Bu üstünlük, həm də Türkiyənin yeni enerji gücü olmasına imkan yarada bilər. Ekspertlərin fikrincə, Qara dənizdə yeni qaz yatağının istismarına başlanılması Türkiyənin, hələlik, bir enerji nəhənginə çevrilməsi üçün yetərli olmasa da, bu, uğurlu bir başlanğıc mərhələsi kimi diqqət çəkir. Qara dənizdə kəşf edilən qazın davamı olacağı təqdirdə isə, Türkiyə gələcəkdə özünü böyük bir enerji gücü kimi tanıda bilər.

May ayından etibarən Qara dəniz qazı abonentlərin istifadəsinə veriləcək. Bu barədə Türkiyənin enerji və təbii sərvətlər naziri Fatih Dönmez yerli mediaya müsahibəsində deyib. Nazirin sözlərinə görə, bu sahədə müəyyən prosedur qaydalar icra olunacaq və may ayından başlayaraq vətəndaşlar mətbəxlərində yerli qazdan istifadə edə biləcəklər. Təbii qazın istehsalının həm dövlətə, həm də vətəndaşlara xeyir verəcəyini vurğulayan nazir, həmçinin qeyd edib ki, Türkiyə yeni qaz yataqlarının kəşfi istiqamətində də işləri davam etdirəcək.

Yeri gəlmişkən, ötən ilin yayından etibarən Türkiyə Şərqi Aralıq dənizində təbii qaz yataqlarının kəşfiyyatını bərpa edib. Xatırladaq ki, qardaş ölkəyə məxsus 4-cü qazma gəmisi olan “Abdülhamid Han” “Yörüklər-1” quyusunda ilk qazma işlərinə başlayarkən Türkiyənin enerji və təbii sərvətlər naziri Fatih Dönmez “Twitter” hesabında belə bir paylaşım etmişdi: “Qara dənizin sevincini bu dəfə Aralıq dənizində yeni müjdələrlə yaşatmaq qərarı vermişik. Mühəndislərimizin alın təri və millətimizin duaları ilə gəmimizin qazma işləri uğurlu olsun”. Nazir onu da qeyd etmişdi ki, Türkiyənin Aralıq dənizindəki müstəsna iqtisadi zonasında hasil olunacaq qaz digər ölkələrlə birgə Avropaya da tədarük edilə bilər.

*Mirbağır YAQUBZADƏ,*
*“Xalq qəzeti”*

### *Ekspert rəyi*



**İlham ŞABAN, Neft Araşdırmaları Mərkəzinin rəhbəri**

Türkiyənin qaz hasilatçısı yoluna çıxması ötən həftənin əsas enerji hadisəsi idi. Fikrimcə, Qara dənizdə yandırılan atəşin alovu insanlara təkcə yerli təbii sərvətin istiliyini gətirmir, həm də o istilikdən yarana biləcək enerjini ortaya qoyur. Bu, bir növ, ötən əsrin sonlarını yadımıza saldı. “Azəri-Çıraq-Günəşli” neft layihəsi ölkəmizi büsbütün dəyişdi. Yeni əsrin ilk illərində isə “Şahdəniz” qazı ilə “mavi yanacaq” idxalçısından ixracatçıya çevrildik.

Qardaş Türkiyə Qara dənizdə qaz hasilatına başlaması ilə yeni bir sahədə dünya rekorduna imza atdı. Belə ki, “Sakarya” adlı yatağın açılmasından onun istismara verilməsinə cəmi 32 aya nail oldu. İndiyə qədər dünyada dəniz yataqlarının işlənməsində belə bir sürətli işlənmə qeydə alınmayıb. Sahildəki Filos terminalına qədər 170 kilometr aralıda və dənizin 2200 metrdən çox dərinliyindən təbii qazın hasilatı Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın dediyi kimi, “ölkənin enerji asılılığının azaldılmasında mühüm bir addımdır”.

Türkiyə əldə etdiyi bu tarixi nailiyyətə 10 min insanın əzmkarlığı sayəsində nail oldu. Qeyd edim ki, “Sakarya” strukturu üzrə kəşfiyyat işləri 2017-ci ildə başlanılmışdı. 2020-ci ilin avqustunda “Fatih” və “Kanuni” gəmilərindən aparılan kəşfiyyat qazma əməliyyatları nəticəsində qaz yatağı açıldı. Ötən il iyunun 13-də yataqdan sahilə doğru sualtı kəmərin tikintisinə başlanıldı və ilin sonunda tam istifadəyə verildi.

Bu ilin sentyabrına qədər yataqda 10 quyu işlənməyə cəlb ediləcək. Hər quyudan isə 1 milyon kubmetr qaz çıxarılması planlaşdırılır. Bütövlükdə isə 2026-cı ilədək bu yataqdan illik 3,5 milyard kubmetrdən artıq qazın əldə edilməsi gözlənilir. Daha sonra isə hasilat gündəlik olaraq 40 milyon kubmetrədək, yəni illik 15 milyard kubmetrədək artırılacaq. Bu isə Türkiyənin həmin il qaz istehlakının 30 faizə qədəri deməkdir.

Son illərin gedişatına baxdıqda Türkiyə qədər ikinci bir ölkənin özünün enerji təhlükəsizliyini artırmaq yolunda belə bir uğura nail olmasını söyləmək çətindir. Belə ki, Türkiyənin enerji resursları, faktiki olaraq, yoxdur, 99 faiz idxaldan asılı ölkədir. Özü də bu qardaş ölkə bütün növ enerjini idxal edir: xam neft, təbii və maye qaz, neft məhsulları və hətta elektriki də. Ona görə də müxtəlif zamanlarda Türkiyə hökumətinin qarşısında duran əsas məsələ enerji daşıyıcılarının axtarışı və xarici enerji mənbələrindən asılılığı azaltmaqdan ibarət olub. Amma onilliklər boyu aparılan kəşfiyyat işləri Türkiyənin quru ərazisinin enerjidaşıyıcılarından kasad olduğunu ortaya çıxardı. Buna görə ruhdan düşməyən Türkiyə hökuməti dənizdə axtarışlara başladı. Aralıq dənizində qazılan quyular nəticəsiz qaldığından qardaş ölkə üzünü Qara dənizə tutdu. Burada geoloji kəşfiyyat işlərinin mürəkkəb olmasını nəzərə alaraq dünyanın ən müasir qazma gəmilərinə sahib çıxdı. Və 2020-ci ilin yayında Türkiyənin dövlət şirkəti TPAO “Tuna-1” kəşfiyyat quyusu ilə ölkənin ilk dəniz qaz yatağını açmağa nail oldu. Bununla da, özünün enerji təhlükəsizliyinin təminatında ciddi uğura imza atan qardaş Türkiyə idxal qazından asılılığını əhəmiyyətli şəkildə azaltmaq imkanı qazandı.

# Qərbi azərbaycanlılar Çalxanqalaya necə gəlmişlər?



**Kəngərli rayonunun Çalxanqala kəndi diyarın tarixi yaşayış məskənlərindəndir. Dərələyəz silsiləsində, dağətəyi zonada yerləşən kəndin adı yaxınlıqdakı Çalxan dağının üzərindəki dördkünc formalı abidə-qaladan götürülüb. Kənddə məskunlaşmış sakinlərin də, demək olar ki, hamısı Dərələyəz mahalının Naxçıvanla həmsərhəd olan yaşayış məntəqələrindən bura pənah gətirənlərdir. Hazırda isə onların sayı 2163 nəfər təşkil edir.**

Bu məlumatları kənd bələdiyyəsinin sədri Şahzadə Vəliyev deyir. Dərələyəz mahalının Paşalı rayonundan olan Vəliyevlər ailəsi də 1988-ci ilin sonlarında Naxçıvana köçməyə məcbur olublar. Şahzadə Vəliyev bildirir ki, Paşalı rayonu 1931-ci ildə yaradılıb, 1956-cı ilə qədər Əzizbəyov rayonu adlandırılıb. 1991-ci ildən isə ermənilər adını dəyişdirərək Vayk rayonu qoyublar. Həmçinin rayonun Köçbəy, Leyliqaçan, Axta, Kotanlı, Herher, Səfolar, Bulaqlar, Gömür, Gabud, İtqıran, Zeytə və digər kəndləri olmaqla, ümumilikdə 34 kəndi 1989-cu ilə qədər tamamilə azərbaycanlıların yaşadıqları kəndlər olub. Həmsöhbətim qeyd edir ki, onlar Gabud kəndindən bura köçüblər. Mərhum general-leytenant Firudin Nəbiyev, şair Surxay Şahquliyev, yazıçı-jurnalist, kimya üzrə fəlsəfə doktoru Nazir Əhmədli məhz bu kəndin yetirmələridir.

Gabud da qədim kəndlərdən olub. Adı "qayalıqda keçən yol", "daşlıq" mənasındadır. Tarixçilər kəndin əsasının X əsrdə qoyulduğunu bildirirlər. Erməni mənbələrində kəndin adı "Gyabut", "Gyabud" formalarında verilir. O vaxt kənddə səkkizillik məktəb fəaliyyət göstərib. Kənd 1918-ci ildə də deportasiyaya məruz qalıb. Ermənistanda sovet hakimiyyəti qurulandan sonra əhali yenidən ora qayıdıb. Amma bu qayıdış da çox çəkməyib. Tam 70 ildən sonra – 1988-ci ildə burada yaşayan azərbaycanlılar yenidən kəndi tərk etməyə məcbur olublar. Statistikaya görə, həmin ilədək kənddə 500-ə yaxın sakin yaşayıb. Ancaq həm birinci, həm də ikinci deportasiya dövrlərində kənddən köçənlər Azərbaycanın bir çox bölgələrinə, o cümlədən Naxçıvana, Şəkiyə, Şamaxıya, Bakıya və digərlərinə pənah aparmalı olublar.

Kənddə görüşüb söhbətləşdiyimiz insanlardan biri də Əbülfəz Həşimovdur. Əbülfəz müəllim hazırda Çalxanqala kənd tam orta məktəbində fizika fənnini tədris edir. 62 yaşı var. Onlar da bura Dərələyəz mahalından – Yeqeqnadzor rayonunun Agkənd kəndindən köçüblər. Bu rayon da 1931-ci ildə yaradılıb, 1935-ci ilə qədər Keşişkənd, həmin tarixdən 1957-ci ilə qədər Mikoyan, ondan sonra isə Yeğeqnadzor rayonu adlandırılıb. Paşalı kimi Keşişkəndin əhalisi də ötən əsrin əvvəllərində daşnakların hücumuna məruz qalıb. Hətta 1918-ci ilin yazında bu hücumlardan yaxa qurtarmaq üçün dinc əhali Vedibasar özünümüdafiə dəstələrinin komandanı Abbasqulu bəy Şadlinskinin mühafizəsi ilə müvəqqəti olaraq oradan çıxarılıblar, sonradan həmin əhali yenidən öz yurdlarına qayıdıb.

Sovet dövründə isə buradakı Azərbaycan kəndlərini erməniləşdirmək üçün mənfur qonşularımız əllərindən gələni ediblər. Nəticədə 1920-ci ildə rayon ərazisində 66 azərbaycanlı kəndi olduğu halda, 1988-ci ildə bu rəqəm 7-yə endirilib: Ələyəz, Aysəsi, Qovuşuq, Qabaxlı, Gülüdüzü, Qaraqaya, Qoturvan. Ümumilkdə isə elə həmin il Qalasər, Əmağu, Sallı, Hors, Ağkənd, Civə, Aysəsi, Qovuşuq, Qabaxlı, Gülüdüzü, Qaraqaya, Qoturvan, Ələyəz kəndlərində yaşayan bütün azərbaycanlılar oradan çıxarılıb.

Əbülfəz müəllim deyir ki, onlar Ağkənddə yaşayırdılar. Digər azərbaycanlı kəndlərində olduğu kimi, bu kənddə də səkkizillik məktəb fəaliyyət göstərirdi. Əhali əsasən əkinçilik və heyvandarlıqla məşğul olurdu. Başqa bir fəaliyyət sahəsi yox idi. Bir məsələ də var idi ki, ermənilər heç vaxt azərbaycanlıların yuxarı bir vəzifəyə irəli çəkilməsinə imkan vermirdilər. Məsələn, öz kəndimizdə və digər qonşu kəndlərdə tanıdığımız çox sayda insanlar var idi ki, Bakıda, Moskvada, o zaman Leninqradda müxtəlif sahələrdə ali təhsil alıb qayıtsalar da, onlar ən yaxşı halda kənd məktəbində müəllim işləyə bilərdilər. Yəni bütün bunları ermənilər düşünülmüş bir siyasət olaraq həyata keçirirdilər. Məqsəd təbii ki, azərbaycanlıların indiki Ermənistan ərazisində yaşamaması idi.

Naxçıvana necə köçdüklərini dilə gətirən Əbülfəz Həşimov deyir ki, işdə naxçıvanlıların bizə çox köməyi dəydi. Köçümüzü gətirmək üçün buradan xeyli sayda yük maşınları da gəlmişdi. Ancaq bir neçə yataq dəsti və geyimlərimizi götürə bildik. Digər əşyalarımızı elə evimizlə birgə orada qoymağa məcbur olduq.

Şahzadə Vəliyev söhbətə müdaxilə edərək deyir ki, bizim yaşadığımız kəndlərin çoxu Naxçıvana yaxın olduğundan biz əvvəlki illərdə də bura bazara, alış-verişə, toya-düyünə gələrdik. Xüsusilə bir xəstəmiz olanda üz tutduğumuz yer yalnız Naxçıvan xəstəxanaları idi. Bunu həm də güvənc, etibar məqsədi ilə edirdik. Buna görə də burada tanıdığımız dost-tanışlar, qohumlar çox idi. Çox vaxt yaylaq yerlərində qoyun sürülərimizi yanaşı otarardıq. Naxçıvana köçəndə isə Kükü (Şahbuz rayonu) kəndinin camaatı bizə çox kömək etdi. Aramızdakı məsafə çox yaxın idi, cəmi 7-8 kilometr. İlk günlərdə kənd sakinlərinin bir çoxu evlərində bizim ailələrə qalmaq üçün yer də ayırmışdı. Elə Gabuddan köçənlərin bəziləri də sonradan Şahbuzun bir neçə kəndində məskunlaşmalı oldular.

Şahzadə Vəliyev onu da əlavə edir ki, hazırda Çalxanqalada Qərbi Azərbaycanın 20-yə yaxın kəndindən gələnlər var. Həmçinin bizim Dərələyəz mahalından köçənlərdən Şərurda, Şahbuzda, Babəkdə, Naxçıvan şəhərində yaşayanlar az deyil. Burada özümüzə yurd-yuva qursaq da, doğulub boya-başa çatdığın yerlər, uşaqlıq xatirələri insanı bir ömür boyu tərk etmir. Dövlətimiz burada bizim üçün hər cür şərait yaradıb. Daimi işığımız, qazımız, suyumuz var, kəndimizdə bütün lazımi infrastruktur layihələri həyata keçirilib, 2003-cü ildən 2009-cu ilədək kənddə 37 fərdi ev tikilərək sakinlərə verilib, yollarımız abadlaşdırılıb. Ancaq bununla yanaşı, yurd nisgili qəlbimizdə hələ də qalmaqdadır. İnanırıq ki, biz yenidən öz el-obamıza qayıdacağıq.

Bu fikirlərə Əbülfəz Həşimov da qoşulur. Deyir ki, Ağkənd onun uşaqlıq və gənclik xatirələrinin ömür yoluna yazılan kövrək səhifələridir. Bu səhifələr nə qədər oxunsa da bitən deyil. Böyük ümidlə inanırıq ki, o səhifələri yenidən vərəqləmək imkanımız olacaq.

Qərbi azərbaycanlılarla indiyədək fərqli mövzularda çox görüşüb söhbətləşmişəm. Mövzu nə olursa-olsun, söhbət həmişə də elənib-fırlanıb o doğma torpaqların üzərində dayanıb. Həmyerlilərini, yurd-yuva öz dədə-baba yurdlarına sevgilərini dilə gətirsələr də, ürəklərindəki nisgil hər zaman onları narahat edib – bir daha o yerləri görə bilməmək qorxusu. Amma şükürlər olsun ki, Vətən müharibəsində qazandığımız Qələbədən sonra Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun yaratdığı reallıqlar qəlbimizdə o torpaqlara qayıtmaq ümidini də xeyli artırıb: "Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır… Biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq". Prezidentin bu bəyanatı indi yüzminlərlə soydaşımızın illərlə arzuladıqlarının reallığa çevrilməsinə vəsilə olan ümid qığılcımlarıdır. Bu qığılcımların alovlanmasına isə az qalıb.

***Səbuhi HƏSƏNOV,***

**Naxçıvan**

# "Bu gün biz Göyçə gölünü binoklsuz görürük"

**Mənim Qərbi Azərbaycanda, konkret desək, Göyçə mahalı, Çəmbərək rayonunun Çaykənd kəndində doğulub-böyüdüyümü bilən dostlarım və iş yoldaşlarım, təxminən, on il qabaq demişdilər ki, Prezident bizim Göyçəyə də qayıdacağımızı dedi. Özü də əminliklə.**

Sonra öyrəndim ki, dövlət başçımız həmin fikirləri Nazirlər Kabinetinin 2013-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda deyibmiş. Həmin çıxış verilmiş qəzetlərdən birinini hələ də saxlayıram. Orada yazılırdı ki, azərbaycanlılar nəinki işğal edilmiş torpaqlarda, bütün tarixi torpaqlarında yaşamalıdırlar. Bu, bizim suveren hüququmuzdur. Soydaşlarımız nəinki Dağlıq Qarabağdan, tarixi torpağımız olan İrəvandan, Zəngəzurdan, Göyçədən də zorla çıxarılıbdır, deportasiya edilibdir, 1940-1950-ci illərdə, ondan sonra 1980-ci illərdə: "Bu, böyük ədalətsizlikdir. Biz o torpaqlara da qayıdacağıq, mütləq qayıdacağıq. Gənc nəsil o arzularla, o fikirlərlə yaşamalıdır. Vaxt gələcək biz orada da yaşayacağıq. Ümumiyyətlə, xalqımıza məxsus olan bütün tarixi torpaqlarımızda azərbaycanlılar yaşayacaqlar, yaşamalıdırlar. Bunu etmək üçün biz indidən öz siyasətimizi aparırıq".



Əlbəttə, yaşlı adamların ata-baba yurdlarına qayıtmaq, heç olmazsa, oraları görüb sonra dünyasını dəyişmək arzusu həmişə olub və indi də çox böyükdür. Ətrafımdakı yaşlı adamlardan bu arzunu hər gün eşidirəm. Mən isə etiraf edim ki, nə zamansa həmin torpaqlara qayıdacağımıza o qədər də inanmırdım. Üstəlik, vaxt ötdükcə olan-qalan ümidim də yavaş-yavaş itirdi. Ancaq cənab Prezidentin həm 2013-cü ildə verdiyi həmin proqnozdan, həm də ötən ilin son günlərində səsləndirdiyi qətiyyətdən sonra mən – nisbətən cavan göyçəli, bəlkə də, qocaman yerlilərimdən də çox həmin günü arzulayıram.

Cənab Prezident ötən il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olandan sonra Azərbaycanın həmin ərazilərində doğulub böyümüş bir qrup ziyalı ilə görüşündə də biz göyçəlilərin yurdu görməyə olan ümidini birə beş qat artırdı. Dövlət başçımız dedi ki, biz sentyabrda Azərbaycan – Ermənistan sərhədində məcburən hərbi əməliyyat keçirməli olduq. Bu hərbi əməliyyat nəticəsində bizim tarixi şəhərlərimiz bu gün artıq gözümüzün önündədir.

Həmin çıxışdakı bir cümlə məni ruhən, xəyalən Göyçəyə apardı: "Bu gün biz artıq Bala Göyçənin sahilindəyik. Bu gün biz Göyçə gölünü binoklsuz görürük. Birincisi, hesab edirəm ki, bu, ədalətlidir. İkincisi, sentyabr toqquşmaları bizi gələcəkdə böyük problemlərdən sığortalayacaq. Çünki Ermənistanda revanşist qüvvələr baş qaldırır, – istər iqtidarda, istər müxalifətdə, – faktiki olaraq bizim üçün fərqi yoxdur. Çünki Ermənistanda cəmiyyətin şüuru çox zəhərlənib".

Bəli, olduqca yerində deyilmiş fikirlərdir. Mən ermənilərin beynini zəhərləndiyini indiyədək çox görmüşdüm. Üstəlik, otuz illik işğal dövründə Azərbaycana aid bütün tarixi-mədəni abidələrin darmadağın edilməsi zamanı da həmin zəhərli təxəyyülün şahidi olduq. Onlar Azərbaycan əsgəri ilə üz-üzə döyüşlərdə uduzanda gecə vaxtı, yatmış şəhərlərimizi raket atəşinə tutanda da beyin xəstəliyindən əziyyət çəkdiklərini gizlədə bilməmişdilər. İndi isə ölkə rəhbərliyi ilə kilsə arasında barışmaz mübarizə gedir. Bu isə o deməkdir ki, xaricdən göndərilən zəhərin dozası çox olub və ona görə də katolikos dini rəhbərin funksiyasını unudaraq, xalqı da, dövləti də müharibəyə çağırır.

Hələ iki-üç il qabaq Rusiyada yaşayan bir erməni demişdi ki, bizim üç düşməniniz var: Azərbaycan, Türkiyə və katolikos. Ancaq onun dediyindən fərqli olaraq, həm biz, həm də Türkiyə Ermənistana qarşı heç bir düşmənçilik etmək istəmirik. Bunu hamı başa düşür. Xalqın beynini zəhərləyən qat katolikosdan başqa.

Hər halda, mən artıq Göyçəni yenə də görmək arzusu ilə yaşayıram və buna inanıram. Bu inamımı gücləndirən başqa bir fakt da yada salmaq istəyirəm. Belə ki, 44 günlük İkinci Qarabağ müharibəsi bitəndən sonra bəzi bədxahlarımız deyirdilər ki, ermənilər bundan sonra Azərbaycan ərazisindəki Rusiya sülhməramlılarının xidmətindən bəhrələnəcək, onların köməyi ilə istədiklərini edəcəklər. Sonra nə oldu?

Sonra müzəffər Ali Baş Komandanımız Rusiya sülhməramlılarının və bütün dünyanın gözü qarşısında Laçın –Xankəndi yolunda nəzarət-buraxılış məntəqəsinin qurulmasına nail oldu. Yəni heç kəsin inanmadıqlarını reallığa çevirdi. Mən tam səmimiyyətlə inanıram ki, bizim Göyçəyə qayıdacağımız günün reallığa çevrilməsi də uzaqda deyil.

***Anar ALLAHVERDİYEV,***
***Çəmbərək rayonunun Çaykənd kəndindən qaçqın, iqtisadçı***

# Vedili günlərin göynərtisi...

## *Bir "köçmə bileti"nin tarixçəsi*



**Bu yaxınlarda bir nəfərin əlində "Köçmə bileti" gördüm, maraqlandım. 8872 nömrəli həmin üzüqara biletin sahibi ilə yaxından tanış oldum. Qılınc Mamarza oğlu Mahmudovla həmsöhbət oldum. Bileti alıb vərəqlədim, içərisindəki yazını oxudum. Bilet Azərbaycan SSR Nazirlər Soveti Yanındakı Köçürmə İdarəsi tərəfindən 26 sentyabr 1951-ci ildə verilmişdir.**

Həmin sənədin tərtib olunmasında erməni millətçilərinin kələyi açıq hiss olunur. Bilet, güya, könüllü köçənlərə verilirmiş. Riyakarlıqla yazılıb: "Saxta köçmə bileti düzəltmək, yaxud bileti başqasına vermək qanunla cəzalandırılır". Guya, öz yurdundan köçmək üçün hətta saxta sənəd düzəltməyə hazır olanlar o qədər çox imiş ki, bunun qarşısını almaq üçün belə bir xəbərdarlıq da vacib olub (?). Buradan aydın olur ki, ermənilər fənd işlədərək azərbaycanlıları öz tarixi köklərindən qoparmağa nail ola biliblər.

**Qılınc Mahmudov o illəri xatırlayıb dərindən bir ah çəkdi. Elə bil, yarasının qaysağını qopartdılar. Gözlərini mənə zilləyib yanıqlı-yanıqlı dedi:**

***Dərdi məndə***
***Dərd nəfəs dərdi məndə.***
***Heç yanda axtarmayın,***
***Axtarın dərdi məndə.***

**Müsahibim sözünə davam etdi:**

– Aşıq Ələsgər demiş, "Təpəsində xəstə üçün qar olan, çeşməsində abi-həyat car olan" dağlarımız, gen dərələrimiz, allı-güllü yaylaqlarımız, suyu diş göynədən buz bulaqlarımız, zümrüd yamaclarımız, çiçəkli çəmənlərimiz, suyunda çimdiyimiz Goraban çayı, gəncliyimizi keçirdiyimiz, uşaqlığımızı itirdiyimiz, indi həsrətini çəkdiyim o yerlər ayrıdan yadıma düşdü.

***Bir də o yerlərə yolum düşsəydi.***
***Sərin çeşmələrdən öpəydim, Lələ.***
***Alma çeşyini şirin yemliyə,***
***Qatıb gözlərimə təpəydim, Lələ.***



Vətən həsrəti, yurd yanğısı, torpaq harayı içimi göynədir. Zaman-zaman sönməyəcək bu yanğım. Üz-üzə, göz-gözə dayanan "Lələ köçüb yurdu qalan" dağlarımızın əl-ətəyini gözləyən qar çiçəkləri məsum körpə kimi yollara boylana-boylana qalıblar indi.

Qılınc Mahmudovu onun həmdərdi kimi yaxşı anlayıram. Mənfur erməni millətçilərinin və onlara havadarlıq edən dövlətlərin illərlə apardıqları iblisanə siyasətin ağrı-acısını ürəyimizdə çəkmişik, nadan gərdişin sacında cız-bız kimi qovrulmuşuq. Dərdimiz içimizdə pas atıb, səsimiz boğulub, hayımızı eşidən olmayıb. Ata-babalarımızın dadına çata bilməmişik.

Etnik təmizləmə və azərbaycanlılarsız Ermənistan dövləti yaratmaq erməni daşnaklarının şirin arzuları olub həmişə. Onlar bu işə hələ X əsrdən başlayıblar. Ermənilər zaman-zaman azərbaycanlıların qoltuğuna qısılıb. "Özümə yer eləyim, gör sənə neylərəm" məkri ilə içərimizdə yerləşiblər. Sonra da açıq mübarizə başlayıblar.

**Müsahibim özünü belə tanıtdı:**

– Mən Vedidə doğulmuşam, şair! Dağını, dərəsini, yamacını, çölünü, çəmənini qarış-qarış gəzmişəm o yurdun. Rəhmətlik Fərman Kərimzadə ilə bir sinifdə oxumuşam. Vedi böyük rayondur. Tarix boyu müharibə meydanlarına çevrilib. XVII əsrdə Şah Abbasın Osmanlı sultanları ilə apardığı müharibələr vaxtı Aran boyu əhali köçürülüb. Xalqın yadında qalan ən dəhşətli köçürmə 1919-cu ildə olub. Bəs daşnak generalı ilə ikillik döyüşlərdən sonra Abbasqulu bəy Şadlinski cəbhəni yararaq eli sağ-salamat Cənubi Azərbaycana aparıb.

**Qılınc Mahmudov dedi ki,** Abbasqulu bəy camaatı tamam kənddən çıxarandan sonra Ağdağın sinəsində bir təpənin üstündə "obası köçüb yurdu qalan" doğma kəndə həsrətlə baxıb. Deyilənə görə, Abbasqulu bəy bu yanıqlı bayatını o zaman çağırıb:

***Vedinin yanı dağlar,***
***Ürəyi canı dağlar,***
***Burda bir el var idi,***
***Siz deyin hanı dağlar?***

Dərd ortağım sonra bildirdi ki, el qəhrəmanı 1921-ci ildə yenidən geriyə qayıtmalı olub camaatı:

– Həmin il Vedidə keçirilən iclasın protokolu Yerevan Dövlət Arxivində saxlanılır. İclasa sədr Ağamirzə Mahmudbəyov və katib Əlihüseyn Kələşov olublar. Kəndin ümumi yığıncağı bu yerlərin Azərbaycan torpağı olduğunu qeyd edərək Azərbaycan SSR ərazisinə daxil olmaq arzusunu bildiriblər. O vaxt protokol saxtalaşdırılıb. Əhalinin arzusu ilə hesablaşmayıblar. Sonralar əhalinin bir hissəsini zorla Qazaxıstana və Qırğızıstana sürgün ediblər. Müharibə başlayanda bu iş dayandırılmışdı. Müharibədən sonra 1947-ci ildə məktəbdə müəllimlərimizdən tez-tez eşidirdik: "Ermənistanda yaşayan azərbaycanlıları Azərbaycana köçürmək istəyirlər".

Xatirimdədir, 1951-ci il sentyabr ayında camaatı yığdılar, iclas elədilər və azərbaycanlıların Azərbaycana köçürülməsi ilə Sov.İKP MK və Nazirlər Sovetinin 23 dekabr 1947-ci il və 10 mart 1948-ci il tarixli qərarlarını oxudular. Köçürmə komissiyasının nümayəndələri çıxış edərək bildirdilər ki, bu iş "könüllü" olsa da əzəlaxır dövlətin qərarı ilə yerinə yetiriləcək. Beləliklə, 1951-ci ilin sentyabr ayından köç başlandı. Bizim kəndi Beyləqana köçürdülər. Şahsevənli kəndində bizi ayrı-ayrı ailələrə, evlərə paylaşdırdılar. O dövrdə heç oralarda da vəziyyət yaxşı deyildi. Kənd əhalisi çox kasıb dolanırdı. Atalar məsəli var: "Acda nə var ki, yalavaca da verə". Elə ailə vardı uşağına gündəlik çörək tapmırdı. Ölən öldü, qalan qaldı...

**Qılınc qardaş sonda bildirdi ki,** 1959-cu ildən Sumqayıtda yaşayır. 38 il boru yayma zavodunda çalışıb. Fəhlə, usta, baş usta, növbə rəisi, sahə rəisi və rəis müavini vəzifələrində işləyib. Xatirəsini isə belə tamamladı:

– Düzdür, sonralar Vediyə qayıdanlar oldular. Lakin onlar dərdlərinin üstünə dərd qoyub geri döndülər. Demə, erməni quldurları kəndləri, qəbirstanlıqları düzləyiblər. Bəli, əsrin əvvəlindən başlanan bu köç karvanı 1988-ci ilin dekabrın 8-də mənzil başına çatdı. Ermənilər azərbaycanlılarsız Ermənistan yarada bildilər. Millətin başına gələn bu faciəni isə başsız rəhbərlərimiz başa düşmədilər.

Nə yaxşı ki, ümummilli lider Heydər Əliyev bu tarixi faciəni dünya ictimaiyyətinə çatdırmaq üçün qeyrət və cəsarət göstərdi. Onun Prezident kimi 18 dekabr 1997-ci ildə "1948-53-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərmanı illərlə ürəyimizdə qalan, tərpətdikcə qövr eyləyən dərdlərimizi rəsmiləşdirməklə gizlədilmiş xəyanəti dünyaya bəyan etdi.

***Əvəz Mahmud LƏLƏDAĞ,***
***şair-publisist***

# Formula 1 həyəcanı davam edir

## Dünyanın ən sürətli şəhər trekində mübarizə gərginləşir




**Planetin ən güclü pilotlarının şəhər trekləri arasında sürətdə tayı-bərabəri olmayan Bakı trasında gərgin mübarizəsi başlayıb. Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsi – Azərbaycan Qran-Prisinə Formula 2 yarışı üzrə sərbəst yürüşlə start verilib.**





Yarışda 11 komanda birincilik uğrunda mübarizə aparıb. Hər komandanı iki pilot təmsil edib. 45 dəqiqə davam edən sərbəst yürüşdə “Preme Racing” komandasının pilotu Oliver Berman birinci olub. “Hitech”in üzvü İsak Hajar yarışı ikinci, “Campos Racing”dən Kuş Maini üçüncü yeri tutublar.

Yarış “Dams” komandasının üzvü Artur Lekler üçün uğursuz olub. 23 yaşlı sürücünün maşını ikinci döngənin çıxışında fırlanandan sonra dayanıb.

Sonra Formula 1 pilotlarının sərbəst yürüşü başlayıb. Hər biri iki pilotdan ibarət 10 komanda 6 kilometrlik Bakı şəhər halqasında mübarizə aparıb. Bir saat davam edən mübarizədə ən yaxşı nəticəni "Red Bull"dan Maks Ferstappen göstərib. "Ferrari"dən Şarl Lekler ikinci, Ferstappenin komanda yoldaşı Serxio Peres üçüncü yeri tutub.

Bu yarışda “Alpine” komandasının pilotu Pyer Qasli sonacan mübarizə apara bilməyib. Pilotun bolidi yanaraq alışdığı üçün yürüşü dayandırmaq məcburiyyətində qalıb. “Haas” komandasının pilotu Kevin Maqnussen də sərbəst yürüşdə mübarizəni erkən başa vurub. O, maşınında yanacaq sistemində təzyiqin artması nəticəsində yürüşə davam edə bilməyib.

“Red Bull” komandasının rəhbəri Kristian Horner sərbəst yürüşdən sonra Bakı trekində təəccübləndirəcək çox şeyin olduğunu deyib. Sessiyanın yaxşı keçdiyini qeyd edən komanda rəhbəri bildirib ki, prioritet bazar gün keçiriləcək yarışda maksimum xal toplamaqdır.

“Mövsüm yeni başladığı üçün xal ehtiyatını artırmaq vacibdir. Pilotlarımız bir-biri ilə yarışa bilərlər. Yetər ki, bunu təmiz mübarizə ilə etsinlər”, – deyə o əlavə edib.

Formula 2 yarışlarının sıralanma turu da gərgin mübarizə şəraitində keçib. Burada pilotlar qəzasız ötüşməyiblər. Belə ki, “PHM Racing”in sürücüsü Bred Benavidesin bolidi birinci döngədə təhlükəsizlik maneəsinə çırpılıb və yararsız hala düşüb. 30 dəqiqə davam edən yürüşdə “Preme Racing” komandasının pilotu Oliver Berman qalib olub. “Rodin Carlin” komandasının üzvü Enzo Fittipaldi yarışı ikinci, “ART Grand Prix”in pilotu Teo Purşer üçüncü pillədə başa vurublar.

Günün sonunda Formula 1 pilotları sıralanma turunda güclərini nümayiş etdirirblər. Niderlandlı sürücü sıralama turunda qəza törədib. Belə ki, “Alpha Tauri” komandasının pilotu Nik de Vrisun bolidi təhlükəsizlik səddinə çırpılıb və yararsız hala gəlib.

Yarışı “Ferrari”nin pilotu Şarl Lekler qalib kimi başa vurub. “Red Bull Racing”in üzvləri Maks Ferstappen və Serxio Peres ilk üçlüyü tamamlayıblar.

Beləliklə, Azərbaycan Qran-Prisinin start düzülüşü bəlli olub.

Bu gün Formula 1 üzrə sprint yarışlarının təsnifat və əsas, Formula 2 üzrə isə sprint yarışı keçiriləcək. Sonuncu gün – sabah isə Formula 1 Azərbaycan Qran-Prisi, həmçinin Formula 2 üzrə ikinci yürüş keçiriləcək.

Qeyd edək ki, Bakı treki 51 dövrədən ibarət olub, ümumilikdə 306,049 kilometr məsafəni əhatə edir. Paytaxtımızda Formula 1 yarışı Avropa Qran-prisi adı ilə ilk dəfə 2016-cı ildə keçirilib. Sonrakı altı turnir Azərbaycan Qran-Prisi adlanıb. İlk yarışda almaniyalı pilot Niko Rozberq qalib adına layiq görülüb. Sonrakı yarışlarda Daniel Rikkardo (Avstraliya), Lyuis Hamilton (Böyük Britaniya), Valtteri Bottas (Finlandiya), Serxio Peres (Meksika) və Maks Ferstappen (Niderland) birinci yeri tutublar.

Hazırda “Red Bull”un niderlandlı sürücüsü Maks Ferstappen 132 xalla liderlik edir. Onun komanda yoldaşı meksikalı Serxio Peres 116, “Aston Martin”in ispaniyalı pilotu Fernando Alonso 85 xalla sonrakı pillələrdə qərarlaşıblar.

“Red Bull” 123 xalla Konstruktorlar kubokunda birinci yerdədir. “Aston Martin” 65 xalla ikinci, “Mercedes” 56 xalla üçüncü yeri tuturlar.

***Leyla SABİRQIZI,***
***“Xalq qəzeti”***



# Azərbaycan Qran-Prisi yüksək səviyyədə hazırlanıb

**Dünən Formula 1 Azərbaycan Qran-Prisi start götürdü. Yarış öncəsi şəhərə çıxıb Bakı treki ilə bağlı əcnəbi azarkeşlərin fikirlərini öyrənməyə çalışdıq. Nizami küçəsində Formula 1 azarkeşi Filip Kimbureklə həmsöhbət olduq. Gənc qonaq qeyd etdi ki, ilk dəfədir Azərbaycana gəlir. Şəhərimizdən, buranın insanlarından və ona göstərilən qonaqpərvərlikdən məmnun qalıb.**





**Filip Kimburek yarışla bağlı dedi:** – “Bakıda tras əla vəziyyətdədir. Azadlıq meydanında yerləşən Pit zolağı mükəmməl şəkildə qurulub. Dünən yarış öncəsi Qran-Prinin ən maraqlı hissələrindən sayılan Pit zolağına gəzinti təşkil edilmişdi. İki saata yaxın davam edən gəzinti zamanı orada azarkeşlərin komandalar, onların qarajları ilə yaxından tanış olması üçün şərait yaradılmışdı. Mən də orada oldum. Həqiqətən Bakı yarışa heyrətamiz şəkildə hazırlaşıb. Düzünü deyim, çox xoş təəssüratlarla ayrıldım”.

Filip Kimburek “Hansı komandanın pilotuna azarkeşlik edirsiniz?” sualına cavabında bildirdi ki, “Red Bull Racing” və “Aston Martin” komandalarını dəstəkləyir. Pilotlardan isə Fernando Alonsoya daha çox azarkeşlik etdiyini dedi.

**Polşalı Formula 1 azarkeşi Lukaş Kuzman da Azərbaycanda ilk dəfə olduğunu bildirdi.** O etiraf etdi ki, əvvəl Azərbaycan haqqında geniş məlumatı olmayıb. Əslində, Formula 1 Azərbaycan Qran-Prisi Qafqazın ən gözəl şəhərini tanımaq üçün bir fürsət oldu. Bakıda hər şey yüksək səviyyədədir. Şəhərin müasir görkəmi ilə yanaşı, tarixi əraziləri buranı ziyarət edənlərdə Bakının qədim tarixi haqqında da fikir formalaşdırır. Biz Vroslav şəhərindənik. Növbəti dəfə Bakıya öz ailələrimizlə birgə gəlməyi düşünürük.

Formula 1 yarışları haqqında isə Lukaş Kuzman bunları dedi: “Onu deyə bilərəm ki, artıq yarışların 7-ci dəfə burada keçirilməsi Bakıya göstərilən yüksək etimadın göstəricisidir. Bundan başqa, burada yarışların təhlükəsiz şəkildə və daha rəngarəng keçirilməsi indiyədək Formula 1 azarkeşlərinin diqqətini cəlb edən məqamlardan biridir. İndiyədək Bakıda hər dəfə ayrı-ayrı pilotların qalib olması bunu sübuta yetirir”.

Lukaş Kuzman “Ferrari” şirkətinin pilotu Şarl Leklerə azarkeşlik etdiyini vurğuladı.

**Yarışı izləmək üçün Bakıya gələn qonaqlardan biri Marek Mazanek isə bildirdi ki, burada qonaq olmaq onun çox ürəyincədir.** Burada gözəl restoranlar, mehriban insanlar və ən əsası, qonaqlara gülərüz simasını göstərən insanlar var. Göstərilən isti münasibət onun üçün hər şeydən üstündür.



Marek Mazanek “Mercedes” komandasına azarkeşlik etdiyini söylədi. O, Bakı trekinin möhtəşəm olduğuna diqqət çəkərək dedi: “Mən Formula 1 yarışları haqqında xeyli məlumatım var. Spa, Ciddə və Las-Veqasdan sonra Bakı Formula 1-i dördüncü ən uzun trekdir. Bütün komandalara uğur diləyirəm. Ancaq daha çox “Mercedes”in qalib gəlməsini istəyirəm”.

***Elçin AĞAMİRZƏ,***
***Rizvan FİKRƏTOĞLU,***
***“Xalq qəzeti”***



# Yolların dolanbaclığı yarışı daha maraqlı edir

**Bakıda F-1 yarışları üçün nəzərdə tutulmuş yollar ziq-zaqlıdır. Bu ziq-zaqlıq çətinlik yaratmır, əksinə hədəfləri daha da prinsipial edir.**

**Bu fikirləri Filippin vətəndaşı Mariana Mancera bildirib.**

Turist qeyd edib ki, biz həm canlı, həm də ekranlardan yarışın maraqlı görüntülərini izləyə bilirik. Hər ikisi maraqlıdır. Yolların dolanbaclığı yarışı daha maraqlı edir.

“Mən artıq qonaq deyiləm, bir ildir ki, burada çalışıram. Hələ ki getmək fikrim yoxdur. İşlərimi qururam, həm də təhsil alıram. Bakı beynəlxalq idman yarışları, humanitar tədbirlər çox keçirilir”.

**Bu fikirləri isə pakistanlı Zain Muxtar deyib.**

O deyib ki, Bakıda neçə ildir ki, keçirilən F-1 yarışları bu dəfə daha maraqlı alınıb. Həm hazırlıq, həm təşkilatçılıq həm də rəqabət baxımından fərqli yarış izləyirik. Yarışların Bakıda keçirilməsi bizə xüsusi zövq verir. Çünki bizim üçün də əlçatandır.

“Bakını yalnız virtual görüntülərdən izləmişdim. Lakin şəhərinizi gözlərimlə gördükdən sonra çox bəyəndim. Formula 1 yarışlarının keçirildiyi ərəfədə Bakıda olmağım isə mənim üçün əsl sürpriz oldu”. **Bakıda qonaq olan pakistanlı Muhammed Hassan Solangi bizimlə söhbətində belə dedi.**

O qeyd etdi ki, şəhərinizin ümumi görünüşü çox maraqlıdır. Həm Şərq, həm də Qərb üslublu tikililər var. Yarışların şəhər mərkəzində keçirilməsinin əsas özəlliyi də budur ki, paytaxtınızın gözəl yerlərini yarışları TV izləyiciləri də görə bilirlər.

***Anar ƏLİ, “Xalq qəzeti”***





# Bakını uzaqdan sevmişdim...



**İngiltərəli Ceff Vilia Formula 1-ə tamaşa etmək üçün ailəsi ilə Bakıya gəlib.** Bakıda ilk dəfə olmasına baxmayaraq paytaxtımız, ölkəmizlə bağlı kifayət qədər məlumatı olduğunu bildirir: “Qafqazın ən gözəl və cəlbedici ölkələrindən biri olan Azərbaycan haqqında məlumatım var idi. Bakını uzaqdan sevmişdim. Paytaxtınıza qədəm basdıqdan sonra bu sevgi daha da artdı. Oğlum, yoldaşımla birgə Bakını gəzməkdən yorulmuruq. Havası gözəl, insanları saf və gülərüzdürlər. Bilirəm ki, ölkənizdə böyük tədbirlər yüksək səviyyədə keçirilir. Bakıda ötən illər keçirilmiş Formula 1 yarışlarını izləmişəm. Çox xoşum gəlib. Növbəti yarışları səbirsizliklə gözləyirəm. Pilotlardan Lyuis Hamiltona azərkeşlik edəcəyəm”.

**Sudanlı turist Rofaida Elzubair də ilk dəfədir Azərbaycana gəlib.** Formula 1 yarışlarına böyük marağı olduğunu deyir: “İlk dəfə Bəhreyndə Formula 1 yarışında olmuşam. Bakıda keçirilən “kral yarışları”nı həmişə televiziyadan izləmişəm. Budəfəki yarışları canlı izləyəcəyimdən məmnunam. Bakı şəhər halqası çox xoşuma gəlir. Xüsusən də, qədim qala divarlarının ətrafında hərəkət edən yarış maşınları daha gözəl görünür”.





Rofaida Elzubair yarışdan bir həftə əvvəl Bakıya gəlib. Onun burada ilk səyahət etdiyi yer isə Şəki və Yanardağ olub. Ölkəmizin çox gözəl olduğunu deyən sudanlı xanım onu da bildirdi ki, Azərbaycan mətbəxi çox zəngindir: “Saciçi, kabab və plovun dadı damağımda qalıb. Mütləq evdə hazırlayacağam”.

**Niderlandlı turist Ronald Rolink Bakıda gözəl ab-havanın hökm sürdüyünü bildirdi:** “Günəşli Bakını çox bəyəndim. Burada gözəl ab-hava var. İnsanlar çox qonaqpərvərdirlər. Hər an kömək əllərini uzatmağa hazırdırlar. Yeməklərinizin ləziz dadını xüsusilə qeyd etmək istəyirəm. Artıq dolma, dönər, toyuq salatı və bəzi şirniyyatlarınızın dadına baxmışam”.



Dostları ilə birgə Formula 1 yarışlarını izləməyə gəldiyini deyən turist Bakı şəhər trekinə böyük maraq göstərdiyini də qeyd etdi: “Şəhər trekləri arasında ən sürətli Bakı trasında Formula 1 yarışları böyük maraq doğurur. Düşünürəm, burada keçirilən avtomobil yarışları bizə unudulmaz anlar bəxş edəcək”.

***L.AZAD,***
***Fidan HÜQUQQIZI,***
***“Xalq qəzeti”***

# Türkiyə ÜDM ilə dünyada 18-ci yeri tutur

## Ölkə iqtisadiyyatı 20 ildə 3 dəfə artıb

**Türkiyədə uzun müddət nəzərə çarpan volatillik, məzənnə enişləri və inflyasiya kimi mənfi amillərə baxmayaraq, qardaş ölkə iqtisadiyyatı son 20 ildə real ifadədə 3 dəfə böyüyüb.**



2003-cü ildə 314 milyard dollar ümumi daxili məhsula (ÜDM) malik olan Türkiyə iqtisadiyyatı hazırda 900 milyard dollardan böyükdür. Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, bu il Türkiyədə ÜDM-in 1 trilyon 29 milyard dollara çatması gözlənilir. Bu isə cari ildə Türkiyənin trilyon dollarlıq iqtisadiyyata malik ölkələr qrupuna daxil olacağından xəbər verir.

Türkiyə "G-20" daxilində ÜDM-nin artım tempinə görə ilk beşliyə daxildir, eyni zamanda, güclü iqtisadiyyata malik ölkə olaraq ÜDM-nin səviyyəsinə görə dünyada 18-ci yeri tutur.

Yeri gəlmişkən, Türkiyənin son iki ildə ÜDM istehsalı sahəsində əldə etdiyi göstəricilərə də diqqət yetirmək istərdik. Belə ki, 2021-ci ildə ölkədə istehsal edilmiş ÜDM 2020-ci illə müqayisədə 11 faiz çox olub. Türkiyə mətbuatının məlumatına görə, təkcə ötən ilin son rübündə iqtisadiyyat illik müqayisədə 9,1 faiz artıb.

Türkiyədə 2021-ci ildə ən çox artım xidmət sektorunda 21,1 faizlə qeydə alınıb. Bu göstərici İKT sektorunda 20,3 faiz, sənayedə isə 16,6 faiz təşkil edib. Ötən il isə ölkədə adambaşına 85,7 min lirə və yaxud 9,5 min ABŞ dolları ÜDM formalaşıb, ÜDM istehsalı 5,6 faiz böyüyərək 905 milyard 501 milyon dollara çatıb, adam başına düşən ÜDM istehsalı 10 min 655 dollara bərabər olub.

Qeyd edək ki, ötən il Türkiyədə maliyyə və sığorta sektoru 21,8 faiz, xidmət sektoru 11,7 faiz, sənaye isə 3,3 faiz böyüyüb.

Dünyanın nəhəng kompaniyalarından biri olan "Pricewaterhouse Coopers"in apardığı tədqiqatların nəticələrinə görə, 2030-cu ilədək Türkiyə iqtisadiyyatı dünyada 12-ci yerə yüksələcək, ÜDM isə 2,996 trilyon ABŞ dollarına bərabər olacaq.

Hazırda qardaş ölkənin xarici ticarət potensialı 500 milyard dollara çatdırılıb. Müdafiə sənayesi üzrə Türkiyə öz tələbatını qarşılamaqdan başqa, İHA, SİHA, Akıncı, quru vasitələri, dəniz platformaları başda olmaqla, 170 ölkəyə müdafiə sənayesi məhsulları ixrac edən bir ölkə səviyyəsinə yüksəlib, sənaye və texnologiya istiqamətində qurulan 152 yeni mütəşəkkil sənaye zonası, 29 sənaye zonası və 94 texnoparkla ölkənin istehsal gücü artırılıb, yerli avtomobil TOGG-un istehsalına başlanıb.

Türkiyə Statistika Təşkilatının məlumatına görə, ötən il ixrac 2021-ci illə müqayisədə 12,9 faiz artaraq 254,2 milyard dollar, idxal isə 34 faiz artaraq 363,7 milyard dollar təşkil edib. Hesabat dövründə ixracatda birinci yeri Almaniya tutub. Bu ölkəyə ixrac 21,1 milyard dollar olub. Siyahıda Almaniyanın ardınca 16,9 milyard dollarla ABŞ, 13,8 milyard dollarla İraq, 13,1 milyard dollarla Böyük Britaniya və 12,4 milyard dollarla İtaliya gəlib. İlk 5 ölkəyə ixrac ümumi ixracın 30,4 faizini təşkil edib.

*V. BAYRAMOV, "Xalq qəzeti"*

# Ukraynaya kütləvi raket zərbələri endirilib

**Ukraynada Rusiyanın xüsusi hərbi əməliyyatı bütün şiddəti ilə davam edir. Ukrayna Daxili İşlər Nazirliyinin yaydığı məlumata görə, dünən səhər saatlarında Rusiya ordusu Çerkask vilayətinin Uman şəhərinə kütləvi raket zərbələri endirib. Çoxmərtəbəli yaşayış binasına düşən raket azı 23 nəfərin həlak olmasına, 17 nəfərin yaralanmasına səbəb olub. Gün ərzində dağıntılar altında qalanların çıxarılması üzrə axtarış-xilasetmə işləri davam etdirilib. Faciə ilə əlaqədar Umanda üç günlük matəm elan olunub.**

"Euronews" bildirib ki, Dnepr şəhəri də raket zərbəsinə məruz qalıb. Nəticədə, bir qadın və 3 yaşlı uşaq həlak olub. Vilayət administrasiyasından verilən məlumata görə, 3 nəfər yaralanıb.

Son məlumatlara əsasən, aprelin 28-də paytaxt Kiyevə də kütləvi raket zərbələri endirilib. Şəhər administrasiyası bəyan edib ki, Dnepr səmasında rəqibin 11 raketi məhv edilib: "Dəqiqləşdirilmiş məlumata görə, atəşlər strateji aviasiya təyyarələrindən endirilib. Şəhərin hava məkanında 11 qanadlı raket məhv edilib. Bundan əlavə, iki ədəd PUA da vurulub. Təyyarə qırıntılarının Obolonsk rayonuna düşməsi nəticəsində yerli elektrik şəbəkəsi və avtomobil yolu zərər çəkib".

Ukrayna Prezidenti Volodimir Zelenski özünün teleqram kanalında ölkə ərazisinə kütləvi hücumla bağlı kadrlar yerləşdirib və bəyan edib: "Aprelin 28-də səhər saatlarında Rusiya Ukrayna ərazisinə raket və PUA-larla hücum edib. Hədəf yenə də dinc əhali olub. Raket zərbələri nəticəsində 10 çoxmənzilli bina zədələnib. Binalardan birində bütöv bir dalan məhv edilib. Dağıntılar altında insanlar qalıb. Təəssüf ki, ölən və yaralananlar var, aralarında 10 yaşlı bir uşaq da olub".

Zelenski əlavə edib ki, Dneprin atəşə tutulması nəticəsində də bir uşaq həlak olub. O, həlak olanların ailələrinə başsağlığı verib.

Baxmut uğrunda döyüşlər də davam edib. Şərq qoşun qruplaşmasının spikeri Sergey Çerevatıy bildirib ki, uzun müddət davam etmiş döyüşlər nəticəsində şəhər faktiki olaraq yaşamaq üçün yararsız vəziyyətə düşüb. Hətta Baxmutu "ikinci Stalinqrad" adlandırırlar. Hələ ki, ukraynalı döyüşçülər şəhəri əldə saxlaya bilirlər. Amma "Vaqner" də şəhəri ələ keçirmək üçün inadla mübarizə aparır.

Ukraynanın müdafiə naziri Aleksey Reznikov isə dünən keçirdiyi mətbuat konfransında bəyan edib ki, ölkənin Silahlı Qüvvələrinin əks-hücuma hazırlığı finiş mərhələsindədir. Onun sözlərinə görə, Ukrayna artıq çoxlu müasir texnika, çoxlu sayda müxtəlif tipli zirehli maşın, məsələn, "Bredley", "Marder", "Stryker" alıb: "Bundan əlavə, İsveçdən CV-90 alınacaq. Hazırda qoşunlar komandanlığın hücum qərarını və hücuma imkan verəcək havanı gözləyir".

Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı Zaporojye vilayətinin işğal altında olan Melitopol şəhərində rus hərbçiləri arasında kütləvi zəhərlənmə baş verdiyi barədə məlumat yayıb. Məlumata görə, aprelin 24-də Melitopoldakı rus ordusunun bölmələrinin birində baş verən zəhərlənmə nəticəsində 20 RF hərbçisi ölüb.



Dünən, eyni zamanda, Ukraynaya yaxından dəstək verən Çexiya və Slovakiya prezidentləri Petr Pavel və Zuzana Çaputova Kiyevə gəliblər. Dövlət başçıları Ukrayna lideri Volodimir Zelenski, eləcə də hökumət rəsmiləri ilə görüşüb, danışıq aparıblar. Təhlükəsizlik məqsədilə səfər barədə əvvəlcədən məlumat verilməyib.

Rusiyanın müdafiə naziri Sergey Şoyqu isə bildirib ki, Şimali Atlantika alyansının üzvü olan bütün ölkələrin hərbi potensialı və imkanları Ukraynada xüsusi hərbi əməliyyatların başlanması ilə Rusiyanın əleyhinə cəlb edilib.

"Qərb Rusiya Federasiyası əleyhinə mübarizəyə əvvəlcədən hazırlaşdığını nümayiş etdirib. Dərhal Rusiyaya qarşı genişmiqyaslı sanksiyalar tətbiq edilib, Ukraynaya silahlar, kəşfiyyat məlumatları təşkil olunub, hərbi əməliyyat zonasına hərbi məsləhətçilər və muzdlular göndərilib", - deyə Şoyqu Nyu-Dehlidə Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin xarici işlər nazirlərinin iclasında bildirib.

Şoyqu onu da deyib ki, Ukrayna münaqişəsi Vaşinqton və müttəfiqlərinin digər ölkələri də Moskva və Pekin əleyhinə təxribatlara cəlb etdiyini təsdiqləyir.

*Paşa ƏMİRCANOV, "Xalq qəzeti"*

# Sudanda təyyarə atəşə tutulub

**Dünən Türkiyə vətəndaşlarını təxliyə etmək üçün Sudana uçan hərbi-nəqliyyat təyyarəsi eniş zamanı atəşə tutulub. Məlumatı Türkiyə Milli Müdafiə Nazirliyinə istinadən "Anadolu" agentliyi verib.**



Müdafiə Nazirliyinin məlumatında bildirilir: "Münaqişələrin davam etdiyi Sudanda qalan vətəndaşlarımızın təxliyəsi üçün Vadi-Seyidna hərbi bazasına gedən C-130 tipli təyyarəmizə yüngül silahlarla atəş açılıb. Təyyarəmiz xəsarətsiz eniş edib. Heyət üzvləri arasında xəsarət alan olmayıb".

"Al-Hadath" telekanalının yaydığı məlumata görə, Türkiyə təyyarəsinə Sudanın Çevik Reaksiya Qüvvələri (xüsusi təyinatlılar) atəş açıb və nəticədə heyət üzvlərindən biri yaralanıb. Çevik qüvvələr tərəfindən insidentlə bağlı şərh verilməyib.

Sudan Silahlı Qüvvələrinin Baş Qərargahı da Türkiyənin C-130 "Qerkules" təyyarəsinin Çevik Reaksiya Qüvvələri tərəfindən atəşə tutulduğunu təsdiqləyib. Bununla bağlı məlumatda deyilir: "Təxliyə üçün gəlmiş təyyarə aprelin 28-də Vadi-Seyidna aviabazasına enərkən atəşə tutulub. Nəticədə, təyyarənin yanacaq çəni zədələnib və heyət üzvlərindən bir nəfər yaralanıb".

Məlumata görə, təyyarə səhər tezdən 07-25-də eniş enib. Dəymiş ziyan təcili olaraq aradan qaldırılıb. Baş Qərargah "qiyamçıları" təxliyə vaxtı təxribatlardan çəkinməyə çağırıb.

*"Xalq qəzeti"*

**"Euronews" agentliyi yazır ki, Sloveniya Avstriyanın sərhəd nəzarəti ilə əlaqədar tutduğu mövqeyə görə cavab tədbirləri görməyə hazırlaşır. Avstriya Şengen məkanına daxil olan iki ölkə arasında sərhəd nəzarətinin müddətini artıq 17-ci dəfə uzadıb və bu addım Sloveniya tərəfindən etirazla qarşılanıb.**

Sloveniyanın Avstriyadakı səfiri Aleksander Qerzina Avstriya mətbuatına verdiyi açıqlamada bildirib ki, rəsmi Lyublyana vəziyyətlə əlaqədar bütün mümkün cavab tədbirlərini nəzərdən keçirir. Onların arasında Avstriya ilə sərhəd nəzarətini bərpa etmək də var. Sloveniya tərəfi qarşıdakı yay mövsümündə sərhədlərdə tıxacların yaranacağından narahatlıq keçirdiyinə görə, problemin yaya qədər həllinə çalışır.




# Sloveniya ilə Avstriya arasındakı sərhəddə gərginlik

Hətta Sloveniyanın yeni Prezidenti Nataşa Musarın bu həftə Vyanaya gerçəkləşən rəsmi səfərinin gündəliyində duran əsas məsələlərdən biri də məhz sərhəd nəzarəti olub. Dövlət başçısı sərhəd-keçid məntəqələrində nəzarəti sərhədboyu ərazilərdə nəzarətlə əvəzləməyi və bu yolla avtomobillərin maneəsiz hərəkətinin təmin olunmasını təklif edib.

Sloveniyanın səfiri bildirib ki, Avropa Məhkəməsi də Avstriyanın bu yanaşmasını qeyri-qanuni hesab edib və eləcə də sərhəd nəzarəti qanunsuz miqrasiyanın azalmasına təsir göstərmir.

Avstriyanın daxili işlər naziri Gerhard Karner qonşu ölkənin mövqeyi ilə tanış olduğunu, lakin miqrasiya ilə əlaqədar sərhəd nəzarətinin qüvvədə saxlanılacağını vurğulayıb.

Qeyd edək ki, Avstriya və Sloveniya arasında sərhəd nəzarəti 2015-ci ildən tətbiq olunur. Avstriya bu qərarı Qərbi Balkan marşrutu ilə baş tutan qanunsuz miqrasiya ilə əlaqələndirir. Ötən il cəmi 60 nəfərin, cari ildə 13 nəfərin qeyri-qanuni miqrasiyaya cəhdini nəzərə alaraq, Sloveniya tərəfi sərhəd nəzarətinin qeyri-effektiv olduğunu iddia edir.

*"Xalq qəzeti"*

# BMT: "Taliban"ın qadınlara qarşı qadağaları yolverilməzdir

**İki gün əvvəl BMT-nin Təhlükəsizlik Şurasında (TŞ) keçirilən iclasda Əfqanıstanda qadınların Birləşmiş Millətlər Təşkilatının bu ölkədəki qurumlarında çalışmasına qoyulan qadağanı pisləyən qətnamə qəbul edilib. Bu barədə "Amerikanın səsi" radiosu məlumat yayıb.**



Xəbərdə deyilir ki, TŞ-nin daimi və qeyri-daimi üzvləri "Taliban"ı qadın və qızların fundamental azadlıqlarını məhdudlaşdıran siyasət və əməlləri "təzliklə dayandırmağa" çağırıblar.

Qeyd etmək lazımdır ki, sənəd TŞ-nin hazırda qeyri-daimi üzvləri olan Birləşmiş Ərəb Əmirlikləri və Yaponiya tərəfindən hazırlanıb. Qətnamənin müzakirəsi zamanı Əfqanıstanda insan hüquqlarına və əsas azadlıqlara məhəl qoyulmaması ilə bağlı dərin narahatlıq ifadə olunub.

Sənəddə, həmçinin qeyd edilib ki, "Taliban"ın əfqan qadınlarının Əfqanıstanda BMT-də çalışmasını qadağan edən son qərarı təşkilatın bu ölkədəki əməliyyatlarına, o cümlədən həssas sosial təbəqələrə yardım və əsas xidmətlərin çatdırılmasına mənfi təsir edəcək.

Əfqanıstan rəsmiləri isə qadınların BMT-nin yerli ofislərində çalışmasının qadağan edilməsi qərarının "daxili məsələ" olduğunu bildiriblər. Xatırladaq ki, 2021-ci il avqustun 15-də Əfqanıstanda "Taliban"ın hakimiyyətə qayıdışı, ardınca beynəlxalq maliyyə yardımının kəsilməsi bu ölkəni ağır iqtisadi, humanitar problemlərlə üz-üzə qoyub.

Bir çox ekspertlər bildirirlər ki, götürdükləri öhdəliklərə baxmayaraq, "Taliban" hərəkatı ölkədə insan hüquqlarına davamlı hücumlar həyata keçirir. Belə ki, qadınlar və qızlar bir çox fundamental hüquqlarından, o cümlədən təhsil hüququndan məhrum ediliblər, onlar ictimai həyatdakı fəaliyyətlərindən uzaqlaşdırılıblar.

Yeri gəlmişkən, ABŞ-ın BMT-dəki nümayəndəsi Linda Tomas-Qrinfild sözügedən qətnamənin yekdilliklə qəbul edilməsindən sonra verdiyi açıqlamada Şuranın "Taliban"a açıq mesaj göndərdiyini və onların əfqan qadın və qızlarına qarşı məhdudiyyətləri pislədiyini bildirib.

Amerikalı siyasətçi sonda bu sözləri əlavə edib: "Əfqanıstan qadınları və qızları insan hüquqlarından və əsas azadlıqlardan məhrum edilərkən beynəlxalq ictimaiyyət kənarda qalmayacaq. Bu sərt qərarlar Əfqanıstanın sabitliyə, iqtisadi rifaha və gələcək inkişafa nail olmasına mane olur".

*"Xalq qəzeti"*

## Sosial xəbərlər

### Rumıniya DOST modelini öyrənir

Rumıniyanın Məşğulluq üzrə Milli Agentliyinin prezidenti Florin-Irinel Cotoşmanın rəhbərlik etdiyi nümayəndə heyəti ötən gün DOST Agentliyində olub. Agentliyin İdarə Heyətinin sədri Fərid Məmmədov DOST mərkəzlərinin fəaliyyəti barədə nümayəndə heyətinə məlumat verib.

Bildirib ki, DOST konsepsiyasının ölkəmizdə dövlət sosial xidmətlərinin "bir pəncərə"dən, operativ, vətəndaş məmnunluğu prinsipi əsasında göstərilməsinə şərait yaradıb. Bir milyon 500 mindən çox vətəndaş DOST xidmətlərindən yararlanıb və bu xidmətlərdən vətəndaş məmnunluğu səviyyəsi 98 faizdən yüksəkdir. Agentlik bir çox beynəlxalq mükafatlarla təltif edilib, DOST təcrübəsinin digər ölkələrdə tətbiqi beynəlxalq qurumlar tərəfindən təşviq olunub.

Nümayəndə heyəti üçün DOST konsepsiyası barədə təqdimat nümayiş etdirilib. Təqdimatda DOST mərkəzlərində vətəndaşlara sosial müdafiə və sosial təminat, tibbi-sosial ekspertiza və reabilitasiya, sosial sığorta, əmək və məşğulluq sahələri üzrə göstərilən xidmətlər barədə məlumat verilib.

Görüşdə qurumlar arasında əməkdaşlıq perspektivləri də müzakirə edilib, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb. F.I.Cotoşman DOST konsepsiyasının böyük marağa səbəb olduğunu və bu təcrübənin Rumıniyada da tətbiqi imkanlarının nəzərdən keçirildiyini qeyd edib.

### Əlillərə 20 min vasitə verilib

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin reabilitasiya mərkəzlərində bu ilin yanvar–mart aylarında əlilliyi olan 14 min 722 şəxsə xidmətlər göstərilib. 2023-ci ilin birinci rübündə agentlik tərəfindən əlilliyi olan 3 min 547 şəxsə isə 19 min 939 reabilitasiya vasitəsi verilib.

### E-xidmətlərə 1,2 milyon şəxs müraciət edib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət sahələri üzrə elektron xidmətlərə 2023-cü ilin birinci rübü ərzində 1,2 milyon müraciət qeydə alınıb. Qurumların informasiya bazaları ilə inteqrasiya prosesi təmin edilir və I rübdə nazirliyin mərkəzləşmiş informasiya sistemlərinə sorğu sayı 29,7 milyon olub.

Son 3 ayda e-sosial.az portalının aktiv istifadəçilərinin sayı artmaqda davam edərək 1 milyon 326 minə çatıb. Həmin dövrdə portaldan 2,5 milyon dəfə istifadə olunub.



### Müavinətlər artıb

Bu ilin birinci rübündə Dövlət Sosial Müdafiə Fondu tərəfindən 426 min nəfərə sosial müavinət, 368 min nəfərə Prezidentin aylıq təqaüdü ödənilib. Həmin dövrdə əhaliyə sosial müavinətlər üzrə ötən ilin müvafiq dövrünə nisbətən 24 faiz çox olmaqla 244 milyon manat, Prezident təqaüdləri üzrə 21 faiz çox olmaqla 159 milyon manat ödənilib.

Son 3 ayda 34 min, sosial ödənişlərin elektron təyinatına başlandığı 2019-cu ildən 463 min müavinət və təqaüd təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

### 110 min e-arayış verilib

2023-cü ilin yanvar–mart ayları ərzində 44,3 min pensiya, müavinət, təqaüd təyinatı elektron sistem üzərindən proaktiv qaydada aparılıb. Onlardan 10,3 mini pensiya, 34 mini müavinət və təqaüd təyinatı olub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2019-cu ilin əvvəlindən başlayaraq pensiyaların, sonralar müavinət və təqaüdlərin təyinatı elektronlaşdırılıb. Həmin e-təyinat sistemləri vətəndaşlara hüquqları yarandığı halda müraciət olunmadan və sənəd təqdim edilmədən qeyd olunan sosial ödənişlərin e-sistem üzərindən təyinatının aparılmasını təmin edir.

Son illərdə əmək, məşğulluq, sosial təminat, əlillik, reabilitasiya və s. sahələr üzrə elektronlaşma proqramı çərçivəsində 30 elektron arayış xidməti də yaradılıb. Bu ilin ilk rübündə həmin e-xidmətlər vasitəsilə vətəndaşlara 110 min e-arayış verilib.

*Zərifə BƏŞİRQIZI,*
*"Xalq qəzeti"*

# Türkiyədə Fikrət Əmirova tv proqram həsr olunub

**Dahi Üzeyir Hacıbəylinin layiqli davamçısı, Azərbaycanı dünyaya tanıdan, milli bəstəkarlıq məktəbinin ən layiqli nümayəndələrindən biri Fikrət Əmirovun xatirəsinə Türkiyənin "Ulusal" telekanalında "Azərbaycan rüzgarı" proqramında veriliş həsr olunub.**



"Azərbaycan rüzgarı"nın müəllifi və aparıcısı Səidə Ömər bildirib ki, hələ sağlığında ölməzlik qazanmış bəstəkar Fikrət Əmirovun əsərləri yarandığı gündən təkcə Azərbaycanda deyil, eyni zamanda dünyanın çox sayda ölkəsində böyük uğur və dinləyicilərin böyük rəğbətini qazanıb. Azərbaycan musiqi mədəniyyətinin inkişafında misilsiz yeri olan Fikrət Əmirovun yaradıcılığı geniş və çox şaxəlidir: "Fikrət Əmirovun 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti, Cənab İlham Əliyev tərəfindən Sərəncam da imzalanıb. Bütün bunlara istinadən biz də "Azərbaycan Rüzgarı"nın bu həftədəki mövzusunu unudulmaz sənətkarımız Fikrət Əmirova həsr etdik. Proqramda bəstəkarın operaları, simfonik muğamları və baletləri göstərilib. Verilişdə Azərbaycan Milli Konservatoriyasının məzunları musiqişünas və tarzən Behrad Bünyadi və musiqiçi Ruzbeh Talebi iştirak edib. Sənətçilər bəstəkarın "Kor Ərəbin mahnısı", "Mən səni araram", "Reyhan" və "Böyük Dayaq" filmindən "Pərişanın mahnısı"nı ifa edib".

Qeyd edək ki, "Azərbaycan Rüzgarı" proqramı həmyerlimiz, İstanbul Universitetinin doktorantı telejurnalist Səidə Ömər tərəfindən həftənin bazar günü Bakı vaxtı ilə saat 17:30-da Azərbaycan Diasporuna Dəstək Fondunun dəstəkləri ilə yayınlanır.

**M.SULTANOVA**
**Ankara**

## "Gəncə -Şərab-2" ASC-nin 2022-ci il dekabrın 31-nə maliyyə hesabatı

**manatla**

| Aktivlər | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Uzunmüddətli aktivlər | 7980044,84 | 7414032,09 |
| Qeyri-maddi aktivlər | 28297,00 | 31541,89 |
| Torpaq, tikili və avadanlıqlar | 7951747,84 | 7382490,20 |
| Uzunmüddətli debitor borcları | | |
| Sair uzun müddətli aktivlər | | |
| CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR | 7980044,84 | 7414032,09 |
| Qısamüddətli aktivlər | 18129080,47 | 15710507,22 |
| Ehtiyatlar | 15128712,63 | 12091834,81 |
| Qısamüddətli debitor borcları | 2730082,94 | 2444762,08 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 156031,23 | 1086004,01 |
| Sair qısamüddətli maliyyə aktivləri | | |
| Sair qısamüddətli aktivlər | 114253,67 | 87906,32 |
| CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR | 18129080,47 | 15710507,22 |
| CƏMİ AKTİVLƏR | 26109125,31 | 23124539,31 |
| KAPİTAL | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 10685340,00 | 10685340,00 |
| Kapital ehtiyatları | 1947171,07 | 2673936,88 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 6962208,02 | 4383226,07 |
| CƏMİ KAPİTAL | 19594719,09 | 17742502,95 |
| ÖHDƏLİKLƏR | | |
| Uzunmüddətli öhdəliklər | 0,00 | 0,00 |
| Təxirə salınmış vergi öhdəlikləri | | |
| Uzunmüddətli kreditor borcları | | |
| Sair uzunmüddətli öhdəliklər | | |
| CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR | 0,00 | 0,00 |
| Qısamüddətli öhdəliklər | 6514406,22 | 5382036,36 |
| Qısamüddətli bank kreditləri | 5112912,10 | 2332442,12 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 461765,09 | 760215,60 |
| Qısamüddətli kreditor borcları | 939729,03 | 2289378,64 |
| Sair qısamüddətli öhdəliklər | | |
| CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | 6514406,22 | 5382036,36 |
| CƏMİ ÖHDƏLİKLƏR | 6514406,22 | 5382036,36 |
| CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | 26109125,31 | 23124539,31 |

### Məcmu Gəlirlər Haqqında Hesabat

| | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 15199557,33 | 15386514,41 |
| Satışın maya dəyəri | 13292882,35 | 11219812,46 |
| Ümumi mənfəət | 1906674,98 | 4166701,95 |
| Sair əməliyyat gəlirləri | 173269,41 | 24748,00 |
| Kommersiya xərcləri | | |
| İnzibati xərclər | | |
| Sair əməliyyat xərcləri | -55379,55 | -50680,56 |
| Əməliyyat (mənfəəti-zərəri) | 2024564,84 | 4140769,39 |
| Kurs fəri+ | 1991547,63 | 184176,77 |
| Kurs fəri- | -792385,03 | -256948,05 |
| Fövqəladə gəlirlər | | |
| İxrac olunan mallara görə təşviq | | |
| Vergitutmadan əvvəl mənfəət (zərəri) | 3223727,44 | 4067998,11 |
| Mənfəət vergisi | 644745,49 | 813599,62 |
| Hesabat dövründə xalis mənfəət (zərəri) | 2578981,95 | 3254398,49 |
| Mənfəətdə iştirak payı: | | |
| Səhmdarların payı | | |
| Azlıqların payı | x | x |

### Kapitalda Dəyişikliklər Hesabatı

| | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| 2022-ci il yanvarın 1-nə qalıq | 10685340 | 2673936,88 | 4383226,07 | 17742502,95 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | |
| Elan edilmiş dividendlər | | | | |
| 2022-ci il yanvarın 1-nə qalıq | 10685340,00 | 2673936,88 | 4383226,07 | 17742502,95 |
| 2022-ci il üzrə xalis mənfəət-zərər | | 0,00 | **2578981,95** | **2578981,952** |
| Mənfəətdən istifadə | | | | 0,00 |
| Kapital ehtiyatından istifadə | | -726765,81 | | -726765,81 |
| Təsisçinin borcunun əvəzləşdirilməsi | | | | |
| Elan edilmiş dividendlər | | | | |
| 2022-ci il dekabrın 31-nə qalıq | 10685340 | 1947171,07 | 6962208,03 | 19594719,1 |

# "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin

## Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyəti

"Balakən rayonunun Mahamalar və digər yaşayış məntəqələrinin, Balakənçay və Katexçay çaylarının sel sularından mühafizəsi tədbirləri"nin satın alınması ilə əlaqədar

## AÇIQ TENDER ELAN EDİR

Satınalan təşkilatın adı- Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyəti

VÖEN - 1300300711

Kod - 805562

H/h - AZ 10 IBAZ 38070019449716100216

"Azərbaycan Beynəlxalq Bankı"nın Yasamal filialı

M/h - AZ03NABZ01350100000000002944

VÖEN - 9900001881

SWIFT: IBAZAZ2X (AZIPS-in üzvü)

Əlaqələndirici şəxs- Qulam Şamil oğlu Aslanov (A.A.S)

Satınalan təşkilatın ünvanı- Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti 69 a.

Əlaqələndirici şəxsin E-mail: tomiobm@mst.gov.az

Əlaqə nömrəsi- (012) 431 08 64.

Satınalma predmetinin adı - "Balakən rayonunun Mahamalar və digər yaşayış məntəqələri- nin, Balakənçay və Katexçay çaylarının sel sularından mühafizəsi tədbirləri ".

Ünvan- Balakən rayonu

İşlərin qısa təsviri - Balakən rayonunda uzunluğu 4394 metr, hündürlüyü 8 metr olan istinad divarının tikintisi.

İşlərin yerinə yetirilmə müddəti – 32 aydır.

Tender təkliflərinin qiymətləndirilməsi meyarları- tender təklifinin ödəniş şərti - 10 baldır.

-İddiaçı bağlanacaq satınalma müqaviləsinin yerinə yetirilməsi üçün avans ödənişi tələb etmədiyi halda bu meyar üzrə müəyyən olunmuş maksimal 10 bal alacaqdır.

İddiaçı tender təklifində 20 faizdən artıq avans ödənişi tələb edərsə, o zaman həmin iddiaçının tender təklifi kənarlaşdırılacaqdır. 20 faiz və daha az avans ödənişi tələb olunan tender təklifinin bu meyar üzrə alacağı bal aşağıdakı düstur əsasında hesablanacaqdır, (20–X)/20x10 X-tender təklifində iddiaçı tərəfindən tələb olunan avans ödənişinin müqavilə qiymətinə nisbətdə faizi.

Qiymət təklifi – 90 baldır.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi kadr və maliyyə imkanlarına malik olmaqla yanaşı,

• İddiaçının son 10 (on) tam təqvim ilində analoji işlər üzrə yerinə yetirdiyi müqavilələrin ümumi məbləği 7500,0 min manatdan az olmamalıdır.

• İddiaçı son 10 ildə ayrı-ayrılıqda, yaxud bir yerdə olmaqla ən azı 1 (bir) analoji iş kimi 4000 metr uzunluğunda və hündürlüyü 8 metrdən az olmamaq şərtilə beton bənd və ən azı 50 metr uzunluğunda fiksatorun tikintisi müqaviləsini yerinə yetirmiş olmalı və işlərin bitirilməsinə aid təsdiqedici sənədlərini (təhvil-təslim aktlarını və işbitirmə sənədlərini) təqdim etməlidir.

İştirak haqqı 5000 (beş min) manatdır.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tender təklifi azı 45 bank günü qüvvətə olmalıdır (tender təkliflərinin açıldığı gündən ən azı 30 bank günü qüvvədə olmalıdır). Tender təklifi Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

2. Tender təklifinin qiymətinin 1 faizi məbləğində tender təklifinin təminatı (bank zəmanəti, tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox qüvvədə olmalıdır (bank tərəfindən təqdim edilməlidir).

3. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış (vergi xidməti tərəfindən təqdim edilməli, qeydiyyat tarixi cari rüb ərzində olmalı, sənədin əsli və ya notarial qaydada təsdiqini təqdim etməsi zəruridir).

4. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (son maliyyə dövrünə olan məlumatı əks etdirməsi, sənədin əsli və ya notarial qaydada təsdiqini təqdim etməsi zəruridir).

5. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bank tərəfindən təqdim edilməli, qeydiyyat tarixi cari rüb ərzində olmalı , sənədin əsli və ya notarial qaydada təsdiqini təqdim etməsi zəruridir).

6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (kommersiya və hüquqi şəxslərin dövlət qeydiyyatı reyestrindən çıxarış iddiaçı tərəfindən təqdim edilməli, nizamnamənin, dövlət reyestrindən çıxarışın və şəhadətnamənin notarial qaydada təsdiq olunmuş surəti).

7. Rekvizitlər( iddiaçının və ya bankın imzası və möhürü ilə təsdiq edilməlidir).

8. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi (Asan xidmət tərəfindən təqdim edilməli və qeydiyyat tarixi cari rüb ərzində olmalıdır).

9. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması ,ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması(vergi xidməti tərəfindən təqdim edilməli və son rübü əhatə etməlidir).

10. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması (iddiaçı tərəfindən təqdim edilməlidir).

11. İddiaçının kiçik və orta sahibkarlıq subyektlərinin meyarlarına uyğun olması.

(Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən təqdim edilməlidir).

12. İddiaçının Azərbaycan Respublikası ərazisində tender predmeti üzrə fəaliyyət göstərməsi üçün müvafiq lisenziyası olmalıdır (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilməlidir).

13. Satınalma müqaviləsini bağlamaq səlahəyyətinin olması.

(imza səlahiyyəti olan şəxsin (əgər təsisçi direktor deyilsə) əmri, sənədin əsli və ya notarial qaydada təsdiqini təqdim etməsi zəruridir).

İddiaçılar tenderdə iştirak üçün yuxarıda 3-13-cü sıralarda göstərilən sənədləri 9 iyun 2023-cü il saat 17.00-a qədər (tender təkliflərinin açılışına 7 (yeddi) bank günü qalmış) qapalı zərfdə əsli və surəti olmaqla Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti 69a nömrəli ünvana təqdim etməlidirlər.

İddiaçılar tender təklifi və bank təminatını isə 19 iyun 2023-cü il saat 17.00 –a qədər (tender təkliflərinin açılışına 1 (bir) bank günü qalmış) ) qapalı zərfdə əsli və surəti olmaqla Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti 69a nömrəli ünvana təqdim etməlidirlər.

İddiaçıların təklifləri 20 iyun 2023-cü il saat 15.00-da açılacaqdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

## "Dəvəli" ASC səhmdarlarının nəzərinə!

18 iyun 2023-cü il saat 11.00 -da "Dəvəli" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər :**

**1.** "Dəvəli" ASC-nin 2022-ci maliyyə ili üzrə illik hesabatlarının, mühasibat balansının, mənfəət və zərər hesabatlarının müzakirəsi və təsdiqi.

**2.** İllik yekuna görə mənfəətin səhmdarlar arasında bölüşdürülməsi.

**3.** Cari məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə iştirakı vacibdir.

Əlaqə telefonu - (012) 430-83-52.

Ünvan - Bakı şəhəri, Yasamal rayonu, 2-ci Alatava, Dadaş Bünyadzadə küçəsi 212.

***İdarə heyəti***

## "Gəncə Mexanizasiya-5" ASC səhmdarlarının nəzərinə!

12 iyun 2023-cü il saat 10.00-da "Gəncə Mexanizasiya-5" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Səhmdar cəmiyyətin 2022-ci ilə aid fəaliyyətinin müzakirəsi .

**2.** Səhmdar cəmiyyətin gələcək fəaliyyət planlarının müzakirəsi.

Bütün səhmdarların iştirakı vacibdir.

Əlaqə telefonu- (050) 335-35-25, (050) 567-52-54.

Ünvan- Gəncə şəhəri, N. Nərimanov prospekti 38.

Rep tığı

# Paytaxtımız ağ-qara və rəngli fotolarda

**İnsanlara hər hansı informasiyanı daha dolğun çatdıran, onlarda emosional təsir yaradan və estetik aləmin daha da zənginləşməsinə xidmət edən sənətlərdən biri fotoqrafiyadır.**



"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin nəzdində fəaliyyət göstərən, bu sənəti yaşadanların əl işlərinin sərgiləndiyi yerlərdən biri də tarixi memarlıq üslubunda tikilmiş Bakı Fotoqrafiya Evidir. "Zəncirli bina" kimi tanınan və 1890-cı ildə tacir Məmmədhəsən Həsənov tərəfindən inşa olunan bina 1928-ci ildən İçərişəhərdə məşhur tacir kimi tanınan Məlikovlar qardaşlarına məxsus olub.

2018-ci ilin fevral ayından Bakı Fotoqrafiya Evi adlandırılan binanın birinci mərtəbəsində giriş zalı, ikinci mərtəbəsində isə sərgi zalları mövcuddur. Burada Bakının zəngin və unikal tarixi memarlığını əks etdirən fotolardan başqa, Azərbaycanın, eləcə də dünyanın bir çox yerlərinə məxsus fotolardan ibarət rəngarəng sərgilər təşkil olunur.

"İçərişəhər" Muzey Mərkəzinin mütəxəssisi, foto-kolleksioner Bəhruz Hüseynzadə on beş ildir ki, Azərbaycan tarixi ilə bağlı dərin araşdırma apararaq, burada XIX əsrin ikinci yarısına və XX əsrin əvvəllərinə aid yüzlərlə orijinal fotoşəkillə yanaşı, çap və rəqəmsal formada olan iyirmi minə yaxın şəkil kolleksiyası toplayıb. Onun saxladığı ağ-qara və rəngli fotoşəkillərdə İçərişəhərin Qala divarlarının görünüşü, həmçinin evlərin, məscidlərin cizgiləri özünəməxsus gözəlliyi ilə biz seyrçiləri tarixin qədim dövrlərinə aparır. B. Hüseynzadə deyir ki, burada dünyada və Azərbaycanda tanınmış fotoqrafçıların təxminən otuz minə yaxın əl işləri saxlanılır. Həmçinin fotoqrafiya sənətində öz dəst-xətti ilə seçilən Hüseyn Hüseynzadə, Yaşar Xəlilov, Yuri Rahil, Rafiq Nağıyev, Azərbaycan kinosunun banilərindən olan Aleksandr Mişon və digərlərinin çəkdiyi fotolar da sərgilənir.

İçərişəhərin tarixi-memarlıq abidələrini fərqli formada əks etdirən foto-arxiv yaratdığını deyən Bəhruz Hüseynzadə muzeydə yeni sərgilərin təşkil olunacağını dedi:

"Burada Bakıya və İçərişəhərə, eləcə də Azərbaycanın digər yerlərinə məxsus fotolardan ibarət sərgilər də təşkil olunacaq. Həmçinin sərgi ilə bağlı albomlar və kitablar da nəşr olunacaq".

*Fidan HÜQUQQIZI,*
*"Xalq qəzeti"*

# Türk atletlər Bakıda Formula 1 yarışlarını izləyiblər

*"Birlikdə böyük qələbələr qazanacağımıza inanırıq"*

**İrəvanda ağırlıqqaldırma üzrə Avropa çempionatında mükafat qazanan və qələbələrini Azərbaycana həsr edən türk idmançılar Bakıdadırlar. Qəhrəman idmançıların Azərbaycanın, həm də Türkiyənin əzəli düşməni olan Ermənistanda keçirilən qitə çempionatında böyük qələbə əldə edərək türk bayrağını yüksəklərə qaldırmaları ölkəmizdə böyük sevinclə qarşılanmışdı. Bu qələbəni Azərbaycana, xalqımıza həsr etmələri isə bizdə xüsusilə qürur hissi yaratmışdı.**



Azərbaycan Prezidenti İlham Əliyev bu hadisənin Türk dünyası tarixində əbədi qalacağını qeyd edib. Dövlətimizin başçısı vurğulayıb ki, hər birimiz - Türk dünyasının hər bir övladı, Cansu və Qəmzə kimi olmalıdır.

Türkiyəli ağırlıqqaldıranların səfər zamanı paytaxtda bir sıra görüşlərdə və tədbirlərdə iştirakları nəzərdə tutulub. Onlar Bakıda keçirilən Formula 1 Azərbaycan Qran-Prisini izləyiblər.

"Xalq qəzeti" olaraq qəhrəman idmançıların Avropa çempionatı kimi nüfuzlu bir yarışda əldə etdikləri uğur, eyni zamanda, paytaxt Bakı ilə bağlı təəssüratlarını öyrəndik.

Avropa çempionu Cansu Bektaş Azərbaycana birinci dəfə gəldiyini və ilk andan da özünü burada çox yaxşı hiss etdiyini bildirir: "Bizi hava limanında qarşıladılar, böyük diqqət gördük. Çox sağ olsunlar. Bura Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyevanın dəvəti ilə gəlmişik. Buna görə onlara xüsusi təşəkkürümü bildirirəm. Azərbaycanla biz qardaş ölkələrik. Siz olmayan yerdə biz varıq. İrəvandakı yarışdan öncə açılış mərasimində baş verən hadisə bizi üzdü. Həmin an idmançı Nazilə İsmayılova və məşqçi Emil Əliyevlə görüşüb onlara qızıl medal qazanacağıma söz verdim. Çox sevinirəm ki, sözümün üstündə durdum və qələbəmi Azərbaycana həsr etdim. Buna görə özümü xoşbəxt hiss edirəm. Bir daha Azərbaycan xalqına dəstəyinə görə təşəkkür edir, onları sevdiyimi bildirirəm".

İdmançı Formula 1 yarışını Bakıda izləməkdən məmnun olduğunu bildirdi: "Formula 1 çox mötəbər yarışdır, onu Bakıda izləmək çox xoş oldu".

Yarışda qızıl medal qazanmış Nuray Güngör Azərbaycana ayaq basdıqları andan böyük diqqət gördüklərini, çox yaxşı qarşılandıqlarını vurğuladı: "Özümüzü evimizdəki kimi hiss edirik. Dövlət başçısı İlham Əliyev və xanımı Mehriban Əliyevaya dəvətə görə təşəkkür edirəm. Çox sağ olsunlar. Ermənistanda uğurlar qazandıq və bunu tək Türkiyə yox, qardaş ölkə Azərbaycan üçün də etdiyimizə görə xoşbəxtəm".

Gümüş mükafatçı Qamze Altun da ilk dəfə qədəm basdığı ölkəmizi çox bəyəndiyini bildirdi: "Burada bizi özününkü kimi qəbul etdilər, ən yaxşı münasibəti göstərdilər. Buna görə hər kəsə təşəkkür edirəm. İrəvanda həm Azərbaycan, həm də Türkiyəni layiqincə təmsil etdik. Buna görə, həmçinin medalımı Azərbaycana həsr etdiyimə görə çox şadam. Bundan sonra da birlikdə böyük qələbələr qazanacağımıza inanırıq".

Qeyd edək ki, aprelin 14-də Ermənistanın paytaxtı İrəvan şəhərində ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində Azərbaycan Bayrağı rəsmi akkreditasiya olunmuş şəxs tərəfindən nümayişkaranə şəkildə yandırılıb. Bu hadisə ilə əlaqədar olaraq ağırlıqqaldırma millimiz yarışda iştirakından imtina edib və onların İrəvandan Azərbaycana qayıtması barədə qərar verilib.

Qardaş ölkənin təmsilçiləri yüksək ustalıq, əzmkarlıq və iradə nümayiş etdirərək dünya miqyasında Türkiyə bayrağını dalğalandırmış, İstiqlal Marşını səsləndirmişlər.

*L.AZAD,*
*"Xalq qəzeti"*

*Sağlamlıq guşəsi*

# Artıq çəkidən bezmisinizsə...



**Artıq çəkidən qurtulmağın bir çox yolu var. Bəziləri yüksək kalorili qidaların istifadəsini məhdudlaşdırır, digərləri fiziki aktivliyi artırır, başqaları isə arıqlamaq üçün həblərə əl atırlar. Arıqlamaq arzusunda olan insanlar tərəfindən istifadə edilən dərman bitkilərinin üstünlükləri var. Onlar maddələr mübadiləsini yaxşılaşdırır, mədə-bağırsaq traktının işini normallaşdırır, sinir sistemini sakitləşdirir, fiziki dözümlülüyü və fiziki fəaliyyəti artırır.**

Həkimlər aşağıdakı bitkilərə diqqət yetirməyi məsləhət görürlər:

**Çəmən otu:** – Müasir tibbdə bitkidən antioksidant və iltihab əleyhinə istifadə edilir. Maddələr mübadiləsini yaxşılaşdırır və arıqlamağa kömək edir. Liflə zəngin olan bitkinin toxumları bağırsaqlarda əmələ gələn lipidlərə və qlükozaya təsir edir.

**Qırmızı bibər:** – Piylənməyə qarşı profilaktik tədbir olaraq istifadə edilir. Müntəzəm olaraq ədviyyat kimi qəbulu arıqlamağa kömək edir. Çəmənotu kimi qırmızı acı bibər də toxluq hissi yaradır. Maddələr mübadiləsini sürətləndirir və termogenezi yaxşılaşdırır. Bədəndə yağ yandırma sürətini artırmağa kömək edir.

**Zəncəfil:** – Kökünün köməyi ilə arıqlamanın təsirini alimlər nadir kimyəvi maddələr olan gingerol və şoqalom ilə əlaqələndirirlər. Zəncəfil maddələr mübadiləsini sürətləndirir, iştahı azaldır və tez arıqlamağa kömək edir. Elmi təcrübələr göstərib ki, zəncəfilin içki şəklində qəbulu həm ümumi bədən çəkisini, həm də qarın yağını azaltmaq qabiliyyətinə malikdir.

**Yaşıl çay:** – Qədim zamanlarda ömrü uzadan bitki kimi qiymətləndirirdilər. Onun əsasında hazırlanan içkilər xərçəng, insult, infarkt və digər ciddi xəstəliklərin kompleks terapiyası və qarşısının alınmasında istifadə olunur. Yaşıl çay qanda "pis" xolesterinin səviyyəsini aşağı salır, yaddaşı stimullaşdırır, beyin fəaliyyətini yaxşılaşdırır, sümükləri bərkidir və qan damarlarını gücləndirir. Tərkibindəki antioksidant maddələr mübadiləsini yaxşılaşdırır və yağların yandırılmasına və arıqlamağa kömək edir.

**Çobanyastığı:** – Dəmləməsi sinir sistemini sakitləşdirir, soyuqdəyməni müalicə edir və bədəndən artıq mayenin çıxarılmasına səbəb olur. Həzm funksiyasını yaxşılaşdırır, maddələr mübadiləsini sürətləndirir, yağların daha sürətli yanmasına kömək edir.

*Z.HÜSEYNOVA,*
*"Xalq qəzeti"*




# "WhatsApp"dan yeni imkan

**"WhatsApp" proqramı, nəhayət, eyni zamanda birdən çox fərqli telefondan şəxsi hesaba giriş dəstəyini təqdim edib. Bu barədə Mark Zukerberq açıqlama verib.**

Bildirilib ki, indiyədək istifadəçilər şəxsi "WhatsApp" hesabından bir telefonda və bir neçə köməkçi masaüstü cihazda istifadə edə bilirdilər. Lakin artıq dörd telefondan eyni hesaba daxil olmaq mümkündür.

Yeni təqdimatla istifadəçilərin mesajları digər telefonlar da daxil olmaqla cihazlar arasında sinxronlaşdırılacaq. Beləliklə, istifadəçilər bir cihaz söndürülsə belə, digər cihazlardan tətbiqə daxil ola biləcəklər. "WhatsApp" bu funksiyanın yaxın həftələrdə bütün istifadəçilər üçün əlçatan olacağını bildirib.

M. Zukerberq bloq yazısında bildirib: "Artıq mobil telefonlarda "QR kod"u oxutmaq əvəzinə, "WhatsApp Web"də mobil nömrənizi daxil etməklə birdəfəlik kod əldə edəcəksiniz. Gələcəkdə bu funksiyanı daha çox qoşulmuş cihazlara təqdim etməyi düşünürük".

Qeyd edək ki, "WhatsApp" 2 milyarddan çox istifadəçisi olan mesajlaşma xidmətlərindən biridir. Bununla belə, söhbətlər və zənglər üçün tam şifrələmə mühafizəsi səbəbindən bu günə qədər birdən çox telefon dəstəyi yox idi.

Şirkət 2021-ci ildə seçilmiş beta istifadəçiləri ilə çox cihaz uyğunluğunu sınamağa başlayıb. Həmin vaxt açıqlama verən "Facebook" (sonradan "Meta" adı verildi) tam şifrələmə və cihazlar arasındakı mesajları sinxronlaşdırmaq üçün yeni texnologiya hazırladığını söyləyib.

*Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"*

# Gimnastımız dünya kubokunun finalına yüksəlib

**Misirin paytaxtı Qahirədə keçirilən dünya kubokunda Azərbaycanın idman gimnastı Nikita Simonov uğurlu çıxışını davam etdirir.**



27 yaşlı idmançı halqalar ilə hərəkətlərin icrasında yüksək nəticə göstərərək finala vəsiqə əldə edib. Final çıxışları aprelin 29-da olacaq.

*L.QURBANOVA,*
*"Xalq qəzeti"*

# Stolüstü tennisçilərimiz gümüş medal qazanıblar

**Azərbaycan stolüstü tennisçiləri daha bir beynəlxalq yarışda uğurla çıxış ediblər. Budəfəki nailiyyət Avropa Stolüstü Tennis İttifaqının "Europe youth series" turnirində iştirak edən U-13 milli komandamızdan gəlib.**




Xorvatiyanın Osiyek şəhərində keçirilən yarışın qrup mərhələsində Yunanıstan, Portuqaliya və Xorvatiya seçmələrinə qalib gələn komandamız dörddəbir finalda Sloveniya millisini 5-1, yarımfinalda isə ev sahibinin digər kollektivini 5-0 hesabı ilə üstələyərək həlledici mərhələyə adlayıb.

Komandamızın finaldakı rəqibi Çexiya seçməsi olub. Həlledici mərhələdə rəqib komandaya 1:5 hesabı ilə uduzaraq gümüş medalla kifayətləniblər.

Qeyd edək ki, Osiyek sınaqlarında məşqçilər Mixail Timofeyev və Elnur Hidayətzadənin rəhbərliyi ilə Yağmur Məmmədli, Xədicə Eylazova, Onur Quluzadə və Tunar Bağırov mübarizə aparıblar.

*Leyla QURBANOVA,*
*"Xalq qəzeti"*

## HAVA PROQNOZU

✓ **Aprelin 29-da**

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Cənub küləyi əsəcək. Gecə 11-15°, gündüz 22-27° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 756 mm civə sütunu, nisbi rütubət 65-75 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək, arabir güclənəcək. Gecə 8-13°, gündüz 20-25° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 4-9°, gündüz 12-17°, bəzi yerlərdə 19° isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** gün ərzində bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 4-9°, gündüz 12-17°, bəzi yerlərdə 20-23° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək, gündüz arabir güclənəcək. Gecə 10-15°, gündüz 22-27° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Mingəçevir, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gecə və axşam bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, arabir yağıntılı olacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 8-13°, gündüz 22-27°, dağlarda gecə 4-9°, gündüz 15-20° isti olacaq.

✓ **Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi qərb rayonlarında qısamüddətli az yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək, arabir güclənəcək. Gecə 12-16°, gündüz 24-29° isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, arabir yağış yağacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 12-16°, gündüz 22-27°, dağlarda gecə 11-15°, gündüz 18-23° isti olacaq.

**✓ 2005-ci il noyabrın 26-da Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı tərəfindən Vüsalə Yaşar qızı Eyvazovanın adına verilmiş üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5021
SİFARİŞ 1020
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00